Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 35 (6177) 18 sentyabr 2026-cı il | Qiyməti 40 qəpik

# PREZİDENT ŞAMAXIDA AÇILIŞLAR ETDİ



Bax:səh-2

## FHN Ağdamda təlim keçirdi



**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin təşkilatçılığı ilə "Azərpambıq ASK" MMC-nin Ağdam Pambıq İstehsalı və Tədarük Məntəqəsində yanğıntaktiki təlim keçirilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı FHN məlumat yayıb. Bildirlib ki, təlimin keçirilməsində əsas məqsəd pambıq istehsalı və tədarükü məntəqəsində mümkün yanğınlar zamanı əraziyə cəlb olunan yanğından mühafizə bölmələrinin qarşılıqlı fəaliyyətinin daha da təkmilləşdirilməsi və bu kimi obyektlərdə mümkün yanğınların söndürülməsi üzrə şəxsi heyətin peşəkar bacarıqlarının gücləndirilməsi, habelə obyektin aidiyyəti heyətinin yanğınlar zamanı ilkin davranış qaydaları barədə biliklərinin artırılması olub.

Təlim zamanı pambıq istehsalı və tədarük məntəqəsində baş vermiş şərti yanğın yerinə operativ çatan FHN Dövlət Yanğından Mühafizə Xidmətinin Ağdam, Tərtər, Bərdə, və Ağcabədi rayon Yanğından Mühafizə hissələri tərəfindən "yanğın" yerində çevik kəşfiyyatın aparılması və "yanğının söndürülməsi" əməliyyatı yerinə yetirilib. Təlimə ümumilikdə 44 nəfərdən ibarət şəxsi heyət və 5 ədəd texnika cəlb edilib. Uğurla keçən təlimdən sonra əldə edilmiş nəticələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

*Səxavət MƏMMƏD*

## Müharibələrin qısa zamanda dayanacağı inandırıcı deyil...

Bax:səh-4

## BİZİM ZİYARƏTÇİLƏRİ DƏDƏVƏNGƏ NİYƏ BURAXMIRLAR?



**Antiterror əməliyyatına qədər Rusiya sülənənməramlıları sürü-sürü ermənini maşınlara yığıb Kəlbəcərdəki Dədəvəng məbədinə ziyarətə gətirirdilər. Bəlkə əvvəllər heç ermənini ağlına gəlmirdi o məbədi ziyarət etsin. Çünki erməni də çox gözəl bilirdi ki, o Alban məbədidir.**

Nə isə, sözüm onda yox. Amma indi neçə ildi bizim ziyarətçiləri bu məbədə yaxın buraxmırlar. Heç uzaqdan baxmağa, şəklini çəkməyə də qoymurlar. Beləliklə, Kəlbəcərə gedən turistlərin bu arzusunu gözündə qoyurlar.

Niyəsini mən bilmirəm, bilən varsa söyləsinlər, biz də biləк. Və bir də Kəlbəcərə gedəndə bu arzuda olmayaq.

**Aqil ABBAS**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## MİLÇƏK BİR ŞEY DEYİL, AMMA ERMƏNİ KİMİ KÖNÜL BULANDIRIR



*Bir neçə gündür izləyirəm, Ermənistanda sülh istəməyən müxalif qüvvələr, eləcə də hakimiyyətdə olan bəzi məmurlar da yuxa qulağı sulayaraq müxalif qüvvələri dəstəkləyirlər. Məsələ nədir? Azərbaycandakı Diplomatik korpusun nümayəndələrinin Qarabağa və Şərqi Zəngəzura etdikləri səfər ermənilərin bərk xətrinə dəyib. Bloqerləri, saytları, özü də hakim dairələrə yaxın saytları od püskürürlər.*

*Azərbaycanlıların həm Qərbi Azərbaycanda, həm də Qarabağdakı bütün dini və tarixi abidələrini darmadağın edən, məhv edən, yağmalayan bir xalq, əvvəllər bizim canlarımızla oynayırdılarsa, indi hisslərimizlə oynayırlar.*

*Məmməd Araz yazır ki:*

*Bu oyunda kim uduzdu, kim uddu,*
*Peşimanı kim olacaq, nə bilim?..*

Bax:səh-2

## BU COCUQLARA NİYƏ ZÜLM VERİRLƏR?

**Mən ağdamlıyam, Ağdamın da kəndlərinə yaxşı bələdəm. Böyük kəndlərdən biri də Əfətlidi. Bu kənd özündə üç kiçik kəndi də birləşdirir, özü də musiqi beşiyidir. Ağdamın bir çox xanəndələri və tarzənləri bu kəndin yetişdirməsidir. Öz şaqraq zəngulələri ilə Kremlin Sütunlar salonunda hamını ayağa qaldıran Aydın Məmmədov, Aydın Niftalıoğlu, Qaraxan Behbudov, familiyasını unutduğum Barat (Ağdam Musiqi Texnikumunda bu gün Azərbaycanın xalq və əməkdar artistləri olmuş**



**neçə-neçə xanəndənin müəllimi), gözəl tarzən Cahangir müəllim və sair və ilaxır. Bu kənddə həmişə musiqi məktəbi olub. İndi həmin musiqi məktəbini bağlayıblar və köçürüblər Qaradağlı kəndinə. Deməli, uşaqlar və müəllimlər dördbeş kilometrdəki Qaradağlı Musiqi məktəbinə getməlidirlər. Niyə və nəyə görə bu cocuqlara və müəllimlərə əziyyət verirlər? Və qaradağlıların da xətrinə dəyməsin, ordan nə böyük bir xanəndə, nə də görkəmli bir musiqiçi çıxıb.**

Yadıma vaxtilə Şuşa Musiqi Kollecinin Sumqayıt Musiqi Kolleci ilə birləşdirilmələri düşdü. Şuşa Musiqi Kollecini! Sumqayıt Musiqi Kollecinə!

İndi Əfətli uşaq musiqi məktəbinin Qaradağlı musiqi məktəbinə köçürülməsi və verilməsi kimi.

Son söz Mədəniyyət Nazirliyinindir.

## GÜNÜN LƏTİFƏSİ



Biri qarnında vilka cərrahın otağına girir:

**- Doktor! Kömək elə!**

**- Heç nə eləyə bilmərəm. Artıq saat 5-dir. Mənim iş günüm bitibdir.**

**- Xahiş edirəm bir şey eləyin!!!**

Doktor vilkanı qarnından çıxarıb onun gözünə soxur:

**- Get göz həkiminin yanına, o saat 7-ə kimi işləyir.**

# PREZİDENT ŞAMAXIDA AÇILIŞLAR ETDİ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxı rayonuna səfər ediblər.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar.**

Adalet.az xəbər verir ki, tarixi Pir Ömər Sultan ziyarətgahı Şamaxı rayonunun Avaxıl kəndində yerləşir. Burada aparılan ilkin arxeoloji tədqiqatlar nəticəsində XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən artefaktlar tapılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci ildə Şamaxıya səfərləri çərçivəsində ziyarətgahda olub və abidədə konservasiya işlərinin aparılmasına dair tapşırıqlar veriblər.

Ziyarətgahın çay və qaya daşlarından tikilmiş qalıqları ötən müddət ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə konservasiya edilib. Ziyarətgahın içərisində Pir Ömər Avaxılıya, kənarlarında isə başqa şəxslərə aid 8 qəbir aşkar edilərək səliqəyə salınıb. Ziyarətgahın və onun ətrafının konservasiya işlərindən sonra qorunması üçün eyni daş materialından divar hörülüb. Divarın üzərində 16 metr hündürlüyündə səkkizbucaqlı metal konstruksiyadan hazırlanmış çardaq qurulub. Ziyarətgah və onun ətrafında konservasiya olunan sahədə buraya gələnlər üçün gəzinti zolağı yaradılıb. Aparılan işlər zamanı təbiətə və ətrafdakı qəbirlərə ziyan dəyməməsinə xüsusi diqqət yetirilib.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Pirqulu Park" hotelinin açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, "Moderngroup" MMC-nin təmsilçisi Fariz Abbaszadə dövlətimizin başçısına və birinci xanıma hoteldə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Pirqulu qəsəbəsində inşa edilən hotel Şamaxı Astrofizika Rəsədxanasının yaxınlığında yerləşir. Ərazisi 16 hektar olan kompleksə 2 hotel binası daxildir. Binalardan biri 188, digəri isə 172 yerlikdir. Burada müxtəlif kateqoriyadan 175 nömrə və 2 kottec var. Bu isə eyni vaxtda hoteldə 366 qonağın qalmasına imkan verir. Kompleksdə restoranlar, kafelər, görüş və təlimlər üçün 160 yerlik zal mövcuddur. Ərazidə 600 nəfərlik konqres binası, uşaq əyləncə mərkəzi, amfiteatr yaradılıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olublar.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılmış şərait barədə məlumat verdi. "Nəsimi Bağları" kompleksi Şamaxı rayonunda yeni istifadəyə verilən, sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirilmələri üçün yaradılmış növbəti bir məkandır.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, "Pasha Hospitality" şirkətinin baş icraçı direktoru Mehmet Balçik dövlətimizin başçısına və birinci xanıma Şamaxı rayonunun Meysəri kəndində yeni inşa olunan "Meysari Grand Hotel & SPA" barədə məlumat verərək dedi ki, kompleks çoxfunksiyalı turizm və istirahət məkanıdır.

# Milli Məclisin sədri Qoşulmama Hərəkatının Gənclər Təşkilatının Baş Qərargahında çıxış edib



**Sentyabrın 14-də Milli Məclisin sədri Sahibə Qafarova "Parlament əməkdaşlığında gənclərin rolu" mövzusuna həsr olunmuş Qoşulmama Hərəkatının Gənclər Təşkilatının (QHGT) Baş Qərargahında fəxri qonaq qismində çıxış edib.**

Bu barədə Adalet.az-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Azərbaycan parlamentinin spikeri əvvəlcə qərargahda yaradılan şəraitlə tanış olub.

Sonra gənclər qarşısında çıxış edən spiker Sahibə Qafarova Azərbaycanın Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə verdiyi mühüm töhfələr haqqında məlumat verib. Bildirilib ki, Azərbaycanın sədrliyi qlobal miqyasda ciddi çağırışların, xüsusilə COVID-19 pandemiyasının yaşandığı dövrə təsadüf edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan pandemiya dövründə Qoşulmama Hərəkatının həmrəyliyinin və praktiki fəaliyyət imkanlarının nümayiş etdirilməsində mühüm rol oynayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan pandemiyaya cavab olaraq Qoşulmama Hərəkatının COVID-19-a həsr olunmuş Onlayn Zirvə görüşünün, eləcə də BMT Baş Assambleyasının COVID-19 üzrə Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Eyni zamanda, peyvəndlərə bərabər çıxışın təmin olunmasını təşviq edib və ehtiyacı olan ölkələrə yardım göstərib.

Milli Məclisin sədri bildirib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq rolunun və institusional inkişafının gücləndirilməsinə xüsusi diqqət yetirilib. Bu institusional inkişafın mühüm istiqamətlərindən biri Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin və Parlament Şəbəkəsinin yaradılması olub. 2019-cu ildə qəbul edilmiş qərardan sonra Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi Gənclər Təşkilatına çevrilib. Parlamentin sədri qeyd edib ki, Qoşulmam Hərəkatının Gənclər Təşkilatı (QHGT) və Parlament Şəbəkəsi (QHPŞ) fərqli, lakin bir-birini tamamlayan funksiyalar həyata keçirirlər. Onlardan biri gənclər üçün beynəlxalq platforma yaradır, digəri isə Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərini bir araya gətirir. Sahibə Qafarova vurğulayıb ki, bu iki institut Qoşulmama Hərəkatının institusional əsaslarını genişləndirib, onun fəaliyyətini parlamentlərə, gənclərə və cəmiyyətə daha da yaxınlaşdırıb. Qeyd edilib ki, bu strukturlar Azərbaycanın sədrliyi dövrünün ən mühüm və uzunmüddətli nəticələri sırasındadır. Spiker Sahibə Qafarova çıxışında QHPŞ-nin yaradılmasından bəhs edərək, bildirib ki, 2021-ci ildə Madrid şəhərində Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində təsis olunan Parlament Şəbəkəsi ötən dövrdə Azərbaycan Milli Məclisinin sədrliyi ilə öz strukturunu formalaşdırıb, beynəlxalq əməkdaşlığını genişləndirib və müxtəlif ölkələrdə beş konfrans keçirib. Parlament Şəbəkəsi Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm parlament ölçüsü gətirib və beynəlxalq səviyyədə qəbul olunan öhdəliklərin milli parlamentlərdə qanunvericilik, büdcə və parlament nəzarəti vasitəsilə dəstəklənməsinə imkan yaradır. Milli Məclisin sədri çıxışında gənclərin siyasi və ictimai proseslərdə iştirakı ilə bağlı danışıb, onların həyatın müxtəlif sahələrində daha aktiv təmsil olunmasının əhəmiyyətini diqqətə çatdırıb. Sahibə Qafarova gənclərin inkişafı üçün keyfiyyətli təhsil, peşə bacarıqları, layiqli məşğulluq, rəqəmsal imkanlara çıxış, onların süni intellekt, məlumatların qorunması və rəqəmsal iqtisadiyyatla bağlı müzakirələrə cəlb edilməsinin vacibliyi haqqında da fikirlərini bildirib.

**Çıxışına yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova vurğulayıb ki, QHGT və QHPŞ Azərbaycanın sədrliyinin mühüm irsi olmaqla yanaşı, Qoşulmama Hərəkatının gələcəyinə xidmət edən aktiv təsisatlardır.**

***Aqil ABBAS***

# *MİLÇƏK BİR ŞEY DEYİL, AMMA ERMƏNİ KİMİ KÖNÜL BULANDIRIR*

***Bir neçə gündür izləyirəm, Ermənistanda sülh istəməyən müxalif qüvvələr, eləcə də hakimiyyətdə olan bəzi məmurlar da yuxa qulağı sulayaraq müxalif qüvvələri dəstəkləyirlər. Məsələ nədir? Azərbaycandakı Diplomatik korpusun nümayəndələrinin Qarabağa və Şərqi Zəngəzura etdikləri səfər ermənilərin bərk xətrinə dəyib. Bloqerləri, saytları, özü də hakim dairələrə yaxın saytları od püskürürlər.***

***Azərbaycanlıların həm Qərbi Azərbaycanda, həm də Qarabağdakı bütün dini və tarixi abidələrini darmadağın edən, məhv edən, yağmalayan bir xalq, əvvəllər bizim canlarımızla oynayırdılarsa, indi hisslərimizlə oynayırlar.***



*Məmməd Araz yazır ki:*

*Bu oyunda kim uduzdu, kim uddu,*
*Peşimanı kim olacaq, nə bilim?..*

*Amma mən ermənilərin bizim hisslərimizlə oynadığı oyunda peşimanının kim olacağını beş barmağım kimi əzbər bilirəm. 44 günlük müharibədə uduzduqları kimi bu oyunda da uduzacaqlar.*

*Dipkorpusun Qarabağa və Şərqi Zəngəzura səfəri və ondan da əvvəllər səfirlərin və atteşelərin səfərləri ona dəlalət edir ki, artıq bütün dünya Ermənistanın çabalarına baxmayaraq, Qarabağı Azərbaycan torpağı kimi qəbul edir və tanıyır.*

*Mən həyatımda iki dəfə möhkəm ağlamışam - bir dəfə cavan qardaşımı itirəndə,kədərimdən bir dəfə də Paşinyan əyanları ilə birlikdə Cıdır düzündə rəqs edəndə.hirsimdən və qəzəbimdən. Hətta övladlarım da sakitləşdirə bilmədilər.*

*İndi də siz ağlayın, Dipkorpusun nümayəndələri Şuşada "Qarabağ" mahnısının sədaları altında rəqs edirlər. Əslində prezidentin köməkçisi Hikmət Hacıyevin rəhbərliyi ilə bu səfərə çıxan Dipkorpusun nümayəndələri Şuşaya rəqs etməyə getməmişdilər, "Qarabağ" havası sümüklərinə düşdüklərinə görə rəqs etdilər.*

*Onların Qarabağa, Şərqi Zəngəzura səfərlərindəki məqsəd başqa idi. Əvvəla, öz gözləri ilə görsünlər erməni faşistlərinin vandallığını, şəhər və kəndlərimizi Xirosimanın gününə saldıqlarını. İkincisi də, son beş ildə viran olmuş Qarabağda Möhtərəm prezident İlham Əliyevin apardığı quruculuq işlərini. Böyük bir müharibədən çıxmış bir dövlət qısa müddətdə onlarla şəhər və kəndləri dirçəldib. İndi həmin əraziyə yüz minə yaxın soydaşımız köçüb, çalışır, işləyir, oxuyur, həyat qaynayır.*

*Yəqin ki, Dipkorpusun nümayəndələri qısa bir müddətdə belə böyük işlərin görüləcəyinə sözdə inanmazdılar, amma gözdə inandılar.*

*Belə bir məsəl var, sirkə nə qədər tünd olsa Ermənistanı partlada bilər. Biz Ermənistanın partlamasını istəmirik, adamlıqları varsa, adam kimi yaşamalarını istəyirik. Ermənilərin hay-küyü bizə vız gələr, amma nəhayət ki, Ermənistanı xilas etmək istəyən Paşinyanı narahat edər.*

# "Ermənistan tərəfi sonrakı proseslərdə tamamilə tərksilah edildi"

**"Vətən müharibəsində məğlub olan Ermənistan kapitulyasiya aktı ilə üzərinə götürdüyü öhdəlikləri uzun müddət yerinə yetirmədi. İmzalan birgə bəyanatdan üç ilə yaxın vaxt keçməsinə baxmayaraq Ermənistan hələ də öz silahlı birləşmələrini Qarabağdan çıxarmırdı və tərxibatlarına da davam edirdi". Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.**

O, bildirib ki, 2020-ci ildən sonrakı müddətdə Qarabağa silah-sursat, texnika və heyət daşınması rus kontingentinin gözü qarşısında baş verirdi: "Son dəfə erməni silahlılarının basdırdığı minada mülki şəxslər də daxil olmaqla, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları olmaqla 9 əməkdaşının həlak olması Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin səbir kasasını daşırdı. Ali Baş Komandan tərəfindən məhz bu hadisədən sonra antiterror əməliyyatının başlanması barədə əmr verildi. Azərbaycanın qəhrəman Silahlı Qüvvələri cəmisi 6 saat ərzində rus kontingentinin nəzarətində olan 18 minlik erməni kontingentini dizi üstə diz çökməyə vadar etdilər. Ermənistan tərəfi sonrakı proseslərdə tamamilə tərksilah edildi. Düşmən mövqeləri darmadağın olundu. Ermənilər silah-sursat, texnikanı, vasitə və avadanlıqları Azərbaycana təhvil verməklə ərazilərimizi tərk etdilər".

Ə.Verdiyev bildirib ki, beləliklə, Azərbaycan suverenliyini bütün ərazilərinin hər bir nöqtəsində təmin etmiş oldu: "Başqa sözlə desək antiterror əməliyyatı Azərbaycan ərazisində uzun illər boyu mövcud olan erməni separatizminin məhv edildiyi gün oldu".

Qeyd edək ki, bu gün 2022-ci ilin 12-14 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatının növbəti ildönümüdür.

**Vasif ƏLİHÜSEYN**

# Hikmət Hacıyev türkiyəli media nümayəndələri ilə görüşdü

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycana səfər çərçivəsində Türkiyə Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsinin nümayəndə heyətini qəbul edib.**

Adalet.az xəbər verir ki, "Anadolu"nun məlumatına görə, görüşdə Türkiyə ilə Azərbaycan arasında köklü qardaşlıq və strateji müttəfiqlik münasibətləri çərçivəsində kommunikasiya, media və ictimai diplomatiya sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

İki ölkə arasında strateji kommunikasiya sahəsində inkişaf etdirilən institusional əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Dəyişən qlobal kommunikasiya mühiti, dezinformasiya ilə mübarizə, ictimai diplomatiya fəaliyyəti, eləcə də Türkiyə və Azərbaycanın ortaq məsələlərlə bağlı beynəlxalq ictimaiyyətə yönəlmiş kommunikasiya imkanlarının



gücləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin regional proseslər və Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunması prosesində strateji kommunikasiyanın əhəmiyyəti diqqətə çatdırılıb. Türkiyə və Azərbaycan arasında güclü həmrəyliyin yalnız ikitərəfli münasibətlər baxımından deyil, həm də regional əməkdaşlıq və sabitlik baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Tərəflər Türkiyə-Azərbaycan münasibətlərinin "İki dövlət, bir millət" şüarı və Şuşa Bəyannaməsi ilə müəyyənləşdirilən müttəfiqlik ruhuna uyğun olaraq kommunikasiya sahəsində də daha yüksək səviyyəyə çatdırılmasının vacibliyini qeyd ediblər.

Görüşdə Türkiyənin Azərbaycandakı səfiri, professor Birol Akgün də iştirak edib. Görüş zamanı iki ölkənin müvafiq qurumları arasında təmasların və birgə fəaliyyətlərin davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüş zamanı Türkiyə Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsinin rəhbəri, professor Burhanettin Duranın Hikmət Hacıyevi Türkiyəyə dəvəti çatdırılıb.



*Könül NURULLAYEVA,*
*Milli Məclisin deputatı*

# "Diplomatların Qarabağa səfəri ətrafında manipulyasiya yaratmaq yolverilməzdir"

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin sentyabrın 11-12-də işğaldan azad olunmuş ərazilərə sayca 22-ci səfəri Azərbaycanın bölgədəki reallıqlarını beynəlxalq ictimaiyyətə birbaşa göstərmək baxımından mühüm hadisədir.**

Lakin Ermənistan mediasının səfərə reaksiyası bir daha göstərdi ki, İrəvanın müəyyən dairələri hələ də yeni reallığı qəbul etmək istəmir. Konstruktiv məqsədə xidmət edən səfərin ətrafında siyasi ittihamlar, tarixi manipulyasiyalar və Qərb diplomatlarına qarşı hücumlar təşkil edilib.

Əgər Ermənistan həqiqətən Azərbaycanla sülhə hazırdırsa, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinə diplomatik səfər niyə belə aqressiv reaksiya doğurur?

Erməni mediasının bir hissəsinin Fransa, ABŞ və Avropa İttifaqının nümayəndələrini daha çox hədəfə alması xüsusilə diqqət çəkir. Diplomatların Şuşada keçirilən tədbirdə iştirakı, yerli mədəni proqramlara qoşulmasını siyasi qalmaqala çevirmək heç bir məntiqə sığmır. Çünki burada söhbət Azərbaycanın suveren ərazilərindən gedir. Ermənistan isə rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edib. Görünən budur ki, Ermənistanın sülh sənədlərində və siyasi bəyanatlarda yeni reallıqla bağlı mövqeyi səmimi deyil.

Ermənistan mediasının "işğal olunmuş Artsax" kimi cəfəng ifadələrdən istifadə etməsi onların əsl simasını göstərir.Azərbaycanın tarixi torpaqlarını qondarma terminlərlə adlandırmaq beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Azərbaycan 2023-cü ilin sentyabrından sonra ərazi üzərində tam suverenliyini bərpa edib və beynəlxalq hüququn əsas prinsiplərindən biri dövlətlərin ərazi bütövlüyüdür. Ermənistan hakimiyyəti son dövrlərdə Qarabağ məsələsinin Ermənistanın xarici siyasət gündəliyində yer almadığını bildirir.

Lakin Ermənistanın media və ekspert məkanında "Artsax" sayıqlamasının yenidən gündəmə gəlməsi müəyyən suallar yaradır.

Diplomatların Gəncəsər və Xudavəng monastırlarına səfərindən sonra Ermənistan mediasında "tarixin saxtalaşdırılması", "albanlaşdırma", "mədəni soyqırım" kimi ifadələrin önə çıxarılması isə absurddur.

Bütün dünya Azərbaycanı multikural ölkə, bütün dinlərin və xalqların nümayəndələrinin dinc şəraitdə yaşadığı məkan kimi tanıyır və qəbul edir.

Azərbaycan bölgədəki dini və tarixi abidələri onların mənşəyindən asılı olmayaraq qorumağa davam edir.

Ermənistan isə bu reallığı həzm edə bilmir. Elə bu ölkənin sülh prosesinə münasibəti də məhz bu qərəz kontekstində qiymətləndirilməlidir. Sülh həm də ictimai və siyasi şüurda müharibənin yaratdığı qarşıdurmadan imtina etməkdir. Əgər bir tərəfdən Azərbaycanla sülh sazişi haqqında danışır, digər tərəfdən isə ərazi bütövlüyünü şübhə altına alan mövqe sərgilənirsə, burada real sülhpərvər mövqedən söhbət gedə bilməz.

Ermənistan revanşist ritorikadan əl çəkməlidir.

Ermənistan diplomatik korpus nümayəndələrinin Qarabağa səfərinə etiraz etmək əvəzinə, Azərbaycanla sülh prosesinin praktiki nəticələrini müzakirə edə, humanitar məsələlər, mədəni irsin qorunması və regional əməkdaşlıq haqqında konstruktiv mövqe ortaya qoya bilərdi. Amma bunun əvəzinə diplomatlar hədəfə alınır, dini abidələr üzərindən yeni qarşıdurma yaradılır.

**Sülh istəyən tərəf gələcəyə baxmalıdır. Bunun üçün isə ilk növbədə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ətrafında yaradılan siyasi manipulyasiyalara son qoyulmalı, Qarabağ mövzusu revanşizm üçün alətə çevrilməməlidir.**

# Süni intellekt həqiqətən bu qədər təhlükəli gücə çatıb?

**"Anthropic rəhbəri süni intellektin inkişafının yavaşladılmasını istəyir. OpenAI rəhbəri Sam Altman da onu dəstəkləyir. Səbəb kimi süni intellektin həddindən artıq sürətlə güclənib təhlükəli səviyyəyə çatdığı göstərilir. Mən isə düşünürəm ki, bu daha çox psixoloji təsir mesajıdır.OpenAI 2026-cı ildə təxminən 30 milyard dollar gəlir gözləyir. Amma həmin il təxminən 25 milyard dollar pul sərfi proqnozlaşdırılır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

"Şirkət 2030-cu ilin sonunadək server və hesablama infrastrukturu üçün 665 milyard dollar xərc nəzərdə tutur və



yalnız 2030-cu ildə müsbət pul axınına çıxacağını gözləyir.Anthropic-də də vəziyyət oxşardır. 2026-cı ildə 18 milyard dollara qədər gəlir gözlənilir, amma təxminən 11 milyard dollar pul sərfi proqnozlaşdırılır.Belə vəziyyətdə "süni intellekt gözlədiyimiz qədər sürətlə inkişaf etmir" demək investor üçün pis mesajdır.Amma "süni intellekt o qədər güclənib ki, artıq onu yavaşlatmalıyıq" demək tamam başqa psixoloji təsir yaradır. İnsanlarda belə təsəvvür yaranır ki, bu şirkətlərin əlində düşündüyümüzdən də güclü texnologiya var.

Bu isə marağı artırır, yeni kapital cəlb etməyə və şirkətlərin qiymətini yüksək saxlamağa kömək edə bilər. Əlqərəz, süni intellektin imkanları böyükdür. Amma onun imkanları və yaxın gələcəklə bağlı gözləntilər olduğundan artıq şişirdilir. "Artıq çox güclüyük, bizi yavaşlatmaq lazımdır" mesajı da bunun bir hissəsidir".

**Vasif ƏLİHÜSEYN**

*Rüstəm HACIYEV*



# Krallıqda həyəcan siqnalı

## *Şotlandiya, Uels və Şimali İrlandiya memorandum imzaladı*

***Kardiffdə Şotlandiya, Uels və Şimali İrlandiya özünüidarəetmə hüququ ilə bağlı memarandum imzalanması, media aləmində dünya səviyyəli sensasiya kimi partlayış yaratdı. Yerli siyasi qüvvələrə başçılıq edən hökumət liderləri-Con Suinni, Run ap İorvert və Mişel O'nil- razılıq əldə etdikləri sənəddə bəyan ediblər ki, onların millətləri "daha güclü səsə layiqdilər" və Londonu "hüquqi dəyişiklərlə bağlı konstitusion hüquqlqrı təmin etməyə" çağırırlar.***

***Bir gün əvvəl ABŞ prezidenti Donald Trampda rəsmi olaraq Şimali İrlandiya və İrlandiya Respublikasının birləşməsi ideyasını dəstəklədiyini bəyan edib.***

***Britaniya hökuməti hazırda ciddi təzyiq altındadır. Krallığın parçalanması şansları nə dərəcədə real ola bilər?***

***Krallığın üç ölkəsinin birlikdə müstəqillik memarandumunu imzalaması, hər üç ölkədə Britaniyadan ayrılmaq istəyən partiyaların hakimiyyətdə olması ilə əlaqələndirilir. Ekspertlər hesab edirlər ki, kardiff memarandumuna bənzər gec-tez üzə çıxmalıydı və cəmiyyətin müzakirəsinə verilməliydi.***

***Britaniya hökuməti təcili olaraq bəyənatla çıxış edib və bəyan edib ki, 1998-ci il razılaşması Şimali İrlandiya ilə siyasi sistemi və Londonla münasibətləri nizamlayır. Bəyanatda xüsusi qeyd olunur ki, "hazırda Şimali İrlandiya xalqının Böyük Britaniya krallığından ayrılması üçün heç bir açıq əsası yoxdur".***

***Yeri gəlmkşkən, Şotladiyada müstəqillik tərəfdarları hardasa 50 faiz aralığındadırsa, Uelsdə bu göstərici təxminən 30 faizdən bir az çox, Şimali İrlandiyada isə bu göstərici stabil olaraq 40 faizdir. Başqa sözlə desək, Krallığın hər yerində müstəqillik istəyən böyük çoxluq müşahidə olunmur. Hazırda Britaniyalıları müstəqillikdən daha çox, hökumətin vergi siyasəti, həmçinin miqrasiya və mütəşəkkil cinayətkarlıq problemləri maraqlandırır.***

***Əslində bu məsələ İsraillə bağlı Londonun apardığı siyasətə görə, ABŞ və Böyük Britaniya arasında yaşanan gərginliyin "fəsadlarıdır". Britaniyanın baş naziri Birhemin Qərbi Yerusəlimdə baş verən hadisələrə "yumşaq"yanaşdıqlarına görə, Fələstindən üzr istəməsi, İsrail hökuməti ilə yanaşı, Tramp administrasiyasınıda bərk qəzəbləndirib. Arkanzas və Florida ştatları, İsrailə baykota qarşı, Britaniya şirkətlərinə sanksiyalar tədbiq edəcəyi ilə hədələyib.***

***Məsələyə siyasi kontekdə baxsaq, Kadiff memarandumu hələki siyasi skandal yaratmaqdan o yana keçməyəcək. Britaniyada isə, bir müddət sağ və sol partiyalar bir nöqtədən çıxış etməli olacaqlar.***

***(İz.ru saytının materiallarından istifadə olunub).***

# *Yerevan Brüsseldən ticarət güzəştləri alır*

**İzvestiya qəzeti yazır ki, Avropa İttifaqı müvəqqəti olaraq, Ermənistandsn gələn mallara vergi rüsumlarını demək olar ki, 80 faizə qədər azaldacaq. Lskin bunun qarşılığında Yerevan avropa mallarının ölkəyə gətitilməsinə heç bir maniə yaratmalıdır.**



Qəzetin fikirincə, rüsumların faktiki olaraq ləöv edilməsi, Avropa bazarı istənilin hslda Rusiya bazarlnı əvəz edə bilməyəcək. Rusiyalı ekspertlər bildirirlər ki, bahslı logistika və çətin başa gələn sertifikasiyanın alınması buna mane olacaq. Rusiya XİN-i isə qeyd edir ki, Ermənistanın Aİ-lə yaxınlaşması ona üstünlük zəmanəti verməyəcək. Əksinə tədricən Ermənistanın Moskva ilə ənənəvi əlaqələruni zəiflədəcək. Bildirilir ki, Avropa parlsmenti bu gün Ermənistanla ticarət əlaqələrunin liberallaşdırılması ilə bağlı səsverəyə başlayacaq. Qəbul llunmuş qərar iki il qüvvədə llacaq.

**Rüstəm HACIYEV**



Səxavət MƏMMƏD

# Müharibələrin qısa zamanda dayanacağı inandırıcı deyil...

**Hələ Rusiya-Ukrayna müharibəsinin başlanğıcından qeyd edirdim ki, müharibələrin coğrafiyası genişlənəcək. Çünki bütün dövlətlər hərbi xərclərini artırır, yeni və böyük həcimli silah anlaşmaları imzalayırdılar. Rusiya-Ukrayna müharibəsinin ilk dönəmində müharibənin Avropaya sıçrama ehtimalları müzakirə olunsa da, bunun işartıları görünmürdü. Faktiki olaraq, ABŞ və Qərb ölkələri var gücü ilə Ukraynanı dəstəkləyir, Rusiyanı elə Ukrayna bataqlığında boğmaq istəyirdilər. Müharibə uzandıqca bunun mümkün olmadığı aydın oldu.**

**Bundan əlavə, Trampın hakimiyyətə gəlişi ilə ABŞ-nin də strateji maraqlarında ciddi dəyişikliklər ortaya çıxdı. Bayden administrasiyasından fərqli olaraq, Tramp artıq Ukraynaya yardımlar etmək əvəzinə, silahların pulunu Avropa ölkələrindən alaraq Ukraynaya təhvil verirdi. Trampın Qrenlandiya gedişi isə Avropa ilə ABŞ arasında üzdə görünən ilk əsas fikir ayrılığı kimi ortaya çıxdı. 10 il əvvəl Fransa tərəfindən Avropa ordusunun qurulması təklifi elə Avropa ölkələri tərəfindən linc olunurdusa, artıq bu fikir Avropa ölkələrində daha çox müzakirə olunmağa başladı. Ancaq Avropa ölkələri arasında da vahid mövqe sərgilənmədi və beləcə, Avropa ölkələri özləri öz ordularını qurmaq xəttini seçdilər.**

**Faktiki olaraq, Avropa ölkələrinin hamısı ordu quruculuğuna daha çox önəm verir. Polşa, Almaniya, Fransa təkcə ordu quruculuğuna önəm vermir, həm də Rusiya ilə ola biləcək təhlükəni önləmək üçün addımlar atırlar. Digər tərəfdən isə ABŞ və Avropa İttifaqı uzun illər sonra Arktikanı da silahlandırmağa başlayıblar. Artıq Rusiya ilə Avropanın bütün sərhədləri istiqamətində silahlanma işləri aparılır.**

**HƏMAS-ın İsrailə hücumu ilə başlayan Qəzzadakı müharibə daha sonra genişlənərək Suriya və Livan ərazisinə keçdi. HƏMAS-ın başladığı hücum artıq İsrail mətbuatında da - xüsusilə "Haaretz" kimi nüfuzlu qəzetlərin səhifələrində ciddi müzakirələrə səbəb olub. İsrail mətbuatı açıq şəkildə qeyd edir ki, HƏMAS-ın bu miqyaslı hücumundan İsrail dövlətinin kəşfiyyat vasitəsilə xəbəri olub. Yəni, bu hücum İsrail üçün uzunmüddətli planlar üçün bir bəhanə idi. Ümumiyyətlə, "Böyük İsrail" layihəsi üçün Ərəb Liqasının bütün dövlətləri bir-bir sıradan çıxarıldı. İsrailin böyümək siyasətinə sözdə Türkiyə, əməldə isə yalnız İran qarşı çıxırdı. İran da fərqində idi ki, bir gün ona da növbə çatacaq.**

**Ona görə də İran uzun illərdir ki, hazırda aparılan müharibəyə hazırlaşırdı. İsraillə İran arasındakı ilk 12 günlük toqquşmada İran müharibənin coğrafiyasını genişləndirmədi. Buna səbəb toqquşmada ABŞ, Böyük Britaniya və İordaniyanın İsrailin müdafiə olunmasında fəal iştirak etməsi, lakin hücumda yalnız İsrailin iştirak etməsi idi. Buna görə də İran yalnız İsrailə zərbələr endirməklə kifayətlənirdi. Yalnız 12 günlük toqquşmanın son günü ABŞ İran ərazisindəki nüvə obyektlərini bombaladı. Bu, onu deməyə əsas verirdi ki, bundan sonrakı mərhələdə müharibənin coğrafiyası istər-istəməz genişlənəcək. İran faktiki olaraq 40 günlük müharibə zamanı "etmək olmaz", "edilməz" deyilən hər şeyi etdi. İran Körfəz ölkələrinin ərazisindəki bütün ABŞ hərbi bazalarını, hərbçilərin və kəşfiyyatçıların gizləndiyi otelləri, villaları hədəfə aldı.**

**İran bununla da yekunlaşmadı, İraq ərazisindəki hərbi bazalara, kürd qruplaşmalarına, İordaniyadakı hərbi bazalara aramsız zərbələr endirdi. İranın nüvə və mülki obyektlərə endirilən zərbələrə cavab olaraq İsrail ərazisindəki Dimonaya endirdiyi zərbə isə rəsmi Təl-Əvivin bir qədər reallıq hissini özünə qaytardı. Əslində, bundan sonra müharibə səngimə mərhələsinə qədəm qoydu. Müharibənin gedişində Hizbullahın fəaliyyəti, daha sonra isə husilərlə İranın koordinasiyalı şəkildə endirdiyi zərbələr müharibələrin coğrafiyasının bir qədər də genişlənəcəyini göstərirdi. Faktiki olaraq Səudiyyə Ərəbistanı Türkiyə və Pakistanı yanına aldıqdan sonra cəsarətlənərək Yəmənin paytaxtı Sənadakı hava limanına zərbələr endirdi. Bununla da husilər aktivləşdi və hazırda Hörmüzdən sonra Babül-Məndəb boğazı da ABŞ-nin müttəfiqləri üçün iflic olub.**

**Hazırda dünyada ən asan şey İranı, Rusiyanı, Çini tənqid və ittiham etməkdir. ABŞ İrana hücum etməsə idi, Hörmüzə nəzarət sevdasına düşməsə idi, Hörmüz boğazı bağlana, minalana bilərdimi? Artıq dünya elə bir səviyyəyə gəlib çatıb ki, ABŞ-nin harasa demokratiya gətirməsinə heç kim inanmır. Özləri də etiraf edirlər ki, ABŞ yalnız iqtisadi maraqlarını təmin etmək üçün müdaxilələr edib. ABŞ-nin demokratiya gətirdiyi hər ölkə parça-parça olub, neft-qazı isə ABŞ şirkətlərinin malına çevrilib. Əslində, bütün bunlara görə Trampa xüsusi təşəkkür düşür. Əvvəl bunları yazanda, deyəndə adama dəli kimi baxırdılar, o özü bunu açıq şəkildə dilə gətirəndən sonra hər kəs böyük dövlətlərin və böyük siyasətin mahiyyətini anladı. Heç bir ölkə xalqları düşünmür. İnsanların canı cəhənnəmə, önəmli olan təbii sərvətlərə və logistikaya nəzarət etməkdir.**

**İrana qarşı ABŞ və İsrailin təcavüzündən sonra bir şey də gün üzünə çıxdı: hərbi bazalar ölkələri xilas etmir. Azərbaycanda bir çoxları deyirdi ki, Azərbaycanda Türkiyənin və ya başqa ölkənin hərbi bazası yerləşdirilsin. Son müharibələr göstərdi ki, hərbi baza təhlükədən qoruyan yox, təhlükə yaradandır.**

**Tramp da, Netanyahu da, eləcə də Azərbaycanda bir çox siyasətçilər deyirlər ki, İran nüvə silahı əldə etməməlidir. Ancaq biri də sual vermir ki, İsrailin nüvə silahı olduğu halda Nüvə Silahının Yayılmasının Qarşısının Alınması Haqqında Müqaviləyə (NPT) qoşulmayıb. Sənin varsa, başqasının niyə olmamalıdır? Ümumiyyətlə, bir çoxları unudur ki, İranda atom proqramının və nüvə infrastrukturunun təməlinin əsası məhz ABŞ və şah rejimi (Məhəmməd Rza Pəhləvi) tərəfindən qoyulub. Ən qəribəsi bilirsiniz nədir? Uranın zənginləşdirilməsinin ən yüksək faizi də elə o vaxt olub. Sənin nəzarətində olanda atom, nüvə yaxşı şeydir, nəzarətindən çıxanda pis şey olur?**

**Burdan elə anlaşılmasın ki, İranın, yaxud başqa bir ölkənin nüvə silahı əldə etməsinin tərəfdarıyam. Qətiyyən! Hətta süni intellektin müharibələrdə tətbiqinə belə şəxsən qarşıyam. Bunun fəsadlarını bütün dünya gələcəkdə iliyinə qədər hiss edəcək.**

**Rusiya ətrafında baş verən proseslər də onu göstərir ki, müharibələrin coğrafiyası bir qədər də genişlənə bilər. Polşa, Baltikyanı ölkələr və Suvalki dəhlizi növbəti münaqişə zonasına çevrilə bilər.**

**Hazırda dünya ölkələrinin bir çoxu avantürist, acgöz, siyasi mədəniyyəti olmayan liderlərin, o liderlərin də bir çoxu silah sənayesinin kuklasına çevriliblər. Ona görə də müharibələrin qısa zamanda dayanacağı inandırıcı deyil, əksinə, baş verənləri daha böyük müharibəyə hazırlıq mərhələsi kimi səciyyələndirmək olar.**

# Yaxşılıq səssiz ediləndə insanların qəlbində qalır

**Bəzən bir insan haqqında danışmaq üçün onun vəzifəsini deyil, insanlara münasibətini anlatmaq kifayətdir.**

Artıq altı ildir ki, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nin Ağdam Rayon Polis Şöbəsinin rəisi Pərviz İsmayılovun qazilərimizə, şəhid ailələrinə və maddi imkanı məhdud ailələrə göstərdiyi diqqətin şahidiyəm.

Hər il sentyabr ayında qazilərimizin və imkansız ailələrin övladlarının məktəbə hazırlığı üçün məktəbli geyimləri, çantaları, dəftərxana ləvazimatları və digər ehtiyacları qarşılanır. Yeni il, Ramazan və Qurban bayramlarında isə bir çox qazi, şəhid və ehtiyacı olan ailənin qapısı döyülür, bayram sovqatları çatdırılır.

Amma mənim üçün bu diqqətin ən dəyərli tərəfi onun yalnız maddi yardımla məhdudlaşmamasıdır.

Qazimizin toyu olanda sevinclərinə şərik olmaq, xəstələnəndə halını soruşmaq, çətinliyə düşəndə yanında olmaq - bunlar insanın vəzifəsindən daha çox, ürəyinin böyüklüyünü göstərən davranışlardır.

Yaxın günlərdə qazilərimizdən birinin əməliyyat keçirməsi, ayağının amputasiya olunması xəbəri hamımızı sarsıtdı. Belə ağır bir anda ilk olaraq onun yanında olanlardan biri də Pərviz İsmayılov oldu. Özünün tapşırığı ilə əməkdaşlarının qazimizi xəstəxanada ziyarət etməsi, onun səhhəti ilə maraqlanması və ailəsinə mə-



nəvi dəstək göstərməsi xüsusi diqqətə layiq bir davranışdır.

Mən bu ailələrin bir çoxunu tanıyıram. Kiminsə məktəbli övladının ehtiyacı olur, kiminsə bayramda qayğıya ehtiyacı olur, kiminsə xəstəlik xəbərini eşidirik, kiminsə sevincinə şərik olmaq lazım gəlir...

Mənim gördüyüm iş isə sadəcə bir körpü olmaqdır - ehtiyacı olan ailəni tanımaq, onların vəziyyətini çatdırmaq və yardım etmək istəyən insanla həmin ailəni bir araya gətirmək.

Bu illər ərzində dəfələrlə bunun şahidi olmuşam: Pərviz İsmayılov heç vaxt məndən - "kimdir?" deyə soruşmayıb , "nəyə ehtiyacı var?" deyə soruşur.

Bəlkə də insanlıq elə budur.

Çünki Şəhid ailəsinin, qazinin, xəstə və ya imkansız bir insanın yanında olmaq yalnız bayram günü bir sovqat aparmaq deyil. Bəzən bir telefon zəngi, bir "necəsən?", bir xəstəxana ziyarəti, bir toyda yanında olmaq, bir çətin gündə əl uzatmaq insan üçün maddi yardımdan daha qiymətli olur.

Ağdam bizim üçün sadəcə doğma torpaq deyil. Burada hər evin bir xatirəsi, hər ailənin bir ağrısı, hər qazi və şəhid ailəsinin özünəməxsus hekayəsi var.

Və mən bir Ağdamlı, bir Şəhid anası kimi, bu insanların yanında olan hər kəsi qiymətləndirməyi özümə borc bilirəm.

Pərviz İsmayılovun illərdir davam edən bu diqqəti və qayğısı üçün təşəkkür edirəm.

Allah qazilərimizə şəfa, şəhidlərimizə rəhmət, ailələrinə səbir versin.

Yaxşılıq səssiz ediləndə belə, onun izi insanların qəlbində qalır.

Biz o izi görürük, bilirik və unutmuruq.

**Maya QULİYEVA**

# Nədən bizim televiziyalarda ingilis və rus dillərində...

**"Mir Şahin Ağayev yazır: "Erməni mənbələri daha çox bloqer paylaşımlarını tirajlayırlar. Etiraf edək ki, ABŞ-ın, Fransanın Azərbaycandakı təmsilçilərini, elə Hindistanın səfirini və yalançı "tarix məxəzini" də ustalıqla işıq üzünə çıxarmağı Kamran Razmovar kimi bloqer bacardı".Ustad jurnalistin "TV uduza bilməz! Uduzmağa haqqımız yoxdur" fikri ilə razılaşmamaq olmur".**

Adalet.az xəbər verir ki, bunu sabiq millət vəkili Etibar Əliyev deyib.



"Azərbaycan televizyaları Azərbaycan vətəndaşlarına uduzub. Səbəb-nəticə əlaqələri bəllidir. Nədən bizim televiziyalarda ingilis və rus dillərində elmi-populyar, siyasi verilişlər yoxdur?

Ölkədə bu dilləri bilən kifayət qədər savadlı adamlar var. Diplomatların Qarabağa səfərinin təhlili və bundan əndişələnən erməni revanşistlərinə cavablar televiziyalar vasitəsilə (iki dildə) verilsəydi ermənilər daha çox narahat olardılar.

Narsisizm xəstəliyi bizi yaman günə qoyub.Yaxşı yadımdadır. 1988-ci ildə Akademik Ziya Bünyadovun Elmlər Akademiyasının "Elm" qəzetində dərc olunmuş "Poçemu Sumqait?" məqaləsi bütün Ermənistanı çalxalamışdı. 5-6 erməni akademiki Ziya Bünyadova cavab verməyə cəhd göztərmişdilər, lakin alınmamışdı. Ziya müəllim ermənilərin tarixi keçmişdə bizə qarşı yazdıqları saxta, yalançı tarixlərini ifşa etmişdi. O vaxtlar yalnız qəzet və ağ-qara televizor var idi. İnformasiya "müharibə"si bu iki məkanda tüğyan edir və çox sürətlə yayılırdı. Bizim alimlərimiz sosial şəbəkələrdən didərgin düşüb. Bu alternativ məkan (televiziyalarda onlara yer verilmir) elmsiz adamların əlinə düşüb. Narsisizm xəstəliyi bizi yaman günə qoyub Ancaq incimək, küsmək vaxtı deyil. Zəfərimizi substansionallığını var gücümüzlə qorumalıyıq. Bu Zəfər bizə ağrılarla, böyük itkilərlə başa gəlib. Bu Zəfər hər bir fərdi ümidsizlik sindromundan xilas edib. İşğaldan azad olunmuş torpaqlarımıza köçən, təhsil alan, işləyən, hərbi xidmət keçən hər bir şəxs, həm də mənəm. Mən oradayam", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



*Şərif AĞAYAR*

# Aqil Abbasın qorxusundan yazdığım yazı

## “Rəmiş” povesti üzərinə bir neçə cümlə

**Kitabın təqdimat mərasimində, o boyda adamın içində səhnədən lap arxa oturacağa - mənə səslənir:**

- Şərif Ağayar, oxumusanmı kitabımı? Mən sənin bütün kitablarını oxumuşam!

Deyə bilmirəm ki, Aqil müəllim, əvvəla, sizi çox istəyirəm, adam çox istədiyi adamın yazılarını da çox istəyir, ikincisi, kitab mənim işlədiyim nəşriyyatda çıxıb, üçüncüsü, nəşriyyatdan əvvəl ”Ədalət” qəzetində hissə-hissə yayımlanırdı, hamısını ardıcıl izləyə bilməsəm də, müəyyən hissələri ilə tanış idim, dördüncüsü, həddim nədir oxumayam, bir gün yaxamdan tutub bax beləcə soruşacağını bilirdim!

Deyə bilmirəm. Deputat adamdır. Biri düz başa düşər, o biri əyri. Pis zəmanədə yaşayırıq. Heç nədən ötrü o buna yaltaqlanır, bu onu tərifləyir, o buna-bu ona qarşılıqlı mədhiyyələr yazır.

Mən Aqil müəllimlə münasibətimi zamanın çirkaba batmış şübhələrindən qorumaq istəyirəm.

”Panorama” qəzetində işə başladığım vaxtlar (1998) mərhum ”Azərbaycan” nəşriyyatının altıncı mərtəbəsində ”Ədalət” qəzeti ilə yanaşı otururduq. Dəhlizin o başında Aqil müəllimin ağ aynabəndli kabineti vardı. Mən o kabinetin ağzında onlarla, yüzlərlə, minlərlə əlacsız kənd adamı, rayon adamı, şəhər adamı görürdüm. Onda hələ Aqil Abbas millət vəkili deyildi, sadəcə millətin vəkili idi.

Bizdə millətin vəkili olmaq, millət vəkili olmaqdan qat-qat çətindir.

O illərdə xeyli cavan olsam da düşünürdüm: Aqil Abbas bu qədər insanın problemini necə həll edir? Ümumiyyətlə, həll edirmi? Axı adətən kütləvi xeyirxahlığın arxasında mütləq bir yalan, bir yanlış, bir kələk gizlənir.

Cavabım öz-özünə gəlirdi: əksəriyyəti yurd-yuvasını itirmiş bu köhnə kepkalı, əyri ayaqqabılı, nimdaş kostyumlu adamlar konkret problemlərdən ötrü gəlirlər, əgər işləri düzəlməsə, bir daha gəlməzlər, ağ aynabəndli otağın qarşısındakı qələbəlik azalmırsa, demək, işin içində səmimiyyət daha çoxdur.

Onu da deyim, ürəyimdə qalmasın, Aqil Abbas millət vəkili seçiləndən sonra da millətdən uzaq düşmədi, nömrəsini dəyişmədi, telefonu susmadı və mənim illər əvvəl gəldiyim qənaəti daha da möhkəmləndirdi.

Bir çoxları kimi, millət vəkili seçilmək onu millətə vəkillik eləməkdən ala qoymadı!

Yaxşılıq Aqil Abbasın fitrətindədir - bunu dünən də bilirdim, bu gün də bilirəm və sabah da biləcəyəm. Yaxşı adamı isə çox istəmək lazımdır və çox istədiyin adamın yazdığı da, danışdığı da sənin üçün maraqlıdır.

Dünyada Tanrının varlığından tutmuş Rəhim Qazıyevin Şuşanı verməsinə qədər hər şeyə ciddi şübhəm var, lakin Aqil Abbasın Ağdam sevgisinə zərrəcə şübhəm yoxdur.

Və Aqildə sevdiyim cəhət Ağdamı adamlarından sevməsidir.

Fikir verin, hap-goplu vətən sevgilərinin içində insan olmur.

Şuşa olur, şuşalı yox!

Laçın olur, laşınlı yox.

Aqil isə bir yeri sevəndə, adamadam, ev-ev, məhəllə-məhəllə sevir. Hətta Ağdama qonşu rayonlara da aşağı-yuxarı eyni duyğular bəsləyir. Bir qız sevərsən, onların məhəlləsində qalan istənilən adamı çox istəyərsən - bax o cür!

Qarabağlını sevməyənin Qarabağ sevgisinə inansanız, babalım boynunuza, o dünyada iki əlim yaxanızdadır. Axı vətən həm də adamlardır. Hətta daha çox admlardır. Bir az da dərinə getsək, yalnız adamlardır. Çünki bayaq varlığına şübhə etdiyim Tanrı öz kitabında buyurur: ”Hər şeyi insan üçün yaratdım”.

Yəni vətəni də!

Bu mənada şəhid də vətən üçün deyil, insan üçün ölür. Yerdə qalanlar üçün yəni. Düşmən qabağında özünü müdafiə edə bilməyən qocalar, qadınlar, uşaqlar üçün. Torpağı da onlar üçün qoruyur. Torpaq - altında danadişi gəzdiyi üçün yox, üstündə insan yaşadığı üçün müqəddəsdir. Aqil müəllim insanı duyur. Onun nəğməsini eşidir. Baxanda nə istədiyini bilir. Çörək, pul, əyin-baş. Hətta içki! Gülməyin. Ədəbi aləmin bu həyat dopinqi ilə münasibət insandan ariflik istəyir. Həm içə, həm içirdə bilməlisən.

Aqil müəllimi Ağdamın divanəsi də saymaq olar. Onunku başqa sevdadır. Dəfələrlə görmüşəm. Müşahidə eləmişəm. Bir dəfə hansısa mənasız müğənni açıqlama vermişdi, demişdi, küsüb gedirəm ölkədən. Aqil Abbas efirdə əsəbiləşdi, dedi, gedirsən cəhənnəmə get, sən Arifsən, Qədirsən, Rəmişsən getməyinə üzülək? Fikir verin, üçü də ağdamlıdır! İnanın, siyahını uzatsa belə gedəcəkdi: Səxavətsən, Sədisən, Şahmalısan, Sarasan, Akifsən, Mənsumsan, Təyyarsan, Səbinəsən... Bir saat adam adı çəksə, yalnız ağdamlılar qurtarandan sonra keçərdi növbəti siyahıya: Xan Şuşinskisən, Yaqub Məmmədovsan, Məhəbbət Kazımovsan, Vidadi Bərdəlisən... Yəni yaxın rayonlara... Şuşaya, Ağcabədiyə, Laçına...

Lakin onun Ağdam sevgisində regionçuluq yoxdur, əksinə, Ağdam onun Azərbaycanı və dünyanı sevmə səbəbidir.

İlini unutmuşam, mərhum Qədir Rüstəmov mətbuatda Habil Əliyevə sataşmış, ”Cücələrim” mahnısını çox pis lağa qoymuşdu. Habil müəllim mənə zəng vurdu. Aləmi barmağına dolayan yumor ustasının cırnadığını görəndə xeyli güldüm. Amma adam ciddi idi, dirəşirdi ki, götür filan-filan şeyləri mənim adımdan yaz qəzetində. Təbii, Qədir haqqında xoşagəlməz sözlər işlədirdi. İnanın, ilk ağlıma Aqil Abbas gəldi. Habilin dediklərini yazsam, hər kəs bir yana, Aqilə nə cavab verəcəkdim?

Habil müəllimi birtəhər yola gətirdim. Dedim, sizi də tanıyırıq, Qədiri də, o dəlidir, ona baş qoşmayın. İncəvara sözüm ağlına batdı, məndən də razı qaldı, elə bildi onu istəyib deyirəm, daha bilmədi ki, Aqilin qorxusundan belə edirəm.

Bu yazını da Aqil Abbasın qorxusundan yazıram. Doğrudan da bütün kitablarımı oxuyur, düşəndə yazı yazır. Mən niyə oxumayım, mən niyə yazmayım, göydən-zaddan gəlmişəm?

Desəm, oxudum, bəyənmədim, deyəcək, bəyənmədiyini yaz.

Aqil Abbasdan qaçış yoxdur!

Amma gəlin insafı itirməyək. Aqil ola, Rəmişdən yaza, mən də onu bəyənməyəm. Mümkün iş deyil! Mənə desələr, Qədirdən, Rəmişdən kim yazsın, deyərəm, Aqil Abbas. O, Rəmişdən, Qədirdən nə yazsa, nə danışsa, saatlarla oxuyar-dinləyər, zərrəcə yorulmaram.

Aqil çox şirin danışandır. Ətrafda qadın-uşaq olmaya, 18+ ifadələri sərbəst işlədə, söhbətindən doymaq mümkün deyil.

”Rəmiş” povestindən də doymadım. Kitabı ora-bura çevirib davamını axtardım. Düzdür yazdığı mətnin süjeti bitir - Rəmiş haqq dərgahına




yollanır. Lakin yenə də istəyirsən bu adam bu adamdan danışsın. Məhz danışsın. Çünki ”Rəmiş”i oxumaqdan çox dinləyirsən. Elə bilirsən Aqil müəllim o cümlələri nəsr kimi yazmayıb, şeir kimi deyib. Hər sözün arxasından səsini eşidirsən. Məncə, Aqil Abbasın maraqla oxunmasının sirri burdadır. Elə bil özü ilə söhbət edirsən. Ona görə istənilən hekayəsi, povesti, romanı su kimi axır. Üstəlik, canlı xalq dili, Qarabağ koloriti...

Əslində, ”Rəmiş”i mən janr etibarı ilə roman kimi qəbul edirəm. Bilirəm, sovet adamları üçün roman tamam fərqli janrdır, lakin bugünkü dünya standartları ilə ”Rəmiş” doğrudan da romandır. Həcmi problem deyil. Bundan da qısa romanlar oxumuşam. Həm də indi dünyada povest adlı janr yoxdur. Hekayədir, uzun hekayədir, romandır. Həm də ”Rəmiş” vahid süjet ətrafında şaxələnir, haçalanır, axırda toparlanmaq şərti ilə müxtəlif məcralara yönəlir. Ən başlıcası, mətnin kosepti var. Aqil müəllim A-dan Z-yə birqatlı realist əsər yazmayıb. Rəmişin gitarada çıxardığı hoqqaları, o da mətndə çıxardıb. Gah mələklərlə görüşdürüb, gah Teymurlənglə, gah da Paqanini ilə... Gah bu dünyada gəzdirib, gah o dünyada. Həm zaman, həm məkan, həm də mistik-metafizik aləmlər səyahətinə çıxardıb. Hərdən ustad sənətkarın ifalarının içinə girib, bütün mətni o ifaların ahənginə və ovqatına kökləyib. Rəmişin Paqanini roluna dəvət olunması faktından çıxış edərək, obrazları eyniləşdirib, hər ikisindəki şeytani çalara vurğu salıb, bununla da insan kimi, onun duyğuları kimi sənətin də sərhəd tanımadığını diqqətə çatdırıb. Bu cür qeyri-real səyahətlər, əsasən nəqletmə (povedat) üzərində qurulan povest janrına çox da uyğun gəlmir. Bildiyim qədər, povest adətən realist planda və birxətli təhkiyədə yazılır.

Povestin - müəllifə hörmət naminə biz də belə adlandırırıq - ən çox bəyəndiyim cəhətlərindən biri Aqil müəllimin özünə ironiyasıdır. Əsərdəki Şair obrazı Molla Pənah Vaqifdən, Hüseyn Caviddən, Səməd Vurğundan, İsa Muğannadan, Yusif Səmədoğludan üzübəri bizə tanış xarakterdir, qələm əhlinin ümumiləşmiş obrazıdır və həm də Aqil Abbasın özüdür. Bəzən, doğrudan da, yazıpozu adamı varlı-pullu sənət adamları və nüfuzlu dövlət başçıları arasında çox yetim görünür. Şair də təxminən belə bir tale yaşayır və müəllif bəzi adamların gizli-gizli öyündüyü məqamlarda özü ilə əməlli-başlı məzələnir.

Bu bir yazıçı üçün üstün məziyyətdir!

Lakin Aqil müəllim həm də ziddiyyətli adamdır. Bir dəfə rəhmətlik Mehdi Bayazid səmimi məclislərin birində ona dedi: ”Səni cənnətlə cəhənnəm arasında dartışdıra-dartışdıra qalacaqlar!” Elə bildim inciyəcək, amma əksi baş verdi, söz necə xoşuna gəldisə, qalxıb Mehdinin alnından öpdü. Povestdə də eyni ziddiyyət görünür. O, Rəmişin bütün ipləri qoparan azadlığını gah təqdir edir, gah da buna görə dostunu əməllibaşlı danlayır.

Povestdə Qurban Pirimovla, Maestro Niyazi ilə, Aşıq Ədalətlə, Ceyhun Mirzəyevlə, Aydın Dadaşovla, Zeynəb Xanlarova ilə görüşlər real, canlı və yaddaqlandır. Qədir Rüstəmov isə haradasa ikinci qəhrəman kimi çıxış edir. Rəmişi Qədirsiz, Qədiri Rəmişsiz təsəvvür eləmək çətindir. Onlar davaları ilə də, dostluqları ilə də bir-birini tamamlayır və məncə, bu tandemin dəyərini Aqil Abbasdan yaxşı bilən yazıçı yoxdur. Bəlkə, bir az da buna görə adam doymur ”Rəmiş” povestindən. Onu sanki dəryadan bir damla kimi dadırsan. Düzdür, Rəmiş obrazı kifayət qədər dolğun işlənib, onun qeyri-adi həyatı və sənəti öz bədii dəyərini alıb, lakin yenə də istəyirsən mövzu davam eləsin. Bəlkə, realist bir əsərdə, bəlkə, xatirələrdə, bəlkə, gündəliklərdə, bilmirəm. Təbii, Aqil müəllim özü daha yaxşı bilər. Mən bircə Aqilin Rəmişdən və Qədirdən yazılarını yenə də, yenə də oxumaq istədiyimi bilirəm. Çünki bu, Aqil müəllimin öz mövzusudur. Qarsia Markes xatirələrində yazır ki, gəncliyimdə Kafkanı yamsılayırdım, bir gün doğulduğum evə getdim və birdən-birə bütün varlığımla bura aid olduğumu anladım. Beləliklə, dünyanı, bəlkə, Kafkadan da artıq lərzəyə salan bənzərsiz əsərlər yaranmağa başladı.

Atatürk necə deyirdi: ”...sən özünə dönəndə böyük olursan!”

Xalq da pis deməyib: daş öz yerində ağır olar!

Aqil Abbas Qarabağdan yazanda bənzərsizdir.

Povestin sonundakı məni sevindirəm qeyd dediklərimi bir daha sübuta yetirir: ”Ağdam, Abdal-Gülablı, Kəhrizin üstü, may 2025”. Aqil müəllim öz məkanında, öz zamanındadır. Bura həm də Rəmişin kəndidir. Hətta tez-tez gedib su içdiyi, xəyala daldığı, illərlə həsrətini çəkdiyi və həsrəti ilə dünyadan köçdüyü cənnətin bir parçasıdır.

Aqil Abbas məhz ora gedir və Rəmiş haqqında povesti məhz orada yazır.

Bu qeyd həm də bizə əsas verir ki, Aqil Abbası xoşbəxt yazıçı sayaq.

**Çünki biz altı-yeddi il əvvəl bu sehrli məkanı yalnız yuxularımızda görə bilərdik.**

### *Azərbaycan güclü və qlobal arenada sözünü deyən bir ölkədir*

**Hazırda Azərbaycan çox güclü və qlobal arenada sözünü deyən bir ölkədir.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin baş müşaviri Seyit Sertçelik ”Türk dünyası dialoqları: Ortaq gələcək, ortaq vizyon” adlı panel iclası zamanı deyib.

O qeyd edib ki, Türk Dövlətləri Təşkilatının inkişafında ölkə başçılarının rolu böyükdür.

”Türk Dövlətləri Təşkilatı hazırda beynəlxalq aləmdə ciddi aktor kimi formalaşır. TDT olaraq regionda sülh və əminamanlıq üçün çalışırıq. Hazırda dünyada müxtəlif təhdidlər mövcuddur. Belə bir dönəmdə birlik olmağımız əhəmiyyət kəsb edir. Biz bölgədə yalnızca sülh və əminamanlıq üçün çalışırıq”,- deyə o bildirib.

Qeyd edək ki, Bakıda Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən ”Türk dünyası dialoqları: Ortaq gələcək, ortaq vizyon” adlı panel iclası keçirilir.

İclasda Türkiyə Prezident Administrasiyası Kommunikasiya İdarəsinin və Azərbaycan rəsmiləri, Milli Məclisin deputatları, hər iki ölkədən ekspertlər, media nümayəndələri iştirak edirlər.

Panel iclasında Türk dünyasında əməkdaşlığın inkişafı, ortaq dəyərlər və ortaq gələcək vizyonunun formalaşdırılması, informasiya və kommunikasiya sahəsində qarşılıqlı fəaliyyət, eləcə də qlobal çağırışlar fonunda Türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi məsələləri müzakirə olunur.

### *“Amerikalılar ingilis dilini heç kimə sırımırlar”*

**”Başqa ölkələrdən ingiliscə məktəblər açmağı tələb etmirlər.İngilis dilini ikinci dövlət dili elan edilməsi üçün təzyiq göstərmirlər.Nə edirlər əvəzində? Səssizcə elmlə məşğul olur, texnologiyaları inkişaf etdirir, Qalaktikamızın sərhədlərini aşaraq Kainatın sirlərini çözürlər”.**

Adalet.az xəbər verir ki, bunu Türkiyədə yaşayan məşhur jurnalist İbrahim Nəbioğlu deyib. ”Gözəl filmlər çəkir, ingilis dilində tiraj rekordları qıran elmi, bədii kitablar yazırlar. Nəticədə nə baş verir?Bütün Dünya bu dili öyrənməyə çalışır. Həm də üstünə top-tüfəng yeridilmədən. Ehtiyacdan öyrənirlər bu dili. Biz nə edirik? Uşağım rusca danışsın deyə onu 11 il məktəbə göndəririk. Get, oxuma, təkcə ”privet, do svidania” öyrən, yetər. Nə də olsa 150 balla universitetə girəcəksən Dünya isə Elmin, Texnolojinin, Gələcəyin dilini öyrədir övladlarına. Amma Ana dilində 7 il oxuyandan sonra. Çünki Yaxşı Gələcək qurmaq üçün xəyal qurmalıdır uşaq.Uşaqlar isə xəyalları Ana dilində qurarlar”, - deyə o, bildirib.

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Gözünüzə su verin...

**Bizi dünyaya tanıtdıran tarixi şəxsiyyətlər, alimlər, yazıçılar, şairlər, jurnalistlər, bir sözlə, mədəniyyət və incəsənət xadimləridir. Heç şübhəsiz ki, onların varlığı bir xalqın, bir millətin varlığı, yaşamı deməkdir!**

**Amma onlar da dünyasını dəyişəndən sonra millət və xalq da o dahi insanları unutmalı deyil! Əgər unudurlarsa, çox təəssüf!!! Görünən budur ki, ilk növbədə həmin tarixi şəxsiyyətlər öz vətənlərində yaddan çıxmamalıdı!**



**Ancaq neynəmək olar ki, bu böyük insanlar öz vətənlərində unudulurlar. Ölüm qorxulu deyil, unudulmaq qorxuludur! Füzuli rayonunun da çox istedadlı və dahi şəxsiyyətləri olub və bu gün də var! Lakin onların heç olmasa, birinin yaradıcılıq gecəsi keçirilmir! Bəlkə keçirilir, biz bilmirik! Elman Məmmədov mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləyəndə səhv eləmirəmsə, belə tədbirlər olurdu, ancaq indi olmur.**



**Füzuli Rayon Mədəniyyət Şöbəsinin müdirinin diqqətinə çatdırırıq: Seyid Şuşinskinin, Ağabala Abdullayevin, İslam Rzayevin, Süleyman Abdullayevin, Nizami Abdullayevin, İlyas Əfəndiyevin, Elçinin, Seyran Səxavətin, Əşrəf Veysəllinin, Vaqif Bəhmənlinin, Nemət Veysəllinin, Mahmud Qacarın, Mətləb Misirin, Oruc Sədanın, Şükür Şənolun, Rəşad Süleymanovun, Fehruz Atakişiyevin, Məcnun Namazəliyevin ... yaradıcılıq gecələri niyə keçirilmir??? Onları kim yada salmalı, kim xatırlamalı və kim xalqa sevdirməlidir??? Əlbəttə, aidiyyəti dövlət qurumları və o cümlədən rayon mədəniyyət şöbəsi! Amma qonşu Ağdam rayonunda bu ənənə yaşayır və mədəniyyət, incəsənət xadimlərinin davamlı olaraq yaradıcılıq gecələri təşkil edilir. Özü də yüksək səviyyədə! Hələ mən yeni kitabları çapdan çıxmış yazıçı, şair, jurnalist, publisistlərlə görüşləri demirəm... Ağdamda şair və yazıçılarla görüşlər çox möhtəşəm keçirilir.**







**Gözünüzə su verin ey! Görün, ağdamlılar öz ziyalılarına hansı sevgini göstərir! Yaxşıdan yaxşı şey öyrənmək lazımdır! Bəlkə bu sözlərim Füzulinin bəzi vəzifə sahiblərinin xətrinə dəydi! Xətirlərinə dəydisə, soyuq su içə bilərlər. Kabinetdə oturmaqla iş düzəlmir. Xalqa xidmət edən insanları yada salmaq və bir daha xalqa sevdirmək lazımdı, cənablar!**

**Düşünürük ki, bu, o qədər də çətin iş deyil! Əgər biz adını çəkdiyimiz o dahi şəxsləri unuduruqsa, deməli, keçmişimizi, bu günümüzü və sabahımızı yaddan çıxarmış oluruq!!!**

## *Kobud qayda pozuntularına qarşı mübarizə...*




**Heç kimə sirr deyil ki, şəhərlərdə və respublika əhəmiyyətli avtomobil yollarında hərəkətin təhlükəsizliyini bir qayda olaraq yol polisi təmin edir. El arasında belə bir deyim də var:" Yol polisi olmasa, sürücülər bir- birinə qənim kəsilər". Bu deyimdə böyük həqiqət var.**

Çünku harda yol polisi və radar yoxdursa , həmin yerlərdə bir qayda olaraq sürücülər yol hərəkəti qaydalarını kobud surətdə pozurlar. Ona görə də bu anlarda bir çox halda ağır qəzalar qaçılmaz olur! Bunu heç kim bilməsə də , sürücülər daha yaxşı bilirlər. Respublikanın avtomobil yollarında isə belə qanun pozuntusuna tez- tez rast gəlmək mümkündür. Bir mənalı olaraq deyə bilərik ki, Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının tağımlarında bütün qayda pozuntularına, o cümlədən kobud qayda pozuntularına qarşı ciddi mübarizə aparılır qabaqlayıcı profilaktik tədbirlər görülür.

Belə ki, stasionar postlarda sürücülər saxlanılır, onlarla maarifləndirici söhbətlər aparılır, spirtli içkilər qəbul etməməyi , sükan arxasında yorğun olduqda əyləşməməyi tövsiyə edirlər. Yol polisi əməkdaşlarının sürücülər arasında belə səmimi və maarifləndirici söhbətlər aparması onların təhlükəsizliyinə xidmət edir , baş verə biləcək yol-nəqliyyat hadisələrinin,eləcə də ölümlə nəticələnən faktların qarşısının alınmasında əsaslı əhəmiyyət kəsb edir. Bütün bunlara görə yol polisinə hərəkət iştirakçıları həmişə minnətdarlıq edirlər.

Amma Yol Patrul Xidməti Alayının elə tağımları da var ki, orda sürücülərlə, hərəkət iştirakçıları ilə maarifləndirici söhbətlər günün tələbləri səviyyəsində təşkil edilmir, yol - nəqliyyat hadisələri baş verməmişdən öncə qabaqlayıcı tədbirlər həyata keçirilmir!.Bu isə son nəticədə qayda pozuntusuna qəzaların artamasına gətirib çıxarır. Bir neçə tağım komandiri tapşırılmış işi yüksək səviyyədə yerinə yetirmir və onların xidmət etdiyi avtomobil yolunda ağır qəzalar baş verir. Belə ki , Alayın 1-ci, 3-cü, 6-cı, 12- ci tağımlarında hərəkətin təhlükəsizliyinin təşkilində nöqsanlara yol verilir .

Sərxoş sürücülərə və sərisindaşınmaya qarşı mübarizə günün tələbləri səviyyəsində deyil! Xüsusilə də sərxoş sürücülərlə mübarizə zəifdir. Hər halda , bu nöqanlara baxmayaraq, əksər tağımlarda hərəkətin təhlükəsizliyi yüksək səviyyədə təşkil edilir, yol- nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bütün bunlar onu göstərir ki, öz işinə vicdanla, məsuliyyətlə yanaşan yol polisləri çoxdur! Amma hərəkətin təhlükəsizliyində sürücülərn də üzərinə böyük məsuliyyət düşür. Gərək onlar da bu məsuliyyəti heç vaxt unutmasınlar!!!

## *Dərslər başlayan gün...*



**Bir neçə gündən sonra ümumtəhsil, ali və orta ixtisas məktəblərində dərslər başlayır. Yeni dərs ili ilə əlaqədar olaraq hərəkətin təhlükəsizliyin təmin etmək üçün Bakıda artıq bir çox tədbirlər həyata keçirilib. Belə ki, Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin əməkdaşları nəqliyyat vasitələrinin və məktəblilərin təhlükəsizliyin üçün zəruri addımlar atıb. Məktəblərin yanındakı piyada zolaqları rənglənib, yol nişanları səliqəli formaya salınıb və eyni zamanda maarifləndirmə işləri aparılıb.**

Bununla yanaşı, yollarda hərəkət edərkən onlara diqqətli olmaq tövsiyə edilib. Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə Əlaqələ Bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirli deyir ki, sentyabrın 15- də valideynlərlərin və müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Çünki məktəbə gedən və qayıdan uşaqlar yol hərəkəti qaydalarına riayət etməlidir.

Əks təqdirdə bu, xoşagəlməz hadisələrlə nəticələnə bilər. Həmin gün Bakıda nəqliyyat vasitələrinin hərəkəti intensiv olur və çox yerdə tıxaclar yaranır. Ona görə də şəxsi avtomobillərdən az istifadə edilməli, ictimai nəqliyyata üstünlük verilməlidir! Bu həm təhlükəsizlik baxımından , həm də tıxacların baş verməməsi üçün çox əlverişlidir! Təəssüf ki, bir çox sürücülər buna əhəmiyyət vermir, şəxsi avtomobillərdən istifadə edir, yollarda tıxaclar yaradırlar.

Ona görə də valideynlər dediklərimizi yaddan çıxarmamalı,çalışıb ,imkan daxilində içtimai nəqliyyatdan istifadə etməlidirlər. Birinci siniflərdə dərs saatı bitə dən sonra onlar məktəbdə nəzarətsiz qalmamalı, müəllimlər onlara diqqət yetirməli, valideynlər gələndən sonra uşaqları onlara həvalə etməlidirlər. Yeni yol hərəkətinin təhlükəsizliyində məktəb-valideyn münasibətləri də önəmli əhəmiyyət kəsb edir. Ona görə də bu tövsiyələrimizi onlar unutmamalıdırlar! Yeni dərs ilində hər məktəbli yol hərəkəti qaydalarına əməl etsə, heç şübhəsiz ki, onların həyatları üçün heç bir təhlükə mövcud olmaz!!!

## *Yollarda sıxlıqdı...*



**Artıq sentyabrın 14- dən metronun " 28 may" stansiyasından çıxıb avtobuslarla " Elmlər akademiyasına" getmək müşkül bir işə çevrilib. Filologiya elmləri doktoru, professor Şahbaz Musayev deyir ki, bu gün( yeni sentyabrın 14-də) Milli Elmlər Akademiyasına işə gedərkən avtobusdan istifadə edib.**

Orda bir sıxlıq olub ki, gəl görəsən! Belə ki, avtobusun salonunda ayaq qoymağa yer tapılmayıb. Professor bir təhər işə çatıb. Onda görün sentyabrın 15- də vəziyyət necə olacaq?

Hər halda durum o qədər də yaxşı olmayacaq! Metroda dərslər başlayanda həmişə sıxlıq olub. Yəqin bu dəfə də belə anlar gözlənilir! Yaşlı, xəstə adamların həmin sıxlıqsa hansı çətinliklər çəkdiyini təsəvvür eləmək bir o qədər də müşkül deyil.

Üstəlik də, metronun tam gücü ilə işləməməsi yerüstü nəqliyyatın üzərinə böyük məsuliyyət qoyur! Amma görünən odur ki, yerüstü nəqliyyat bu problemin öhdəsindən tam gələ bilməyəcək! Çünki metrodan çıxan sərnişin axının öhdəsindən avtobuslar gələ bilməyəcək.Başqa sözlə demiş olsaq, avtobuslarda görünməmiş sıxlıq yaranacaq . Dediyimiz problemləri aradan qaldırmaq üçün AYNA qabaqlayıcı tədbirlər həyata keçirməlidir! Yəni xətlərə əlavə avtobuslar buraxılmalıdır. Hər halda bu məsələlərin həllində metropolitenlə AYNA birgə fəaliyyət göstərməlidir. Əks təqdirdə metrodan çıxıb avtobuslara əyləşərək digər stansiyalara gedən sərnişinlər çox çətin anlar yaşayacaq!!!

**Emil FAİQOĞLU**



# ABŞ ordusunun generalı: "Putin "sürpriz" hazırlayır"

**Yaxın vaxtlarda Rusiya yeni təxribat və ya hərbi əməliyyata əl ata bilər. Potensial istiqamətlər arasında Finlandiya, Baltikyanı ölkələr, Norveçin şimalı, Moldova və Ukrayna ola bilər.**

Adalet.az bildirir ki, bunu ABŞ ordusunun istefada olan generalı, NATO Birləşmiş Silahlı Qüvvələrinin Avropadakı keçmiş komandanı Uesli Klark deyib. O vurğulayıb ki, hazırkı dövr NATO və ABŞ üçün son dərəcə ciddi mərhələdir. Xüsusilə, NATO üzvü olan dövlətə hücum ediləcəyi təqdirdə Vaşinqton buna reaksiya verməyə borcludur: "ABŞ-ın NATO çərçivəsində iştirak etmək və NATO üzvü olan ölkəyə qarşı hər hansı hücuma lazımi şəkildə cavab vermək hüquqi öhdəliyi var. ABŞ-ın həmçinin Ukraynanın sərhədlərini və ərazi bütövlüyünü dəstəkləmək və qorumaqla bağlı mənəvi, yazılı şəkildə rəsmiləşdirilməmiş öhdəliyi də var". Onun fikrincə, artıq yaxın vaxtlarda bu öhdəliklər ciddi sınağa çəkilə bilər: "Düşünürəm ki, yaxın dövrdə öhdəliklərimiz sınaqdan keçiriləcək. Görünür, Putin hansısa "sürpriz" hazırlayır. Bu, sentyabrın sonunda, oktyabrda və ya daha sonra baş verə bilər".



General Rusiyanın vəziyyəti gərginləşdirməyə cəhd göstərə biləcəyi bir neçə mümkün istiqaməti də sadalayıb:

"Bu, Norveçə qarşı ola bilər. Norveçin şimal sərhədləri yaxınlığında Rusiyanın əhəmiyyətli hərbi aktivliyi müşahidə olunur. Bu, Finlandiyaya və ya Baltikyanı ölkələrə qarşı ola bilər. Kalininqradı Belarusla birləşdirmək cəhdi ola bilər. Dnestryanı bölgədə, Moldovada və ya yenidən Ukraynada hansısa addım atıla bilər".



İlham QAYIBZADƏ
Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Binəqədi rayon filialının sədri

# Diplomatik korpusun nümayəndələri Qarabağ və Şərqi Zəngəzurda

**Bildiyiniz kimi, Azərbaycanda akkreditə olunmuş xarici diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərdə oldular. Səfərdə 58 ölkəni və 9 beynəlxalq təşkilatı təmsil edən 150 nəfər iştirak edirdi.**

Səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Prezident İlham Əliyevin rəhbərliyi ilə Xankəndi və Şuşa şəhərlərində, Ağdərə və Kəlbəcər rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq və inkişaf prosesi çərçivəsində reallaşdırılan sosial və iqtisadi infrastruktur layihələri, eləcə də tarixi-mədəni irs nümunələrinin mövcud vəziyyəti, onların qorunması və bərpası istiqamətində görülən tədbirlərlə tanış oldular. Diplomatlara regionda həyata keçirilən sosial və iqtisadi infrastruktur layihələri, tarixi-mədəni irs obyektlərinin vəziyyəti, eləcə də onların qorunması və bərpası istiqamətində görülən işlər təqdim olunmuşdur.

Xüsusilə vurğulamaq istəyirəm ki, diplomatik korpus nümayəndələrinin işğaldan azad olmuş ərazilərə-Qarabağa və Şərqi Zənəzura səfərləri çox böyük əhəmiyyətə malikdir.

Əvvəllər də diplomatik korpus nümayəndələrinin azad olmuş ərazilərə səfərləri təşkil oldunmuşdur. Amma əvvəlki səfərlər zamanı erməni vəhşiliyinin, vandalizminin, Azərbaycan ərazilərinin dağıdılmasının, kütləvi şəkildə məhv edilməsinin göstərilməsi kimi xarakterizə olunurdusa, indiki səfərlərin mahiyyəti fərqlidir. İndi Azərbaycan dövlətinin həyata keçirdiyi abadlıq-quruculuq işləri, nəhəng infrastruktur, sosial obyektlərin inşaası ilə yanaşı Böyük Qaydış prosesinin başlanması və uğurla davam etdirilməsi kimi məsələlər var. Artıq Azərbaycan dövlətinin keçmiş məcburi köçkünləri öz ata-baba yurdlarına qaytarması, onların orada necə həvəslə, sevgi ilə məskunlaşması əlbəttə, diplomatik korpus nümayəndələrinin bu səfəri zamanı bir daha müşahidə olundu. Eyni zamanda azad olunmuş ərazilərdə fəaliyyət göstərən infrastruktur obyektləri, müasir sosial obyektlərin tikilməsi, yeni iş yerlərinin açılması, müəssisələrin, istehsalat sahələrinin fəaliyyətə başlaması və bu gün öz işini uğurla davam etdirməsi də xarici diplomatların gözləri ilə gördükləri bir mənzərə oldu. Hesab edirəm ki, diplomatların bu səfəri bütün istiqamətlərdə böyük əhəmiyyətə malikdir. Azərbaycan dövlətinin Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi ilə bağlı öz iqtisadi imkanları ilə həyata keçirdiyi işlər bir daha diplomatik korpus nümayəndələrinə göstərildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi irimiqyaslı bərpa və quruculuq işləri, ”Ağıllı kənd” layihələri, beynəlxalq hava limanları və yeni infrastruktur layihələri regionun simasını demək olar ki, tamamilə dəyişir. Bu sürətli inkişaf və torpaqların canlandırılması Ermənistandakı müəyyən revanşist qüvvələr və erməni diasporu tərəfindən çox vaxt qısqanclıq, narahatlıq və qarayaxma kampaniyaları ilə qarşılanır.

**Həmişə sülhün tərəfində olan Azərbaycan da regionda sabitliyə, əmin-amanlığa çalışır. Təəssüflər olsun ki, Azərbaycan-Ermənistan sülh danışıqları müsbət məcrada davam etdiyi bir vaxtda Ermənistanda bu prosesi pozmaq istəyən qüvvələr də baş qaldırdı. Müşahidələr göstərir ki, sülh istəməyən belə qüvvələr yalnız Ermənistanın daxilində deyil, xaricində də mövcuddur. Ancaq regionun gələcəyi üçün bu gün Cənubi Qafqazda və Ermənistan-Azərbaycan münasibətlərində sülhdən başqa alternativ yoxdur. Azərbaycan və Ermənistan arasında Yekun Sülh Sazişinin imzalanması Cənubi Qafqazda yeni siyasi reallıqlar yaradacaq, radikal qüvvələrin isə bu reallıqda yeri olmayacaq.**

# Günay Əfəndiyeva: “Xarabalığa çevrilmiş şəhər və kəndlərimizi gözlərimizlə görmüşük”



**Bu sözləri açıqlamasında Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva bildirib.**

Azərbaycan artıq 6 ildir ki,Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etdiyi, beynəlxalq hüququn norma və prinsipləri əsasında tanınan ərazisində yaradır, bərpa edir, gələcəyi formalaşdırır,sakinlərimiz ”Böyük Qayıdış” proqramı çərçivəsində öz doğma yurdlarına qayıdırlar. Qarabağ torpaqlarında aparılan iri miqyaslı işlər dövlətimiz tərəfindən mütəmadi şəkildə dünya ictimaiyyətinə təqdim olunur.  Azərbaycanın ev sahibliyi etdiyi müxtəlif beynəlxalq səviyyəli tədbirlərzamanı, xarici ölkələrin dövlət rəsmiləri, media təmsilçiləri, digər qonaqlar Qarabağı ziyarət edirlər. Mən özüm də II Qarabağ müharibəsindən sonra beynəlxalq təşkilatın rəhbəri kimi, ölkəmizdəakkreditə olunmuş səfir və diplomatik korpusun təmsilçiləri ilə birlikdə Qarabağda dəfələrlə olmuşam. 30 illik işğalın ağır nəticələrini, xarabalığa çevrilmiş şəhər və kəndlərimizi, tarixi-mədəni irsimizə vurulmuş ziyanı gözlərimizlə görmüşük. Bu illər ərzində Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin azad olunmuş torpaqlarımızamüntəzəm səfərləridövlətimizin Qarabağda addım-addım həyata keçirdiyi quruculuq siyasətinin əyani şəkildə təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu gün Qarabağa və Şərqi Zəngəzura yenidən səfər edən heyət Azərbaycanın öz keçmişinə, çoxəsrlik irsinə yanaşmasının, dağıdılmış ərazilərimizinabadalaşdırılmasının, abidələrimizin bərpasının, yeni infrastrukturun inşasının şahidi olurlar. Ermənistanda sülh istəməyən qüvvələrsəfərə qarşı artıq köhnəlmiş iddialarla çıxış edirlər. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın tam suveren ərazisidir. Bu baxımdan, ölkəmizdə xarici diplomatik nümayəndələrin hərəkətini Ermənistanın daxili siyasi gündəliyinin bir hissəsinə çevirməsi cəhdləri qəbuledilməzdir. Tarixi Gəncəsər və Xudavəngmonastlarındakıermənilərin ”qədim kitabları” kimi saxtlaşdırmaq olmaz. Bilirsiniz, tarix yalan deyil və onu təsdiq edən çoxsaylı sübutlar, faktlar var. Nəinki Azərbaycanın, elə ermənilərin öz mənbələrində kifayət qədər sübutlar var. Gəncəsər və Xudavəngabidələri Azərbaycanın ərazisində əsrlərlə mövcud olmuş Qafqaz Albaniyasının tarixi-mədəni irsidir. Dediyim kimi, Ermənistanın ziddiyyətli yanaşmaları və addımları bölgədə formalaşan sülh mühitinə də mənfi təsir göstərir. Regionun gələcəyi əsassız ittihamlarla deyil, beynəlxalq hüquqla, suverenliyə, ərazi bütövlüyünə hörmət prinsipləri ilə qurulmalıdır.

# “Kurtlar Vadisi”nin sirri illər sonra üzə çıxdı

**”Kurtlar Vadisi” ilə bağlı illər sonra yeni detallar ortaya çıxıb. Serialın ssenaristlərindən Raci Şaşmaz keçmiş MİT əməkdaşı Kaşif Kozinoğlunun 2011-ci ildə Silivri həbsxanasında ölümü ilə bağlı yenidən başladılan istintaq çərçivəsində ifadə verib.**

Silivri Cumhuriyyət Baş Prokurorluğunun apardığı araşdırma çərçivəsində Raci Şaşmazla yanaşı, serialın digər ssenaristləri Bahadır Özdener və Cüneyt Aysan da ”məlumat sahibi” qismində ifadəyə çağırılıb. İfadə prosesinin təxminən 2,5 saat davam etdiyi bildirilir.

Şaşmaz ifadəsində ”Kurtlar Vadisi”nin uğurunun illər ərzində müxtəlif iddialarla kölgələnməyə çalışıldığını bildirib. Onun sözlərinə görə, serialın zorakılığı təbliğ etdiyi və müəyyən şəxslərdən məlumat və sənədlər aldığı barədə iddialar əsassızdır.

Ssenarist serialın hazırlanması zamanı hər hansı qanuni və ya qanunsuz strukturla əlaqələrinin olmadığını deyib. O bildirib ki, ssenari komandası əsasən cəmiyyətdə baş verən hadisələri və açıq mənbələrdə yayılan məlumatları izləyib, daha sonra onları bədii və dramatik formada ekrana gətirib.

### *”Kaşifoğlu” obrazı ilə bağlı mövqeyi*

İstintaq çərçivəsində serialdakı ”Kazım Kaşifoğlu” obrazının Kaşif Kozinoğlu ilə əlaqəli olub-olmaması da diqqət mərkəzinə gəlib.

Raci Şaşmazın sözlərinə görə, ”Kaşifoğlu” obrazı istihbarat dünyasındakı daxili qarşıdurmaları təsvir etmək məqsədilə yaradılmış bədii personajdır. O, obrazın hekayəsinin personajın serialdakı ölümü ilə başa çatdığını bildirib və bunun Kaşif Kozinoğlunun real həyatda ölümü ilə əlaqələndirilməsinin doğru olmadığını vurğulayıb.

Şaşmaz həmçinin Kozinoğlunun ölümünü əvvəlcədən bilmələrinin mümkün olmadığını və bu hadisənin araşdırılmasının hüquq-mühafizə orqanlarının səlahiyyətində olduğunu qeyd edib.

### *”Kurtlar Vadisi”nə müdaxilə iddialarını rədd edib*

Raci Şaşmaz keçmiş polis rəisi Ali Fuat Yılmazerin serialın ssenarisinə müdaxilə etdiyi barədə iddiaları da qəbul etməyib. O, Yılmazeri tanımadığını və onunla hər hansı əlaqəsinin olmadığını bildirib.



Şaşmaz həmçinin keçmiş Jandarma İstihbarat Başkanı Hasan Atilla Uğurun da serialın ssenarisinə müdaxilə etmədiyini deyib.

Şaşmazın ifadəsinə əsasən, Osman Sınav və Hasan Atilla Uğur ”Deli Yürek: Bumerang Cehennemi” filminin Diyarbəkirdəki çəkilişləri zamanı tanış olublar. Tanışlığın çəkilişlərlə bağlı icazə prosesləri zamanı baş verdiyi və sonradan dostluğa çevrildiyi bildirilib.

### *Osman Sınavın serialdan ayrılması ilə bağlı yeni detal*

İfadənin ən diqqətçəkən hissələrindən biri isə ”Kurtlar Vadisi”nin rejissoru Osman Sınavın layihədən ayrılması ilə bağlı olub.

Raci Şaşmazın sözlərinə görə, Sınav həmin dövrdə təhdid aldığını və uşaqlarının olduğunu deyərək layihədən ayrılmaq istədiyini bildirib. Şaşmaz onun serialdan ayrılmasının əsas səbəbinin məhz bu vəziyyət olduğunu iddia edib.

Osman Sınavın illər əvvəl ”Kurtlar Vadisi”nin rejissorluğunu niyə buraxdığı barədə suala ”Bu, mənimlə sirr olaraq gedəcək” məzmununda cavab verməsi də yenidən gündəmə gəlib.

### *”Erdoğan” yazılı məzar daşı ilə bağlı açıqlama*

İfadə zamanı serialda Prezident Rəcəb Tayyib Ərdoğan və ailəsinə məzar daşı vasitəsilə mesaj verildiyi barədə iddialar da müzakirə olunub.

Şaşmaz belə bir mesajın məqsədli şəkildə yerləşdirilməsini rədd edib. O, həmin səhnədə istifadə olunan məzar daşının ssenaristin birbaşa nəzarətində olmadığını bildirib.

Onun sözlərinə görə, çəkilişlər zamanı real məzar daşlarından istifadə edilməsi mümkün olub və bütün detalları ssenaristin əvvəlcədən bilməsi mümkün deyildi.

Şaşmaz illər keçdiyi üçün sözügedən məzar daşının konkret olaraq necə hazırlandığını xatırlamadığını da ifadə edib.

Serialda istifadə olunan avtomobillərin nömrələri ilə bağlı iddialara da toxunan Şaşmaz bildirib ki, çəkilişlərdə kirayə avtomobillərdən istifadə olunurdu və bütün nəqliyyat vasitələrinin nömrələri ssenarist və ya prodüserin ayrıca nəzarətdə saxlaması mümkün deyildi.

**Beləliklə, Kaşif Kozinoğlunun ölümü ilə bağlı yenidən gündəmə gələn istintaq ”Kurtlar Vadisi”nin bəzi süjetləri və personajları ətrafında illərdir müzakirə olunan iddiaların da yenidən araşdırılmasına səbəb olub.**

# “Ağıl öyrətmək zorunda qaldığım bu mövzuya bir də qayıdası olmayacağam”

**”ABŞ-də orta məktəbin dərs kitablarında 71 min 681 sözdən istifadə olunur, İngiltərə də bu say 70 mindir. Almaniyada 70 min 400 söz, Yaponiyada 44 min 224, İtaliyada 31 min 762, Fransada 30 min 193 sözdən istivadə olunur dərsliklərdə. Türkiyədə dərs kitablarında 7 min 260 söz var. Bu statistika cüzi dəyişikliklə hər yerdə var və mənası budur: Əgər siz İngiltərədə orta məktəbi yaxşı oxusanız, məzun olarkən təkcə dərsliklərdən 70 min söz öyrənəcəksiniz”.**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

O, bildirib ki, əgər mənim kimi 6-7-ci siniflərdə dərsliklərdən əlavə ”Qılınc və Qələm”, ”Başsız atlı”, ”Robinzon Kruzo” və s. kimi romanlar, ”Elm və Həyat” kimi jurnallar da oxumuş olsanız bu 70 min sözə daha 20-30 min söz əlavə oluna bilər:

”Gördüyünüz kimi, təkcə dərslikdən 70 min söz öyrənən İngilis tələbə üçün 90 min söz bazasına sahib olmaq, heç də düşündüyünüz qədər ağlasığmaz hadisə deyil. Keçək söz ehtiyatı və söz sayı məsələsinə. Söz ehtiyatı sənətindən, peşəsindən asılı olmayaraq, bir şəxsin mənasını başa düşdüyü sözlərin sayıdır. Gündəlik həyatında işlədib-işlətməməsi öz işidir. Vitgenşteynə görə, biz dünyanı sahib olduğumuz söz bazası qədər tanıyır və anlayırıq. Yəni bir ingilislə bir türkün, yaxud bir ərəbin tanıdığı və anladığı dünya başqa-başqa dünyalardır”.

Yazıçı bildirib ki, homosapienslər neandertalları sahib olduqları söz ehtiyatı ilə yox etdilər: ”Dili zəngin olanlar dili zəngin olmayanları ya məhv, ya assimliyasiya edəcək, geci-tezi var. Söz ehtiyatı qədim dünyada da silah idi, bu gün də silahdır. Mədəniyyətin gücünü göstərən silah. Amma dili, sadəcə, ünsiyyət, ünsiyyəti isə çayxana söhbətləri üçün vasitə kimi görənlər bundan xəbərsizdir. Söz sayı isə işin texniki tərəfidir. Siz bir naşirə və tərcüməçiyə ”Şekspirin yaradıcılığı 20-30 min sözdən ibarətdir” desəniz, gözləri kəlləsinə çıxar. Çünki naşirin və tərcüməçinin təqdim olunan əsər haqqında verdiyi ilk sual budur: ”bu əsərdə neçə söz var?”. Çap və tərcümə işi üçün söz ehtiyatı deyil, söz sayı önəmlidir. Odur ki, statistikada qeyd olunur: ”Şekspirin yaradıcılığında 835 min 997 söz var”. Şekspirin söz ehtiyatı yalnız peşəkar oxucuları və peşəkar ədəbiyyatçıları maraqlandıran məsələdir. Və inglis dilinin əyalət dili olduğu dövrdə yazıb-yaradan Şekspirin söz ehtiyatını təkcə dərsliklərdən 70 min söz öyrənən və beynəlxalq dil statusu qazanmış bir dilə sahib ingilis tələbəsinin söz ehtiyatı ilə müqayisə etmək dünyanı 300-400 sözlə tanımağın və anlamağın göstəricisidir.Umid edirəm, ağıl öyrətmək zorunda qaldığım bu mövzuya bir də qayıdası olmayacağam”.

**Sübhan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# İçimdəki "Barat Vüsal havası"-nın NOTLARI

**Bu məmləkətdə bir şair yaşayır. Özü də məmləkətin əyalətində. Amma sözü də, səsi də məmləkətin hər yerində eşidilir, dinlənilir. Hətta türk dünyasına da gedib çatıb. Bu da o deməkdir ki, bu məmləkətdə yaşayan türkün, turanın şairidi. Özü də adının, təxəllüsünün bütün çaları sözüylə, şeiri ilə həmahənglik yaradır. Çünki ona ad qoyanda Tanrı payı olduğunu bilibləр. O da özünə şair təxəllüsü götürəndə sözü ilə hamını sevindirəcəyini, hamının yanında olacağını bilib və bunu vüsal adlandırıb. Bax, beləcə Qazaxda doğulan şair çox qısa zamandan sonra Azərbaycanın ən kövrək, ən haqq sevər və mənim ölçülərimə görə bugünün ən sufi şairlərindən biri olan Barat Vüsaldı.**

Bizi bir-birimizə ruhlarımız bağlayır. Bizi bir-birimizə tərəf fikirlərimiz, düşüncələrimiz, ürəklərimiz çəkir. Bizi bir-birimizlə sözümüz, misralarımız doğmalaşdırır. Ona görə hər görüşümüz, hər telefon bağlantımız şəxsən mənim üçün bir ruh istirahəti olur, yorulmuş könlümün nəfəs dərib dincəlmək anı kimi gəlir mənə

Bütün bu lirik girişdən sonra birmənalı şəkildə qeyd etmək istəyirəm ki, mən Barat Vüsalın poeziyasının vurğunuyam. Ona görə də ekrandan, efirdən, mətbuatdan səsini, imzasını eşidəndə, görəndə, necə deyərlər əlimdə yağım da daşsa, öncə diqqətimi ona yönəldirəm. Son telefon danışığımız



bir ay bundan öncə olubdur. Elə telefonda mənə yeni bir şeirini də oxudu və o , ümumən məni elə kökləyibki, kitabxanama hər daxil olanda mütləq əlimi uzadıb onun avtoqrafla bağışladığı kitablarını götürüb ən azı 2-3 şeirini oxuyuram. Bu gün səhər isə hiss etdim ki, əməlli-başlı havalanmışam. İçimdəki "Barat Vüsal havası"nı ifa etməsəm dincəlməyəcəm. Ona görə də onun "Ömür bitər, yol bitməz " kitabını özümlə götürüb dayandım bilgisayarın sağında. Və başladım Baratla söhbət etməyə. Söhbətimi lap Adəmdən başladım. Yəni adamlıqdan, adam olmaqdan və bir də adamlığın bugünündən. Məni həmin o uzaqlara istiqamətləndirən Barat Vüsal yazıb ki, hər şey adamlıqdan başlayır. Özü də bunu şeirlə, birbaşa, hər birimizin gözlərinin içinə baxa-baxa deyir Barat Vüsal. Onun dediyini siz də eşidin və yaxud oxuyun:

*Bu adamların bəlası*
*Adəm olmaqdan başlayır.*
*Bu adamların xilası,*
*Adam olmaqdan başlayır.*

*Qurulandan haqq divanı,*
*Süleymanın taxtı hanı?*
*Hər dəfə bu Nuh tufanı,*
*Gödən olmaqdan başlayır.*

*İkidi dünyanın üzü,*
*Biri qurdu, biri quzu.*
*Dünyada kişilik sözü,*
*Vətən olmaqdan başlayır!*

Mənə elə gəlir ki, bu üç bəndlik şeirdə adamlığın dünəni və bu günü, hətta sabahı da şair qələmi ilə söz-söz kağıza köçürülüb qoyulub qarşımıza. Biz də adamlığın Adəm olmaqdan başladığını düşünə-düşünə içimizdə bir inacın - yəni Nuh peyğəmbərin ruhunu hiss edirik və onun yer üzünün fəlakət tufanından canlıları necə xilas etdiyini xatırlayırıq. Öz gəmisi ilə o missiyanı necə yerinə yetirdiyini yaddaşımızda təzələyirik. Və anlayırıq ki, kim dünyaya gödənindən baxırsa, orda adamlıq itir, qurtarır. Hətta KİŞİ sözü də mənasını itirəndə , adi tör-töküntüyə çevriləndə Vətən də arxa plana keçir. Deməli, KİŞİ sözü elə öz çəkisində qalmalıdı ki, Vətən də Vətən ola bilsin.



Mən bu şeirin aurasında bir məqamı da özüm üçün qırmızı qələmlə qeyd etdim - yəni tamamilə əmin oldum ki, adam qrub yaratmalı, sevib-sevilməli, yaşadıb yaşamalıdır. Birbaşa desəm isə, adam təkcə Adəm yox, həm də Adam olmadıdı.

Bu, bir az pafoslu, amma özümə aid olan duyğuların içərisində , mən təbii ki, bütün duyğuların "sim-simi" olan sevginin yerini unuda bilmərəm. Çünki elə adamlıq da həm də sevgidən başlayır. Elə ona görə də Barat Vüsal sanki mənim içimdəki həmin o duyğuların nə qədər dəqiq olduğunu fəhmlə duyaraq kitabına bu şeiri əlavə edib və yazıb ki:

***Gəlib ürəyinə varmaq fikrim var,***
***Qoynunda yurd-yuva qurmaq fikrim var.***
***Səndən taleyimi sormaq fikrim var,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Səni yarıyolda saxlayasımı,***
***Qəlbim yarıyolda ağlayasımı?!***
***Mən yolu getmirəm yarıya kimi,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Mən yüz yol danışıb, yüz yol düşünüb,***
***Aşıra bilərəm hər bir işini.***
***Məndə lələyi var Zümrüd quşunun,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Özümü özümsüz qınayıram mən,***
***Sən mənim özümsən, anlayıram mən.***
***Özümü görəndə tanıyıram mən,***
***Ağlın özgəsinə getməsin sənin.***

Çox maraqlıdır ki, bu şeirin canında, qanında bir səmimi etirafla yanaşı bir inadkarlıq və qətiyyət də var. Üstəlik, o inadın arxasında duran haqlı bir istiqamətləndirmək, göstərmək gücü də amirlik edir. Şeiri oxuyanda Barat Vüsal bir müəllif olaraq oxucuya deyir ki, sən ağlına başqa bir şeylər gətirmə. Mənim niyyətim, məramım sevgidi, sevməkdi, sevilməkdi.

Mən təsadüfi adam deyiləm. Mən fürsətçil, şəraitdən yararlanmaq məqsədinə xidmət edən "aşiq" deyiləm. Mən bu sevgini içində yaşadan və o sevgi ilə yaşayan adamam. Ona görə də sənin ürəyində də o cür olmaq məramlıyam. Necə ki, sən mənim ürəyimdəsən.

Bəli, Barat Vüsalın şair istedadının, şair fəhminin və şair hikkəsinin bir çaları da Öz fikrindəki əminliyi, niyyətindəki dürüstlüyü sevdiyinə və oxucusuna israrla inandırmaq. Bax, burda bircə məqam qalır. O da ağlına başqa heç nə gətirməmək. Özgə cür düşünməmək

Bəli, elə bu yolun davamı olaraq Barat Vüsal sevdiyinə bir gerçəyi də piçıldayır - yəni bir açıqlama da verir. Onun açıqlamasının mayasında yenə dürüstlük dayanır, yenə reallığın özünü görürük. Yəni o, öz sevgisini etiraf etməklə yanaşı, həm də sevdiyinə problem olmayacağını, ona problem yaratmadığını, əl-ayağına dolaşmayacağını, sadəcə sevəcəyini deyir. Və vurğulayır ki, sevgi, vüsal, həsrət ürək işi olduğu kimi, ayrılmaq da ürək işidi. Yəni getmək istəyəni saxlamaq olmaz. Təbii ki, əgər bu istək ürəkdən qaynaqlanır, ürəyin ehtiyacıdı. Yəni biri var hansısa bir maddiyyatdan, hansısa işin düz gəlməməyindən inciyib ayrılasan, biri də var ki, ürək artıq o sevgini qəbul etmir, onu özününkü saymır. Onu yad bir cism kimi daşımaq zorundadı. Bax, belə olanda ürəyin ayrılmaq istəyi haqlı arzudu. Mənim bu yozumumu Baratın "Ayrılıq özü də ürək istəyir" şeirində siz də görə bilərsiz. Həmin şeirin son iki bəndində Barat Vüsal ayrılmaq istəyən ürəyin son akkordlarını sanki səsləndirir:

***Səni yoldan edib getmə, demirəm,***
***Ayrılıq özü də ürək istəyir.***
***Gedirsən, mən sənə heç nə demirəm,***
***Amma şeirim nəsə demək istəyir.***

***Qoymaram ürəyim itirsin səni,***
***Bu eşqin yazıyla, qışıyla varam.***
***Bir dayan, qoy şeirim ötürsün səni,***
***Qayıdanda özüm qarşılayaram!***

Doğrudan da, ürəyin istəyi ilə barışmamaq qeyri-mümkündü. Üstəlik ürəyin nazı ilə oynamaq da hər adamın bacardığı iş deyil. Ona görə də gerçək sevgilər ürəyi həm dəyanətli, dözümlü, həm də ağrılı, qayğılı edir. Çünki gerçək sevginin istənilən təması vüsal sayılır, istənilən sızıltısı ürəyi yaralayır, ona əzab yaşadır. Bunu təkcə bədii söz kimi, bədii fikir kimi qəbul etməyin. Bu, hər birimizin, sevən və sevilən hər bir Allah bəndəsinin həyat düsturudu. Onun qurulan, bölünən, çıxılan, toplanan tərəflərini hərə öz ürəyinə, öz sevgisinə görə müəyyənləşdirir. Bu mənada Barat Vüsalın bir işarəsini də, bir sözə çevrilmiş baxış anını da diqqətinizə təqdim edirəm. Çünki o an məni də qayğılandırıb, mənim də yaxamdan tutub silkələyib. Söhbət yenə sevgidən gedir, sevəndən gedir. Mənimlə razılaşmaq üçün sizi həmin şeiri oxumağa dəvət edirəm:

***Gülün tikanını öpürdü bülbül,***
***Gülə yalvarırdı, yazığım gəldi.***
***Sanki oxumurdu, öz ağzındakı,***
***Dilə yalvarırdı, yazığım gəldi.***

***Leyli söyləməkdən dilimi doyub?***
***Məcnunun çəkdiyi zülümə hayıf!***
***Gül kimi sevdiyi Leylini qoyub,***
***Çölə yalvarırdı, yazığım gəldi!***

***Sevgi kitabının var-varağına,***
***Baxıb töküşdürüm var-varağı, nə?!***
***O gün Barat düşüb yar ayağına,***
***Elə yalvarırdı yazığım gəldi!***

Bu, bir gerçəklikdir ki, şeir ruhun, ürəyin, duyğuların, yaşamın, düşüncənin anidən sözə çevrilən formasıdı. Yəni gerçək şeir mənim o vurğuladığım ürəyin, ruhun, duyğuların, yaşananların içindən doğur. Özü də Tanrının xeyir-duası ilə. Və bu gerçək şeir də yalnız o vaxtı könül oxşayır, ürəyə yatır ki, o anlaşılır, o qəbul olunur. Məhz şeirlərinin mayasında anlaşma, qəbulolunma reallığ təşkil edən Barat Vüsal da sonuncu təqdim etdiyim şeirində də gülə, bülbülə üz tutmaqla əslində o ipucundan yararlanaraq yenə duyğularımızın sarı siminə toxunur. Yenə bizə sözün alt qatına enmək, ordakı gerçəkliyi görmək çağırışı edir. Və...

Mən hələ iki il öncə yazdığım bu yazıda vəhlə, hisslər və içimdəki Barat Vüsal havası ilə başbaşa qaldığım zamanın piçıltısını səsləndirmişdim... Allah qismət etdi. O hissləri necə deyərlər CANLI, DİPDİRİ olaraq Qazaxda yaşamaq nəsibim oldu! Qazaxda, yəni şəhərin və həm də bütün ölkənin YEGANƏ ƏDƏBİYYAT MUZEYİNDƏ sentyabrın 11-də keçirilən möhtəşəm POEZİYA şöləninde Barat Vüsal BÖYÜKLÜYÜNÜ, UCALIĞINI, ÜRƏYİNİ və bütün Qazaxın SÖZ dünyasının ZƏNGİNLİYİNİ KƏŞF etdim! Bu bölgədəki Saz- Söz havasının çalarlarını və özünəməxsusluğunu yaşadım. Məhz orada Sözə dəyərin mahiyyətini lap dərindən, lap içdən duydum. Və...

**Bəli, bu beş-üç kəlməlik söhbətimlə mən "Barat Vüsal havası"nı içimdə yerbəyer etdim və məhz ondan sonra hiss etdim ki, şairin, şeirin yeri onu anlayanların ürəyində, ruhundadır. Yerinə mübarək deyib alqışlayıram SƏNİ - dostum, qardaşım Barat Vüsal!**

## Uşağınız dərsə həvəsli deyil?




**Uşağın dərsə marağının və öyrənmə motivasiyasının formalaşmasında ailədə yaradılan sağlam emosional mühit mühüm rol oynayır.**

Adalet.az xəbər verir ki, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" proqramında Səhiyyə Nazirliyinin 2 nömrəli Klinik Psixiatriya Xəstəxanasının klinik psixoloqu, psixoterapevt Rövşən Nəcəfov deyib.

Onun sözlərinə görə, uşaq özünü ailədə təhlükəsiz, qəbul olunmuş və dəstəklənmiş hiss etmədikdə, onun öyrənmə motivasiyası sabit və davamlı ola bilməz.

"Ailədəki münasibətlər uşağın daxili dünyasının təməlini təşkil edir. Bu təməl zəif olduqda, məktəbdə əldə olunan nəticələr də dayanıqlı olmur. Bununla yanaşı, valideynlərin məktəblə sağlam və etibarlı əməkdaşlıq qurması uşağın inkişafına vahid yanaşma formalaşdırır. Uşaq görür ki, onun ətrafındakı böyüklər rəqabət deyil, əməkdaşlıq şəraitində hərəkət edirlər. Bu isə onda məsuliyyət, inam və sabitlik hissini gücləndirir. Belə mühitdə böyüyən uşaq üçün təhsil yalnız öhdəlik deyil, həm də özünü reallaşdırma prosesinə çevrilir", - deyə R.Nəcəfov bildirib.

Psixoterapevt qeyd edib ki, dərs ilinin uğuru yalnız yüksək qiymətlərlə ölçülməməlidir.

"Əsl uğur uşağın məktəbə maraqla getməsi, sual verməkdən çəkinməməsi, çətinlik qarşısında ümidsizliyə qapılmaması və öyrənmə prosesindən zövq ala bilməsidir. Bu xüsusiyyətlər isə ilk növbədə evdə formalaşan emosional təhlükəsizlik hissindən qaynaqlanır. Özünü güvəndə hiss edən uşaq beyninin müdafiə rejimindən çıxaraq öyrənməyə, araşdırmağa və yaradıcı düşünməyə daha açıq olur", - deyə klinik psixoloq vurğulayıb.

R.Nəcəfovun sözlərinə görə, valideynlərin uşağa verə biləcəyi ən güclü mesajlardan biri "Sənə inanırıq və bu yolda yanında olacağıq" fikridir.

**"Bu yanaşma uşağın üzərindəki performans təzyiqini azaldır və məsuliyyət hissinin qorxu üzərindən deyil, daxili motivasiya əsasında formalaşmasına imkan yaradır. Belə olduqda məktəb yalnız bilik qazanılan məkan deyil, uşağın öz potensialını kəşf etdiyi, emosional və sosial baxımdan inkişaf etdiyi təhlükəsiz mühitə çevrilir", - deyə psixoterapevt əlavə edib.**

# Ədəbiyyat Muzeyində "sevgi planeti"

## Qazaxda gerçəkləşən görüşdən təəssürat

**Həyat yaşananlarla, yaşadılanlarla daha yaddaqalan, daha maraqlı olur. Bu mənada hər kəsin ömür təqvimində barmaq sayı yaddaqalan, yaşanan gün var. Məhz həmin günlər təkcə yaşayan üçün yox, həm də yaşadanlar üçün xüsusi önəm kəsb edir. Mən bunu elə-belə sözgəlişi, necə deyərlər, özünü düşüncə sahibi kimi göstərmək niyyəti ilə yazmıram. Bunu ona görə xüsusi olaraq qabardıram ki, bu günün həm önəmini, həm də qəhrəmanımın ömür təqvimində özəl yeri olduğunu diqqətə çatdıra bilim...**

Bir neçə gün öncə, yəni ötən həftənin cümə günü, lap dəqiqini desəm sentyabrın 11-də şair-publisist Əbülfət Mədətoğlunun Qazax şəhərində həm bölgənin, həm də bütün ölkənin yeganə Ədəbiyyat Muzeyində oxucularla, ədəbi ictimaiyyətlə görüşü nəzərdə tutulmuşdu. Elə bu görüşün həyəcanı da onun rahatlığını əlindən almışdı. Çünki ölkənin daha çox söz adamı, ədəbiyyat adamı və ümumiyyətlə, söz və saz sənəti xüsusi əhəmiyyət kəsb edən bir guşəsində oxucularla görüşmək, onların suallarını cavablandırmaq, rəğbətini qazanmaq çətin məsələ idi. Bunu bacarmaq üçün ən azından sözünün çəkisi olmalı idi.



Əbülfət Mədətoğlu da həmin o məqamları içində götür-qoy edə-edə Bakıdan Qazaxa gedirdi.

Qazaxda Ədəbiyyat Muzeyində öncədən telefon əlaqəsi saxladığı Azərbaycanın görkəmli şairlərindən biri, ədəbiyyatda sözü, yeri və haqqı olan Barat Vüsalla görüşdü. Elə ilk andan hiss etdi ki, bu görüş həm məsuliyyətlidi, həm də müəyyən çalarlarına görə qonaqdan iştirakçıları öz yaradıcılığı ilə razı salmaq, onların tələblərini qarşılamaq bacarığını ortaya qoyacaq. Axı, bu Muzeydə neçə-neçə şairin, özü də sayılıb-seçilən söz adamlarının səsi, sözü, ruhu hakimdir. Burda böyük Səməd Vurğunun, Hüseyn Arifin, Osman Sarıvəllinin, İsmayıl Şıxlının, Mehdi Hüseynin, Mirvarid Dilbazinin, Nəriman Həsənzadənin, Davud Nəsibin, Nüsrət Kəsəmənlinin, Akif Səmədin və daha neçə-neçə söz adamının görüşləri keçirilib, xatirələri anılıb, özləri dinlənib. Bu Muzeydə Ədalətin sazı dillənib.

Bax xatırlatdığım bu ştrixlərin özü artıq Əbülfət Mədətoğlunun Qazaxda imtahan verməyə gəlməsi anlamınıyaradırdı. İmtaha-



nın da nə demək olduğunu hər kəs yaxşı bilir. Bəli,sentyabrın 11-də saat 15:00-da Ədəbiyyat Muzeyində qələbəlik idi. Demək olar ki, konfrans zalında boş yer yox idi. Elə buradaca vurğulayım ki, rayon rəhbərliyi, xüsusilə, Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun və onun göstərişi ilə tədbirin keçirilməsinə yaxından dəstək verən Rayon İcra Hakimiyyəti Aparatının əməkdaşı Gülnar xanımın, Muzeyin direktoru, AYB-nin Qazax bölməsinin sədri, şair-publisist Barat Vüsalın gərgin əməyi nəticəsində tədbirin keçirilmə prosedurları ən yüksək səviyyədə hazırlanmışdı. İştirakçılar isə həm rayon ictimaiyyətinin nümayəndələri, həm söz, saz adamları, həm də gənclər, tələbələr idi. Görüşü şair Barat Vüsal idarə edirdi. O, tədbiri açaraq öncə Ulu Öndərin və şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsini təklif etdi. Sükut anından sonra Barat müəllim qonaq, yəni respublikanın Əməkdar jurnalisti, "Ədalət" qəzeti baş redaktorunun birinci müavini, əslən Qarabağdan olan Əbülfət Mədətoğlu barəsində təqdimaq xarakterli fikirlərini səsləndirdi. Və iştirakçıları hazırlanmış videoçarxa baxmağa dəvət etdi.

Böyük maraqla qarşılanan videoçarxdan sonra söz ədəbiyyatşünas, tənqidçi, araşdırmaçı Ramiz Göyüşə verildi. Ramiz müəllimin ətraflı çıxışı, şairin yaradıcılığı barəsində səsləndirdiyi qeydlər dinləyənləri məmnun etdi. Onun təqdimatı sanki məclisin ovqatını biraz da canlandırdı. Bu canlanan ovqata Rayon İcra Hakimiyyəti Başçısı Aparatında Ərazi təşkilat və içtimai -siyasi məsələlər şöbəsinin ictimai, siyasi və humanitar məsələlər sektorunda baş məsləhətçi Gülnar xanım Quliyevanın çıxışı da və bu çıxışda vurğuladığı özəl fikirlər də dinləyicilər üçün qonaq barəsində əlavə bir bilgi kimi yaddaqalan oldu. Çünki o qeyd etdi ki, bugünkü qonağımız özünün mətbuatdakı fəaliyyəti, bölgə yazarlarına münasibəti və Qazaxa olan diqqəti ilə həmişə xoş təəssürat yaradıb. Onu tanıyanlar, yaradıcılığı ilə tanış olanlar Əbülfət Mədətoğlunu həmişə müsbət dəyərləndiriblər, onun cəmiyyətdəki mövqeyini təqdir ediblər.

Tədbirdə söz alan AYB Qazax bölməsinin ədəbi məsləhətçisi, şair Mustafa Rasimoğlu çıxışına bir məqamı xatırlatmaqla başladı. Mustafa müəllim qeyd etdi ki, mən Əbülfət Mədətoğlunu tələbəlik illərindən tanıyıram. O vaxtkı Dövlət Universitetinin birinci kursunda oxuyanda universitet qəzetinin nəzdindəki ədəbi birliyə rəhbərlik edirdi və mənim ilk şeirimi də universitet qəzetində həm də məsul katib olan Əbülfət Mədətoğlu çap edib. Onun təbiətində diqqət, qayğı göstərmək həmişə birinci sırada olub. Qonağımızın yaradıcılıq yolu həmişə tərəfimdən izlənilib və onun uğurlarına həmişə sevinmişəm. Bu gün də çox şadam ki, Qarabağda doğulan qələm dostumuz bizə qonaq gəlib.

Mustafa Rasimoğlundan sonra söz aşıq Osman Nəcəfliyə verildi. Onun ifası və məclisdə yaratdığı musiqili ovqat təbii ki hamının ürəyincə oldu.

Elə bu ovqatla da davam edən məclisdə Qazax Dövlət Dram Teatrının aktrisası Məlahət Vəliyevanın səsləndirdiyi Əbülfət Mədətoğlu poeziyasından nümunələr alqışlarla qarşılandı. Bu coşqulu anların içərisində söz alan tanınmış şair, hər kəsin yaradıcılığına böyük maraq göstərdiyi Saqif Qaratorpaq vurğuladı ki, iyirmi ilə yaxındır ki, Əbülfətlə bir-birimizi oxuyur, izləyirik. Amma bu müddət ərzində bir dəfə də olsun qarşılaşmamışıq.

O, hətta mənim xəbərim olmadan şeirlərimi "Ədalət" qəzetində, eləcə də adalet.az və yenises.az saytlarında yayımlayıb. Bu gün mənimçün həm də Əbülfəti görmək, yaxından tanımaq fürsəti verən bir tarixdir.

Onun yaradıcılığı barəsində fikirlərimi səsləndirmədən öncə dilə gətirdiyim bu sözləri ona görə dedim ki, qonağımızın ədəbiyyatda nə qədər təmənnasız olduğunu hər kəs bilsin.

Görüşü idarə edən Barat Vüsal dəyərli şairimiz Saqif Qaratorpağın fikirlərinə əlavə olaraq qeyd etdi ki, Əbülfət Mədətoğlu Qazaxda görüşü keçirilən ilk söz adamıdır ki, o, bu bölgədən kənarda doğulub. Biz adətən daha çox bölgəmizin və bölgəmizə yaxın olan, Gürcüstanda yaşayan ədəbiyyat adamları ilə bağlı tədbirlər keçiririk. Mən obrazlı demək istəyirəm Molla Pənah Vaqif Şuşada şeir oxuduğu kimi bugün də Əbülfət Mədətoğlu Qazaxda şeir oxuyur. Biz onun şeirlərini oxuyuruq, yazılarını, yaradıcılığını izləyirik. Bu gün bu tədbirdə iştirak edən hər kəs onun barəsində çox ürəklə, sevgiylə danışır. Bu da onun özünün halal haqqıdır. Mən onun barəsində yazılarımın birində qeyd etmişəm ki, "hami... hamı... Əbülfət Mədətoğlu hamidir. Sözün, sevginin, İlahi eşqin hamisi.Əbül-



fət Mədətoğlu hamıdır. Hamıdan ötrü yaşayır və yaradır.

Əziz Hami və Hamı! Sevgi şeirlərimi elə gözəl təhlil etmisən ki, səni "sevgi planeti" adlandırmaqda gördüm ki, yanılmamışam. Asif Ata mən tənqidçilərdən çox, şairlərdən (Füzulidən) öyrənmişəm deyəndə haqlıymış.

Mən də tənqidçilərdən çox, şairlərdən, xüsusən Əbülfətdən öyrənməkdəyəm.Hami Hamıya, Hamı Hamiyə eşq olsun!"

Maraqlı keçən görüşdə gənclərin səsləndirdiyi suallar, xüsusilə bugünkü ədəbiyyatımız və mətbuatımız barədə etdikləri qeydlər çox diqqətçəkən idi. Bu da onu göstərir ki Qazaxda yaşayan gənclərimiz təkcə əyalətin yaratdığı problemləri deyil, həm də ölkə müstəvisində maraq kəsb edən ədəbiyyat və mətbuat problemlərini izləyirlər. Onlar üçün əyalət və paytaxt anlayışı mövcud deyil.

Tədbirin sonunda söz qonağa verildi. Əbülfət Mədətoğlu təşkil edilmiş görüşə və yaradılmış şəraitə görə rayon rəhbərliyinə, eləcə də Ədəbiyyat Muzeyinin kollektivinə, xüsusi olaraq Barat Vüsala öz təşəkkürünü bildirdi. Qeyd etdi ki, bu gün mən həyatımın ən gözəl anlarından birini yaşadım. Söz adamı olaraq özümə kənardan baxdım və indi sonsuz sevgi və sayğılarla hər birinizin qarşısında baş əyir və təşəkkürümü bildirirəm. Həmin o təşəkkürün və sayğının ifadəsi olaraq elə Qazaxda qələmə aldığım bu misralarla sizə bir daha demək istəyirəm ki, çox sağolun, yaxşı ki, varsınız!




Sonra Barat müəllim sözü şair, AYB üzvü Arif Musazadəyə verdi. Arif müəllim də öz növbəsində qonaq barəsində səmimi fikirlərini səsləndirib onun ayrı-ayrı şeirləri barəsində düşüncələrini bölüşdü. Maraqlı çıxışlardan birini isə tədbir iştirakçısı, şair, AYB üzvü və hər kəsin xüsusi sayğı göstərdiyi Rüfət Axundlu dilə gətirdi. O, üzünü qonağa tutaraq qeyd etdi ki, mənim sağlıq durumumla bağlı müəyyən problemlər olmasına baxmayaraq bu tədbirdə ürəklə iştirak edirəm və bu gün burada sizin üç şeirinizi əzbər deyəcəm, sizin yaradıcılığınız mənim ürəyimcədir.

***Sirrimi heç kimə demə -***
***Allahım bilir - bəs edər...***
***Dildən sürüşər dodağa -***
***Kimsə eşidib bəhs edər!***

***Ömrümün qürub çağında***
***Bir çiçək açıb tağımda...***
***Bülbül coşubdu bağımda -***
***O da tezliklə səs edər!***

***Köklənib havam saz üstə***
***Ruhum şellənir naz üstə!..***
***Əbülfət, adını yaz üstə -***
***Bu sevgi sənə bəs edər!***

**Atilla BABƏKOĞLU**



**Aysel KƏRİM**
**Azərbaycan Bəstəkarlar İttifaqının üzvü və mətbuat katibi**

# SƏNƏTƏ VƏ MƏNƏVİYYATA XİDMƏT

## ÜZEYİR HACIBƏYLİ İRSİNİN TƏBLİĞİNDƏ BƏSTƏKARLAR İTTİFAQININ ROLU

**Mədəniyyət tariximizin elə işıqlı səhifələri var ki, orada zamanın qarşısında yenilməyən dühalar və onların bünövrəsini qoyduğu müqəddəs ənənələr dayanır. Şərqdə ilk operanın, ilk musiqili komediyanın və peşəkar musiqi təhsilinin təməlini qoyan Üzeyir Hacıbəyli təkcə musiqimizin dühası kimi deyil, bir millətin mənəvi intibahını yönləndirən mütəfəkkir kimi tariximizə həkk olunub. Onun yaradıcılığı sadəcə dövrünün hadisəsi kimi qalmayıb, zamanın sınağından keçərək gələcək nəsillərin estetik dünyasını formalaşdıran canlı məktəbə çevrilib. Bu irs bizi tərbiyə edən, daxili dünyamızı zənginləşdirən, muğam dramaturgiyasının dərin qatlarına varmağı və aşıq sənətinin qüdrətini dərk etməyi öyrədən mənəvi xəzinədir.**

Bu canlı məktəbin qorunması və gələcək nəsillərə bütöv halda çatdırılması isə Üzeyir bəyin təməlini qoyduğu Azərbaycan Bəstəkarlar İttifaqının, bu quruma rəhbərlik edən mənəvi varislərin və Heydər Əliyev Fondunun əvəzsiz xidmətlərinin bəhrəsidir.

Milli poliqrafiyamızın və elmi düşüncəmizin ən yüksək standartlarına cavab verən genişmiqyaslı təşəbbüslər Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və qayğısı sayəsində gerçəkləşib.

Bu mənəvi dirçəliş yolunda xüsusi yer tutan "Üzeyir dünyası" layihəsi milli mədəniyyətimizin əsl dönüş nöqtəsinə çevrildi. Fondun dəstəyi ilə ərsəyə gələn bu fundamental nəşr silsiləsi dahi bəstəkarın irsini ilk dəfə bu qədər ətraflı, sistemli və akademik səviyyədə ictimaiyyətə təqdim etdi.

2008-ci ildə işıq üzü görən "Üzeyir dünyası" toplusu bəstəkarın həyat yolunu bütün təfərrüatı ilə əks etdirən "Ömür salnaməsi", onun zəngin irsini elmi müstəvidə ümumiləşdirən "Üzeyir Hacıbəyli ensiklopediyası" və puplisistik təfəkkürünü işıqlandıran "Bədii və publisistik əsərlər" kitabları daxil edildi. Bununla yanaşı, layihə çərçivəsində "Leyli və Məcnun" və "Koroğlu" operalarının, eləcə də "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyalarının klavirləri, librettoları və CD-ləri yüksək poliqrafik keyfiyyətlə yenidən çap olunaraq musiqi aləminə bəxş olundu.

1912-ci ildə premyerası böyük əks-səda doğuran və Üzeyir bəyi klassik opera zirvəsinə - "Koroğlu" ya aparan yolda vacib mərhələ olan "Əsli və Kərəm" muğam operası, süjetinin bəzi xüsusiyyətlərinə görə ötən əsrin 80-ci illərindən etibarən uzun müddət teatr repertuarlarından kənarda qalmışdı. İllər keçdikcə əsərin not materialları köhnələrək pərakəndə düşmüş, müəyyən hissələri itirilmişdi. Layihənin məsul redaktoru, Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadənin rəhbərliyi ilə başlanan mürəkkəb bərpa prosesinə ölkənin tanınmış musiqiçiləri, təcrübəli ifaçılar və dirijorlar cəlb olundu. Səhifə-səhifə, zərrə-zərrə toplanan notlar, orkestr partituraları, xor partiyaları və muğam epizodları yenidən quruldu, latın qrafikasına keçirildi və Heydər Əliyev Fondunun dəstəyi ilə ilk dəfə akademizm səviyyəsində bitkin partitura şəklində çap edildi.

Firəngiz xanım Əlizadə redaktoru olduğu bu möhtəşəm nəşr haqqında öz fikirlərini belə ifadə edib:

"Təqdim etdiyimiz partitura Üzeyir Hacıbəylinin məşhur "Əsli və Kərəm" operasının ilk nəşridir... "Üzeyir dünyası" layihəsinin beynəlxalq miqyasını nəzərə alaraq, əsas məqsədimiz "Əsli və Kərəm"in partiturasını bütün dünyada qəbul olunmuş akademik nəşrlər səviyyəsində hazırlamaq idi."

Bərpadan sonra operanın Bəstəkarlar İttifaqının layihəsi olan "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı (bədii rəhbər - Firəngiz Əlizadə) çərçivəsində Bakıda "Şirvanşahlar Sarayı" kompleksində və Şəkinin ecazkar açıq hava məkanlarında nümayiş olunması böyük maraqla qarşılandı. "İpək Yolu" festivalının proqramında Üzeyir bəyin əsərlərinin təqdim olunması daha sonra ənənə halını aldı. Azərbaycan Bəstəkarlar İttifaqı yarandığı gündən böyük sənətkarların estafeti ilə addımlayır: Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Qara Qarayev, Tofiq Quliyev və Firəngiz Əlizadə. İttifaqın binasında dahi bəstəkarın abidəsinin ucalması, portretinin asılması və Konsert Salonunun məhz Üzeyir Hacıbəylinin adını daşıması bu müqəddəs irsə sədaqətin göstəricisidir.



"Üzeyir dünyası" layihəsinin ərsəyə gəlməsində və bəstəkarın irsinin öyrənilməsində Bəstəkarlar İttifaqının üzvü olan musiqişünas alimlərin töhfəsi misilsizdir. Akademik Zemfira Səfərovanın silsilə monoqrafiyaları, sənətşünaslıq doktoru Fərəh Əliyevanın "Üzeyir Hacıbəyli - şəxsiyyət və cəmiyyət", sənətşünaslıq doktoru Kamillə Dadaşzadənin "Yüksəliş: Üzeyir Hacıbəyli və aşıq sənəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəttah Xalıqzadənin "Üzeyir Hacıbəyli və folklor" tədqiqatları, Ü. Hacıbəylinin Ev-Muzeyinin direktoru Sərdar Fərəcovun "Üzeyir işığında" nəşri və İttifaq tərəfindən buraxılan beynəlxalq festival konfranslarının elmi məqalələr kitabları bu zəngin xəzinənin elmi sütunlarını təşkil edir.

Dahi sənətkarın irsinə ehtiramın göstəricisi olaraq Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" Fəxri Medalının ilk nüsxəsi Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təqdim olundu. Mehriban xanım Əliyeva medalı qəbul edərkən vurğulamışdı:

"Üzeyir irsi, həqiqətən, böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və gülməyi öyrədir. Muğam dramaturgiyasının sirrlərini açır. Aşıq sənətinin qüdrətini dərk etməyə kömək edir."

Mehriban xanım Əliyeva Firəngiz Əlizadəyə ünvanladığı təşəkkür məktubunda Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli irsinin qorunması, elmi cəhətdən öyrənilməsi və dünyada təbliğindəki müstəsna rolunu yüksək qiymətləndirmişdi.

Tarixi faktlar və aparılan elmi təhlillər bir daha sübut edir ki, Üzeyir Hacıbəyli irsi təkcə müəyyən bir dövrün salnaməsi deyil, milli musiqi mədəniyyətimizin aparıcı xəttini təşkil edən möhkəm bünövrədir.

Sənətdə həqiqi dəyər ölçüsü illərin ardında qalan izlərlə müəyyən olunur - bu zəngin irs hər yeni təhlildə və hər yeni nəslin təfəkküründə yenidən doğulan əbədi bir sərvətdir.

Biz ulu ustadımız Üzeyir Hacıbəylini tarixin uca işığında, onun bizə əmanət etdiyi ölməz əsərlərində öyrəndik. Lakin bu gün şanslıyıq ki, o möhtəşəm məktəbin, sənət fədailiyinin və mənəvi ucalığın canlı mücəssəməsini - əyani şəkildə öyrənə biləcəyimiz müasir ustadımızı, Xalq artisti, professor Firəngiz Əlizadəni görürük. Firəngiz xanımın varlığı, onun hər bir notda, hər bir kəlmədə bərq vuran tükənməz enerjisi və sənətə olan sonsuz sevgisi Üzeyir bəy ocağının canlı məşəlidir. Dahi ustadların nəfəsini üzərində daşıyan bu mənəvi məbəddə çalışmaq, Üzeyir bəy dünyasının işığını cəmiyyətimizə çatdırmaq bizim üçün sözün əsl mənasında ilahi bir lütfdür. Milli Musiqi Günündə bir daha dərk edirik ki, milli musiqimiz bizim varlığımız, kimliyimiz və əbədi qürurumuzdur. Nə xoş ki, bu canlı dastan yazılmaqda davam edir və biz Ulu Ustadın nurunu addım-addım sabaha daşıyırıq.

Ruhumuzu ucaldan musiqimizin sədası, bu müqəddəs ocağın işığı və böyük sənətkarlarımızın əbədi mirası ölkəmizin üzərində həmişə bərraq bir səma kimi parlasın!

**Üzeyir bəyin 141 illik əbədi yaşarlığı və bu il 18-ci dəfə dünyanı Bakıda eyni ahəngə kökləyən Beynəlxalq Musiqi Festivalı bir daha sübut edir ki, zaman onun səsini qocaltmır, əksinə, hər ötən il bu dahi ruhun sədası xalqımızın mənəvi xəzinəsinin ən uca zirvəsində daha əzəmətlə əks-səda verir. Və nə qədər ki, bu torpaqda ustad nəfəsinin hərarəti var, dahi sənətkarın bəşəri irsi əbədiyyət qübbəsində zəfər marşı kimi səslənəcəkdir!**



**Elgün ƏLİYEV**
**Heydər Əliyev adına Beynəlxalq Hava Limanı Aviasiya Təhlükəsizliyi Xidmətinin əməkdaşı**

# VƏTƏN SEVGİSİNİN ƏBƏDİYYƏTƏ ÇEVRİLƏN ADI

**Bəzi insanlar dünyaya gəlir, yaşayır və zaman keçdikcə xatirələrdən uzaqlaşırlar. Bəzi insanlar isə qısa ömürlərinə bir xalqın əsrlərlə danışacağı qədər böyük bir tarix sığdırırlar. Azərbaycanın Milli Qəhrəmanı, şəhid gizir Mübariz Ağakərim oğlu İbrahimov məhz belə insanlardan biridir.**

Mübarizin ömrü uzun olmadı. Amma onun adı uzunömürlü oldu. O, cəmi 22 il yaşadı, lakin bu qısa ömrün içərisinə elə bir Vətən sevgisi, cəsarət və fədakarlıq yerləşdirdi ki, bu gün onun adı Azərbaycan tarixində qəhrəmanlıqla yanaşı çəkilir.

Mübariz İbrahimov 7 fevral 1988-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açdı. Sadə bir kənd uşağının arzuları vardı: yaşamaq, sevmək, ailə qurmaq, gələcək yaratmaq... Lakin onun qəlbində bütün şəxsi arzularından daha böyük bir məhəbbət vardı - Vətən sevgisi.

Bəzən tarixdə elə günlər olur ki, həmin gün yalnız bir insanın deyil, bütöv bir xalqın yaddaşına yazılır. 18 iyun 2010-cu ilin gecəsi Mübariz İbrahimov Vətən uğrunda son döyüşünə getdi. Qarşısında ölüm vardı. Amma Mübarizin qarşısında daha böyük bir amal dayanırdı - Vətənin müdafiəsi.



Qeyri-bərabər döyüşə atılan gənc Mübariz bilirdi ki, qarşısındakı yolun sonu ölüm ola bilər. Amma geri çəkilmədi. Çünki onun üçün Vətən yaşamaqdan da üstün idi. Mübarizin qəhrəmanlığı həmin gecə ilə bitmədi. Əksinə, onun şəhadəti ilə adı Azərbaycanın yaddaşında əbədiləşdi. 22 iyul 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi.

Mübariz haqqında yazarkən bu mövzu mənim üçün yalnız tarixi bir qəhrəmanlıq hekayəsi deyil. Bu adın arxasında şəxsən şahidi olduğum və yaddaşımda silinməz iz buraxan bir görüş də var. 2 oktyabr 2024-cü ildə Biləsuvar rayonunun Əliabad kəndində Mübarizin atası Ağakərim kişi və anası ilə görüşmək mənə nəsib oldu. O görüş mənim üçün adi bir görüş deyildi. Qarşımda Azərbaycanın Milli Qəhrəmanını böyüdən ata və ana dayanmışdı. Bir övladını Vətənə qurban vermiş, onun adı ilə yaşayan iki müqəddəs insan...

Söhbət etdik, xoş sözlər danışdıq, xatirələr bölüşdük. Mübarizdən, onun uşaqlığından, xarakterindən və ailə içindəki xatirələrindən danışıldı. Hər kəlmədə bir ata qüruru, bir ana həsrəti, hər xatirənin arxasında isə böyük bir Vətən sevgisi duyulurdu. Həmin görüşdə Ağakərim kişi mənə kitablar bağışladı və onları öz əli ilə imzaladı. O imza mənim üçün sadəcə bir imza deyildi. Bu, Mübarizin atasından mənə qalan qiymətli bir xatirə, bir əmanət idi. O zaman bilmirdim ki, həmin imza çox keçmədən mənim üçün daha böyük məna daşıyacaq... Görüşümüzdən cəmi bir neçə gün sonra Ağakərim kişinin də vəfat etdiyi xəbərini eşitdim. Bir neçə gün əvvəl qarşısında oturub söhbət etdiyim, Mübarizin xatirələrini dinlədiyim ata artıq həyatda yox idi. İndi həmin kitabların üzərindəki Ağakərim kişinin imzasına baxanda o görüş yenidən gözlərimin önünə gəlir. Sanki onun səsi, danışdığı xatirələr və Mübariz haqqında söylədiyi sözlər yenidən eşidilir. Bəzən insan bir əşyanın gələcəkdə nə qədər qiymətli xatirəyə çevriləcəyini həmin anda bilmir.

O kitablar bu gün mənim üçün sadəcə kitab deyil. Onlar Milli Qəhrəman Mübariz İbrahimovun atasından qalan bir xatirədir. Bir imza isə bir insanın öz xətti ilə yaddaşda qoyduğu izdir.

Mübariz İbrahimovun Vətən qarşısında göstərdiyi fədakarlıqdan sonra Mübariz milyonlarla insanın övladına çevrildi. Onun şəkillərinə baxanda insanın ağlına ilk gələn fikir budur: "Kaş daha uzun yaşayaydı..."

Amma qəhrəmanların ömrü yalnız illərlə ölçülmür. Bəzən 22 il bir insanın həyatıdır, bəzən isə bir xalqın yaddaşında əbədiyyət qədər uzun bir tarixdir. Mübariz öz ömrünü Vətənə bağışladı. Azərbaycan isə onun adını yaddaşına həkk etdi.

Mübariz olmaq yalnız silah götürmək deyil. Mübariz olmaq - Vətəni özündən üstün tutmaqdır, ən ağır anda geri çəkilməməkdir, qorxuya baxmayaraq doğru bildiyin yoldan dönməməkdir, torpağın, bayrağın və xalqın adını öz həyatından üstün tutmaqdır. Buna görə də Mübarizin adı sadəcə bir insanın adı deyil. "Mübariz" artıq Azərbaycan xalqının qəhrəmanlıq yaddaşında bir məna daşıyır. O, Vətən üçün yaşadı, Vətən üçün döyüşdü və Vətən yolunda şəhid oldu. Atası isə ömrünün sonuna qədər oğlunun adı ilə yaşadı. Bu gün onların hər ikisi həyatda yoxdur. Amma onların adı var. Mübarizin adı var, Ağakərim kişinin adı var. Və onların adı Azərbaycan torpağında, Əliabad kəndində, bir xalqın yaddaşında yaşayacaq. Bəzən bir ata öz oğlunu Vətənə verir. Bəzən isə bir xalq həmin oğulu öz yaddaşına əmanət edir. Mübariz İbrahimov məhz belə bir əmanətdir. Ağakərim kişinin mənə öz imzası ilə bağışladığı kitablar isə bu böyük hekayənin mənim yaddaşımda qalan ən qiymətli izlərindən biridir. Hər dəfə həmin kitablara və o imzaya baxanda bir görüş, bir ata, bir ana və bir qəhrəman gözlərim önündə canlanır. İnsan həyatdan gedir, amma onun qoyduğu iz, söylədiyi söz və bağışladığı xatirə yaşamağa davam edir.

**Ruhunuz şad olsun, Ağakərim kişi!**

**Ruhun şad olsun, Milli Qəhrəman Mübariz!**

**Biri Vətən üçün canından keçdi, digəri Vətənə qəhrəman oğul bəxş etdi. Sizin adınız artıq bir ailənin deyil, bütöv Azərbaycanın yaddaşındadır.**

**Unudulmayacaqsınız!**

# Vaqif Aslan: ""Könül və can birliyi "Vurğun və Azərbaycan" birliyidir!"

**- Vaqif müəllim, Sizi ölkəmizin ədəbi-ictimai mühiti, sözə dəyər verən oxucular yaxşı tanıyır. Odur ki, Sizi daha ətraflı təqdim etməyi doğru saymıram. Sadəcə vurğulamaq istəyirəm ki, Siz həm də türk dünyasında tanınan, sevilən lirik, fəlsəfi şeirlərinizlə milyonlarla oxucunun rəğbətini qazanan bir şair, Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan elmi, tarixi və publisistik məqalələrlə böyük nüfuz qazanan aydınımızsınız. Sizin çox məhsuldarr yaradıcılığınız nəinki bizi, eyni zamanda türk qardaşlarımızın diqqətini cəlb edib və siz Türkiyə Cümhuriyyəti Uluslararası Elmlər Akademiyasının Fəxri Doktoru diplomu və libası ilə təltif edilmisiniz. Bu gün də tutduğunuz istiqamətdə yaradıcılığınızı davam etdirirsiniz. Və bildiyiniz kimi bu il Azərbaycanın böyük şairi Səməd Vurğunun anadan olmasının 120 illiyi möhtərəm cənab Prezidentimiz İlham Əliyevin sərəncamına əsasən təntənə ilə qeyd edilir. Bax bu məqamda Səməd Vurğunun yaşadığı o illərdə dövrünün rejim ədəbiyyatının xüsusiyyətləri barədə nə deyə bilərsiniz?**

**Vaqif Aslan -** Özündən sonrakı bütün əsrlərdə müasir olan ədəbi şəxsiyyətləri-N. Gəncəvisi, Nəsimisi, Füzulisi, Xətaisi, M. Ə. Sabiri və başqaları ilə dünya ədəbiyyatında son dərəcə möhtəşəm bir yer tutan Azərbaycan ədəbiyyatı XX əsrdə də tarixi nüfuzunu alın yazısı kimi yaşamışdır. Bu mənada XX əsr poeziyamızın lirik, epik və dramatik səviyyəsinin az qala son həddi hesab edilən S.Vurğun yaradıcılığı artıq bir örnək, bir məktəb halına gəlmişdir.

On səkkiz ili (1900-1918) Avropa və Rusiyanın inqilabi ruhu ilə nəfəs alan - satirik, inqilabi-demokratik, dini-ruhani, romantik ədəbiyyata təkan verən, 23 ayı (1918-1920) ADR dövrü sayılan, 71 ili (1920-1991) sovet rejimi hesab edilən, 9 ili isə (1991-2000) milli müstəqilliyimizin bərpasına meydan açan illərin - 1906-cı ilində təvəllüd, 1956-cı ilində vəfat edən Səməd Vurğun ömrünün 14 yaşından sonrakı 36 ili "formaca milli, məzmunca sosialist ədəbiyyat" şüarını başı üstə saxlayan sovet rejimi dövrünə düşmüşdür. Həzrəti Məhəmməd Peyğəmbərin: "Hər bir kəs valideynindən daha çox zəmanəsinin övladıdır fikrinə əsaslansaq, onda ədəbi şəxsiyyətlərin yaradıcılığına var olduqları zamanların ideoloji-siyasi, ədəbi-ictimai təfəkkür və düşüncə tərzindən baxmaq lazımdır. Bu - doğru... Bizim var olduğumuz dövr isə ədəbi şəxsiyyətlərin yaradıcılığına həm də öz qavrayış və idrakı səviyyəsində yanaşdığından analitik qiymətləndirmə - müasirlik (əlbəttə ki, daha geniş anlamda), millilik və ümumbəşərilik, həyat həqiqətlərinə sədaqət, ədəbi-bədii, milli-tarixi genetik kodları qorumaq baxımından dəyərləndirmə meyar kimi götürüldükdə S. Vurğun dünyası öz təkrarolunmazlığı və parlaqlığı ilə görünür və insanlarda belə bir fikir formalaşdırır ki, Səməd Vurğun Azərbaycan şeirinin poetic ruhudur.

**- Səməd Vurğunu bu gün də bizə sevdirən, bizim müasirimiz edən onun yaradıcılığının hansı cəhətləridir?**

**Vaqif Aslan:** Bu gün iftixar hissi ilə etiraf etməliyik ki, Yaşar Qarayev demişkən: - "Azərbaycanname" S. Vurğunda olduğu qədər heçbir kəsin yaradıcılığında özünün ən yüksək ədəbi-bədii ifadəsini tapmamışdır. "Vurğun və can birliyi "Vurğun və Azərbaycan" birliyidir, vətənə "elani-eşq" və vətənlə "əhdi-peymandır". Burada fəxrin, mütləq sevinc və xoşbəxtliyin poetikası vardır:

***El bilir ki, sən mənimsən.***

Bir belə aydınlıq içində aydınlığın özünün etirafı necə də tam aydınlığı ilə səslənir:

***Yurdum, yuvam, məskənimsən.***

S.Vurğunu bizim müasirimiz edən hər şeydən öncə onun lirikasıdır. O - böyük sevgilər, ilahi məqamlar, sinəyə sığmayan duyğular, həyəcanlar və sarsıntılar şairidir. S.Vurğunun vətən lirikasında vətənə - "binələri çadır-çadır", qayaları baxar dinməz, qartalları göydən enməz, yaman gündə üzü dönməz" dağlara, ceyranlı-cüyürlü aran düzlərinə ruhun poetik uçuşu necə də heyrətamizdir. Adətən sevgidə izahat olmaz. S.Vurğunun izahatı isə o qədər sevdalıdır ki, oxucuya ruhi-ilahi təsir bağışlayır:

***Mən bir uşaq, sən bir ana,***
***Odur ki, bağlıyam sana.***
***Hankı səmtə, hankı yana***
***Hey uçsam da yuvam sənsən,***
***Elim - günüm, obam sənsən.***

Əlbəttə ki, belədir və buna şəkk-şübhə yoxdur. S.Vurğun əminlikdən gələn poeziyanın yaradıcısıdır.

O dövrdə bizim üçün Böyük Vətən müharibəsi hesab edilən II Dünya müharibəsi ərəfəsində ədəbiyyatın döyüş hazırlığı və qələbə ruhu S.Vurğunun "Vətənin keşiyində", "Ananın öyüdü", "Şəfqət bacısı", "Partizan Babaş", "Ukrayna partizanlarına" və s. şerlərində öz əksini tapmışdır.

***Bilsin ana torpaq, eşitsin Vətən!***
***Müsəlləh əsgərəm mən də bu gündən.***

Bu sözlər Vətənə münasibətdə sonuncu vətəndaşa qədər hər bir kəsin sözü olacaqdır.

**- Səməd Vurğunun lirikası və lirik ricətlərindəki "şeir elə şairin özüdür" demək olarmı?**

**Vaqif Aslan: -** Böyük fransız şairi Lui Araqonun çox səmimi bir etirafla "müasir dünya və sovet ədəbiyyatının iftixarı" adlandırdığı S.Vurğunun təbiət lirikası Azərbaycan təbiəti kimi rəngarəngdir - şeirimizin göyqurşağıdır. Orada vətən baharı öz nəzəndəliyi, işvəkarlığı, cilvəsi ilə ağlı və hissi "vəhdəti-vücud" səviyyəsinə qaldıran ilahi sevgiyə tərənnüm olunmuşdur. "Ceyran" şeirindəki müqəddəs yalvarış da elə buradan doğmuşdur:

***Ovçu, insaf elə, keçmə bu düzdən,***
***O çöllər qızını ayırma bizdən.***
***Qoyma ağrı keçə ürəyimizdən,***
***Qıyma öz qanına boyana ceyran.***

Bənövşə ətirli, sünbül qoxulu misralarda laləreng çəmənlərin qan-qırmızı hüsnünə vurulmamaq mümkün deyildir. "Dağ döşünə çıxan quzuların mələrtisi, "tərlanın səsini əks edən suların" qığıltısı S.Vurğunun misralarının ahənginə, bölgü və qafiyəsinə çevrilir - təbiətin özündən gələn ritm sözlərin sehrini və cazibəsini yaradır.

S.Vurğunun təbiət lirikasında təbiətin, məhəbbət lirikasında isə talehin rəng və çalarları necə də aydın görünür. Bəlkə də elə bu S.Vurğun taleyinin qəribəliyidir ki, onun epik əsərlərində də, yeri gəldikcə, lirik sızıltılar ricətlər şəklində tez-tez təzahür edir:

***Gecənin qoynunda ağlaşma səsi***
***İnsanı yandırır odsuz, ocaqsız.***
***Nədir kainatın bu faciəsi,***
***Yaşayanmı haqsız, ölənmi haqsız?***
***İnsanı yandırır odsuz, ocaqsız.***

Vətən lirikasında vətən, təbiət lirikasında təbiət, məhəbbət lirikasında məhəbbət yaddaşını qoruyub saxlayan S.Vurğun şeiri vətən, təbiət və məhəbbət qarşısında ilahi bir vəcd və ehtirasla oxunan poetik dualar kimidir. Bu ovqat onun həm qoşmalarında, həm də qəzəllərində tam gücü ilə insanı duymağa və düşünməyə məcbur edən yaşantı səviyyəsindədir:

***Meysiz, məzəsiz can ilə canan ola bilməz.***
***Sevda dediyin hər kəsə meydan ola bilməz.***

Yaxud da:

***Girdim Günəşin qoynuna, min bir səhərim var...***
***Bülbül də mənim, gül də...zimistan ola bilməz.***

Azərbaycan məhəbbət lirikasının pozulmayan yaddaş səhifələrinə çevrilən nümunələr min ildən sonra da böyük sevgiyə ilahi ilhamla oxunan himnlərin ən yaxşıları olacaqdır.

***Töküldü varağa sinəmin sözü,***
***Bu ana yurdumun ocağı, közü.***
***Ceyranın yerişi, durnanın gözü,***
***Kəkliyin ayağı yadıma düşdü.***

Və yaxud:

***Aşıq Şəmşir, Dəli dağdan keçəndə***
***Kəklikli daşlardan xəbər al məni.***



**- Vaqif müəllim, Səməd Vurğun yaradıcılığı çoxsahəlidir və onun müxtəlif janrlarda yazdığı şeirlərdə fəlsəfi baxışlar necə ifadə olunur?**

**Vaqif Aslan: -** Yaxşıca yadıma gəlir ki, rəhmətlik Ə. Kürçaylı mənim S.Vurğuna həsr etdiyim bir şeirimlə tanış olan kimi böyük şairi üzbəüz görmədiyimi başa düşmüşdü. Çox səmimi şəkildə: - Belə demək olarmı? - deyib şeirimdə rədif kimi işlətdiyim "Səməd, ay Səməd" sözünə işarə etmişdi. Mən o zaman "Səməd Vurğun" sözünün nə qədər böyük olduğunu bir daha başa düşdüm və utandığımdan bu şeirimi heç bir kitabıma daxil etmədim. O şeirdə belə bəndlər var idi:

***Dəli dağ dayanıb, yaz sinəsində,***
***Şəmşir də qocalıb, saz sinəsində.***
***Həsrət ürəyində, söz sinəsində...***
***Dindirən kövrəlir, Səməd, ay Səməd!***

S.Vurğunun vətən, təbiət, məhəbbət lirikası onun fəlsəfi lirikasının genlərini təşkil edir. Buna görə də ömür, həyat və dünya fəlsəfəsi S.Vurğun şeirlərində öz genişliyi və dərinliyi ilə ağlımızın - idrakımızın heyrətinə səbəb olur:

***Yerlərə baxıram - bağçalı, bağlı...***
***Göylərə baxıram - qapısı bağlı.***

Söz həmişə cavan olduğu halda, söz sahibi şairin qocalması necə də təzadlıdır. "Şair, nə tez qocaldın sən?" sualı adi sual deyil, hətta şairin özünü də təəccübləndirən sualdır. Bu sual S.Vurğunu öyrənən və tədqiq edən böyük Bəxtiyar Vahabzadənin "əsil sənətkarın, əsil şairin özü qocalsa da, sözü qocalmır" qənaəti ilə sanki öz cavabını tapır. Bir halda ki, söz qocalmır, şair necə qocala bilər?

**- Dediklərimiz Səməd Vurğunun poemalarında öz əksini hansı səviyyədə tapır?**

**Vaqif Aslan: -** Bəli,deyə bilərəm ki, "Ölüm kürsüsü", "Aslan qayası", "Komsomol", "Aygün" kimi poemaların, "Vaqif", "İnsan", "Xanlar" kimi dram əsərlərinin müəllifi olan S.Vurğunun fəlsəfədən daha fəlsəfi olan poeziyasında əbədiyyətə çağırış praktik səciyyə daşıyır.

Şair nəinki poetik yaradıcılığı ilə, həm də cismani varlığı ilə əbədiyyət simvolu olmaq istəyir.

Ömrün və taleyin təzadlarını şeirin dili ilə açmağa cəhd edir. Bu təzadı vaxtı ilə mən özüm S.Vurğunun ev muzeyində yaşamışam. Tüfəngi ilə sazını yanaşı görmüşəm. Kövrəlmişəm və yazmışam:

***Deyirdin bu dünya qoca dünyadır,***
***Qış bir tərəfdədir, yaz bir tərəfdə.***
***Qəlbində yaşatmaq, yaratmaq odu,***
***Dolan bir tərəfdə, qaz bir tərəfdə.***

***Elə növbələşib gecəylə, gündüz,***
***Bəzən bu hikməti duymayırıq biz.***
***Bəzən də əyləşir səssiz-səmirsiz,***
***Əyri bir tərəfdə, düz bir tərəfdə.***

***Özün demədinmi, özün, ey ustad?***
***"Cahan daimidir, ömür amanat".***
***Səndən də yadigar qaldı bu təzad,***
***Tüfəng bir tərəfdə, saz bir tərəfdə.***

Bu da bir həqiqətdir ki, həqiqətlərdən qaça bilmirik. Elə S.Vurğunun özü demişkən:

***Nemətsə də gözəl şeir***
***Şair olan qəm də yeyir.***

və ya

***Saç ağardı, fəqət nə qəm?***
***Əlimdədir yenə qələm.***
***Saç ağardı, ancaq ürək***
***Alovludur əvvəlki tək.***
***Bilirəm ki, deməyəcək***
***Bir sevgilim, bir də vətən:***
***- Şair, nə tez qocaldın sən?***

**- Səməd Vurğunun eyni adlı əsərinin motivləri əsasında necə oldu ki, sizin "Vaqif" faciəsi ərsəyə gəldi?**

**Vaqif Aslan: -** Mənim mərhum dostum, respublikanın əməkdar artisti. Moskvada "Derviş" teatrının təsisçisi və baş rejissoru Mərdan Feyzullayev 2015-ci ilin ortalarında mənə həm telefon, həm də kompüter vasitəsilə gözlənilməz bir təklif etdi. O, Səməd Vurğunun "Vaqif" pyesini yeni motivlər üzrə tarixi faktlara əsaslanan məzmunlu mətnlə səhnəyə qoymaq istəyirdi. Düzü, bu təklifdən şaşırdım. Bu sadə iş deyildi. Qanadlı poeziyamızın az qala son həddi hesab etdiyim Səməd Vurğun şerinin poetik ruhuna xələl gələcəyindən qorxurdum. Mərdan isə məni ruhlandırırdı. Belə razılaşdıq ki, o, yeni motivlər olacaq səhnələri necə görmək istəyirsə, onları nəsrlə təsvir etsin, mən də şeirə çevirim. Göndərdiyi hissələrlə tanış olduqca belə bir qənaətə gəldim ki, Mərdan "Qarabağnamə"ləri dəfələrlə sətir-sətir oxuyub, mühakimə və müqayisə süzgəcindən keçirmişdir.

İşə başladıq... Bir ilə yaxın bir müddət beləcə keçdi. 2016-cı ilin yanvar ayının əvvələrindən etibarən gəlib Şəki Dövlət Dram Teatrının qonaq otağında yerləşən Mərdan Feyzullayev "Vaqif" pyesi üzərində gərgin və fasiləsiz işə başladı. İlk dəfə idi ki, Şəki Dövlət Dram Teatrının aktyorları nəzm ilə tamaşa göstərəcəkdilər. Demək olar ki, hər gün görüşürdük. İşin daha bir üstün və ümidverici cəhəti onda idi ki, aktyorların çoxu Mərdanın keçmiş dostları idilər. Aktyorlardan Respublikanın Xalq artistləri Xanlar Haşımzadənin, Əbülfət Salahovun, Akif Yusifovun, Aydın Əlibalayevin və başqalarının işə dərin bir məsuliyyətlə yanaşmaları Mərdana olan hörmət və sevginin təzahürü kimi özünü göstərirdi. Nəhayət, gözlənilən gün gəlib çatdı. 2016-cı ilin 12 mart günü necə də həyəcanlı idi...

Premyeraya Səməd Vurğunun gəlini - mərhum Vaqif Səmədoğlunun həyat yoldaşı Nüşabə xanım Vəkilova-Babayeva, Səməd Vurğunun nəvəsi - Yusif Səmədoğlunun qızı gəlmişdilər. Tamaşa qeyri-adi bir həyəcanla və sürəkli alqışlarla başa çatdı. Səməd Vurğun ocağının gəlini Nüşabə xanım Vəkilova-Babayevanın sevinc yaşları heç vaxt mənim yadımdan çıxmayacaqdır. O, aktyor heyətinə, xüsusilə rejissor Mərdan Feyzullayevə və mənə minnətdarlığını elə bir səmimiyyətlə bildirdi ki, o səmimiyyətə baş əyməmək mümkün deyildi.

**- Vaqif müəllim, maraqlı müsahibəyə görə sizə dərin təşəkkür edirəm. Səməd Vurğunun xeyir-dualı ruhu həmişə sizin başınız üzərində olsun.**

**Həmsöhbət oldu:**
**Çingiz NAĞIYEV,**
**"Qızıl qələm" mükafatı laureatı, Şəki**

# Generalının qisasını alan qəhrəman - Cəbrayıl Dövlətzadə...

**Daha bir qəhrəman, daha bir igidlik nümunəsi... Bu gün şanlı Vətən Müharibəsinin qəhrəman şəhidi, "Azərbaycan bayrağı" ordenli Cəbrayıl Dövlətzadənin doğum günüdür. O Vətən uğrunda şəhadətə ucalanda cəmi 19 yaşı vardı. Amma onun bizə qısa gələn həyatı zəhməti, göstərdiyi şücaətlərlə və misilsiz qəhrəmanlığı ilə o qədər doludur ki, Cəbrayılın 19 yaşı olduğuna təəccüb edirsən...**

Anası Məleykə xanım deyir ki, Cəbrayıl uşaq yalarından yaşıdlarından seçilirdi. Mehriban, xoşxasiyyət olan bu balaca oğlan erkən yaşlarından mərdliyi, cəsarəti ilə də fərqlənirdi. Onun 9 yaşı olarkən atası ilə anası ayrılanda və evin yükü anasının çiyninə düşəndə



Cəbrayıl vaxtından əvvəl böyüməyə başladı. Anasına qoşulub işə yollandı, evə gec saatlarda gəldi, ancaq çəkdiyi əziyyətlər onu ruhdan salmadı. Əksinə, onu daha da bərkitdi və dözümlü elədi. Cəbrayıl həmişə anasının yanında olur və ona deyərdi ki, hər şey yaxşı olacaq! Bunun üçün o əlindən gələni edirdi. Hətta qardaş Türkiyədə işləmiş, az yaşında etibarı ilə özünə böyük hörmət qazanmışdı. Cəbrayılın qardaşı və bacısı da uşaqlıqdan ona güvənirdilər. O, ailəsi üçün nələr etmirdi ki...

Cəbrayıl istedadlı bir gənc idi. Əlindən çox iş gəlirdi. Rəsm çəkir, idmanla məşğul olur, hətta şeir yazdığı da olurdu... Amma o anadan sanki bir qəhrəman kimi doğulmuşdu. Hələ 10 yaşı olanda yazdığı inşadan da bu aydın hiss olunurdu. Cəbrayıl sinif yoldaşlarından fərqli olaraq həmin yazını ürəkdən yazmışdı. Yazıçı Azad Qaradərəli 19 yaşlı şəhid qəhrəman Cəbrayıl Dövlətzadənin taleyindən bəhs edən "Cəbrayıl əfsanəsi" adlı romanda da bu barədə yazılıb: "Uşaqlar pafoslu cümlələr yazmışdı. Amma mən ürəyimdən keçənləri qələmə almışdım. İnşanı oxuyanda hətta uşaqlar güldülər mənə. Bu vecimə də deyildi. Axı mən öz düşüncələrimi yazmışdım... Təxminən belə idi inşam: "Mübariz mənim sevimli qəhrəmanımdır. Onun etdiklərini indiyəcən heç kim bacarmayıb. Özündən sayca qat-qat çox düşmənlə vuruşmaqdan çəkinməyib. Bu qeyri-bərabər döyüşdə o, şəhid olub, amma adını ürəklərə yazıb. Mənim ürəyimdə də Mübarizin yeri var. Onun adı bizim könlümüzdə əbədi yaşayacaqdır.

Mən Mübariz İbrahimovun qəhrəmanlığını eşidəndə istədim ki, evdən qaçıb gedəm döyüş bölgəsinə. Bu barədə özümdən yaşca böyük bir dostuma danışanda güldü mənə. Dedi ki, sən böyü, güclən, sonra baxarıq. Mən də səninlə gedərəm".

Vətən Müharibəsi sanki bir qəhəmanlıq məktəbi kimi sayseçmə igid oğullarımızı ortaya çıxardı. Cəbrayıl Dövlətzadə də həmin igidlərdən biri oldu. O, hələ müharibədən əvvəl general-mayor Polad Həşimovun şəhadətindən sonra özünə söz vermişdi. Söz vermişdi ki, Polad kimi bir qəhrəmanın qisasını düşməndən alacaq. Cəbrayıl sözünə əməl etdi. İkinci Vətən Müharibəsi başlayanda o, XTQ-in əsgəri kimi Vətənə xidmət edirdi. Cəbrayıl müharibənin elə ilk günündən Murovdağ istiqamətində özündən yaşca böyük olan igid oğullarımızla birgə Murovdağda döyüşlərə qatıldı. Uşaqlıqdan gözündə qorxu olamayan igid sanki illərlə bu anları gözləyirmiş. O, düşmən üzərinə cəngavər kimi hücuma keçdi. Ondan çox düşmən zabitini və polkovniki məhv elədi. Yalın əlləri ilə düşmən polkovnikini boğub öldürəndən sonra şir kimi nərə çəkdi. Onun səsi Murov dağlarında əks-səda verdi - "Qisasını aldım, Polad generalım!"

Anası deyir ki, övladımın necə səsur biri olduğunu bilirdim, amma onun belə qəhrəman olduğunu bilmirdim... Cəbrayıl indi də tez-tez anasının yuxusuna gələrək hər şeyin yenə də, yaxşı olacağını deyir...

İndi Cəbrayıl Dövlətzadənin adı-sanı dillərə dastan olub, bütün türk dünyası onun qəhrəmanlığından danışır. İllər keçəcək bu qəhrəmanlıq dildən-dilə, eldən-elə dolaşaraq, nağıllara, əfsanələrə çevriləcək. Ancaq bunlar Azərbaycanın Zəfər tarixinə yazılmış həqiqətlər kimi xalqın yaddaşına həkk ediləcək.

Cəbrayıl Dövlət oğlu Dövlətzadə 2001-ci il sentyabrın 11-də Sumqayıtda doğulub. Əslən zəngilanlı idi. Bir bacısı və bir qardaşı var. Cəbrayıl orta təhsilinə Sumqayıt şəhəri "Təfəkkür" liseyində başlayıb, daha sonra 2 saylı Qubadlı məktəbində oxumağa davam edib. Rəsm çəkib, musiqi bəstələyib, eyni zamanda 9 il cüdo ilə məşğul olub, idman sahəsində mükafatlara layiq görülüb. Cəbrayıl bir çox fərqli sahədə istedada sahib idi. O hətta yeniyetmə yaşlarında həvəskar rep ifaçısı da olub. Dininə bağlı böyüyüb. Allaha olan sevgisi onu 6 yaşından namaz qılmağa, ibadət etməyə sövq edib. O, Xüsusi təyinatlı əsgər idi. Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olması 19 yaşlı əsgərə böyük təsir edib. Həmin gün özünə verdiyi söz həyatının devizinə çevrilib: "Polad Həşimovun qisasını alacağam!"

Odur ki, müharibə başlayanda öz ərizəsi ilə xüsusi təyinatlı tabora qoşulub. 44 günlük müharibə başlayan kimi könüllü olaraq döyüşə atılıb. Murovdağda düşmən mövqelərinin və xüsusi postların ələ keçirilməsi əməliyyatında 11 zabitlə yanaşı 19 yaşlı Cəbrayıl da iştirak edib. O, yalın əllə düşmən generalının, polkovnikin üstünə gedəndə hədəfinə çatdığını yaxşı bilirdi. Onun qarşısındakı rütbəsindən, kimliyindən asılı olmayaraq Polad Həşimovun qatili idi... Dövlətzadə düşmən postunda 10 müxtəlif rütbəli erməni zabiti ilə üzüzə qalıb. O, bu hücum zamanı öncə erməni generalını öldürüb. Əlbəyaxa döyüşdə isə düşmən polkovnikini yalın əllərilə boğub. İşini bitirib, sağ-salamat gülə-gülə geriyə qayıdan vaxt ermənilər onu minomyotla gülləyə tutublar. Ağır yaralanıb, ermənilər onu əsir götürmək istəyiblər, ancaq dostları onu döyüş zonasından çıxarıb, bir igidimiz də o anda yaralanıb.

Cəbrayıl Dövlətzadə 2020-ci ilin sentyabrın 28-də şəhadətə ucalıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Cəbrayıl Dövlətzadə II Fəxri Xiyabanda general-mayor Polad Həşimovun yanında böyük ehtiramla torpağa tapşırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Cəbrayıl Dövlətzadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları, həmçinin "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

**Cənnətdəki doğum günün - 25 illik yubileyin mübarək, məzarın nurla dolsun, ruhun şad olsun, nurüzlü, qəhrəman Cəbrayıl!**

**Mina RƏŞİD**

# Yazdı, tanıtdı, getdi...

### *Tədqiqatçı jurnalist Şəmistan Nəzirlinin xatirəsinə*



**Şəmistan Nəzirli 1942-ci ildə dünyaya gəlmişdi. Biz onunla Universitetdə tələbə yoldaşı olmuşuq. Beş il bir qrupda oxumuşuq. Bizdən beş-altı yaş böyük idi. Həm də tələbəlikdən əvvəl 3 il əsgərlik həyatı görmüşdü. Biz ondan çox şey öyrənirdik. Ciddiliyi, yeri gələndə sərtliyi də vardı, deyib-gülməyindən, zarafatından da qalmırdı. Hamımızın arasında ünsiyyət yaradırdı. Adama xoş gələn həm də o idi ki, yerindən-yurdundan çoxdan ayrılmasına baxmayaraq doğulduğu kəndin, elinin -obasının ləhcəsində danışırdı: olduqca sadə və səmimi... Demək olar ki, kəlmə başı bu sözü işlədirdi: "Ayə, ay öyün tikilsin..."**

Vaxt gəldi, tələbəlik illərini başa vurub hərəmiz bir tərəfə getdik. Şəmistanın sorağını çox yerlərdən alırdıq. Necə deyərlər, Burdan vurub, ordan çıxırdı. Bakı muzeylərinin, kitabxanalarının hamısı demək olar ki, onun iş yeri idi. Keçmiş İttifaq muzeylərini qarış-qarış gəzmişdi. Səsi Moskvadan, Leninqraddan, Minskdən, Xarkovdan, Tiflisdən, Daşkənddən, Dərbənddən, Riqadan və neçə-neçə belə şəhərlərdən gəlirdi. Məqsədi muzeylərdə olub, müxtəlif tədqiqat və araşdırma işləri aparmaq idi. İstədiyi mövzu ilə əlaqədar nəyisə arayıb-axtarmaqdan, araşdırmaqdan yorulmurdu, əksinə, bunlardan zövq alırdı. Tədqiqatçılıq işi onun vərdişinə və peşəsinə çevrilmişdi. Nəticədə onun qələmindən çıxan cild-cild kitablar ərsəyə gəlmişdi.

Aradan uzun illər ötüb keçdi. Şəmistanın tələbəlik illərində bizə dediyi "Mən uşaq vaxtımda Səməd Vurğunu görmüşdüm" sözü çox sonralar Şəmistan haqqında yazacağım bir məqalənin mövzusuna çevrildi.

Şəmistan artıq həyatda yoxdur. 2025-ci il sentyabrın 20-si hamımız üçün acı bir gün oldu. İstəkli tələbə yoldaşımızı, dostumuzu, mərd, vətənpərvər, təəssübkeş bir insanımızı itirdik. Aşağıdakı bu yazımı vəfatının ildönümünə həsr etməklə Şəmistanla bağlı həm ötən illərin bir xatirəsini yada salıram, həm də az da olsa təskinlik tapıram.

...İsti yay günlərindən biri idi. Quzular yavaş-yavaş kölgəyə çəkilirdi. Əlindəki bıçaqla söyüd çubuğunu yontalayan Şəmistan çevrilib səs gələn tərəfə baxdı.

Yaşlı, ağsaqlı bir kişi "Pobeda" dan düşüb Sadaxlıya gedən yolu xəbər aldı. Sonra da gülümsəyib mehribanlıqla: "A balaca çoban, şeirdən-zaddan bir şey bilirsənmi?" - deyə soruşdu.

Şəmistan bu nurani kişinin gülümsər çöhrəsinə baxıb "Çox keçmişəm bu dağlardan..." deyərək "Azərbaycan" şeirini uşaqlara məxsus bir şövqlə söyləməyə başladı.

Ağsaqlı kişi yanındakı yoldaşı ilə (sonradan bilindi ki, bu, Zeynal Xəlilmiş) birlikdə şeiri dinləyib, "çox yaxşı" dedi və həvəslə şeir söyləyən " balaca çoban"ın başına sığal çəkdi. Sonra da maşına əyləşib üz tutdu Sadaxlıya tərəf.

"Pobeda" təzəcə yola düşmüşdü ki, Məmməd müəllim təngnəfəs özünü çatdırdı, dedi: "Tez - tələsik gəldim ki, şairlə görüşüm. Bəs nə tez getdi?

Şəmistan təəccüblə dilləndi: Nə şair, şair kimdir?

Məmməd müəllim gözlərini uzaqda gedən "Pobeda"dan çəkməyib dedi: Bəs bilmədin? İndicə səninlə danışan Səməd Vurğun idi. Hayıf ki, çatıb görüşə bilmədim...

Şəmistan müəlliminin dilindən "Səməd Vurğun" adını eşidəndə bir anlıq yerində donub qaldı: Necə? İndi burdakı Səməd Vurğun idi?..

Şəmistan Sadaxlı yolu ilə şütüyən "Pobeda" gözdən itənə qədər onun arxasınca baxdı. Bu ani görüş və ayrılıq bu ayrılıqdan yaranan nigarançılıq hissi Şəmistanın balaca qəlbində iftixar hissi yaratdı. Daxilindən qopub gələn fərəhli bir pıçıltı ilə dilləndi: "Deməli, mən Səməd Vurğunu gördüm..."

Bu xoşbəxt anın, bu təsadüfü görüşün doğurduğu bu hiss və duyğular uzun müddət Şəmistannan getmədi, hətta qəlbində unudulmaz iz saldı...

...İllər ötdü. Tələbəlik dövründə Şəmistan onu bir vaxtlar doğma Körpülü kəndinin həndəvərində dahi Səməd Vurğunla görüşdürən həmin unudulmaz anları, bu unudulmaz əhvalatı qələmə alıb o vaxt "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdi.

Şəmistanın Səməd Vurğunla bağlı irili-xırdalı yazılarının sonunda görünən imzası çox keçmədi ki, xalq yazıçısı İsmayıl Şıxlının da diqqətini cəlb elədi. O, bir gün Şəmistanı çağırıb bu maraqlı xatirə - hekayələrə görə ona öz razılığını bildirdi və tövsiyə olaraq dedi: Bu gözəl, xeyirxah işi davam etdir...

Böyük yazıçının bu sözü Şəmistanı daha da ruhlandırdı. O vaxtlardan "Şəmistan Nəzirli" imzası mətbuat səhifələrində tez-tez görünməyə və tanınmağa, həm də sevilməyə başladı.

Şəmistanın ilk axtarışları Səməd Vurğun şəxsiyyəti ilə bağlı oldu. O, vaxtı ilə Səməd Vurğunla əlaqədar xatirələri, müvafiq materialları, fotoşəkilləri toplamaq üçün respublikamızın ayrı-ayrı guşələrini qarış-qarış gəzmiş, Zaqafqaziya respublikalarında, Dərbənddə, Moskvada, Leninqradda (Sankt-Peterburq), Kievdə, Daşkənddə, Xarkovda olmuş, şairin qələm, məslək və əqidə dostları Mixail Şoloxovla, Konstantin Simonovla, Pavel Antokolski ilə, Nikolay Tixonovla, Aleksandr Fadeyevin həyat yoldaşı, SSRİ xalq artisti Angelina Stepanova ilə görüşüb çoxlu materiallar toplamış, fotoşəkillər əldə etmişdi.

Şəmistanın bu tarixi görüş və tədqiqatları onun yazmış olduğu "Vurğun keçib bu yerlərdən", "Vurğun ömrü", "Yaddaşlarda yaşayan Vurğun", "Vurğun ömrü məktublarda" adlı kitablarında öz əksini tapmışdır.

Şəmistan ilk qələm məhsullarını hələ son kursda oxuyarkən yazıb mətbutda dərc etdirdi. "Mən Səməd Vurğunu görmüşəm", "Yazılmamış xatirə" və "Dağlar çobana qaldı" adlı sənədli hekayələri ilə oxucuların diqqətini cəlb etmişdi.

Şəmistanın fəaliyyətində elm və mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin öyrənilməsinə dair tədqiqatlar da xüsusi yer tutur. Bu tədqiqatlar nəticəsində onun XIX əsrin istedadlı şairi Abbas ağa Nazirin həyat və yaradıcılığına həsr olunmuş "Millətə xitab", "El şairi Mirzə Səməd" kimi kitabları nəşr edilmişdir.

Görkəmli alim mərhum professor Əkrəm Cəfərin belə bir sözü var: "Keçmişə məhəbbət gələcəyə xidmətdir". Bu sözlər eyni ilə tədqiqatçı jurnalist, hərb tarixçisi kimi tanınmış Şəmistan Nəzirlinin həyat devizinə çevrilmişdi. Doğrudan da Şəmistanın hərb tariximizlə, tarixi şəxsiyyətlərimizlə bağlı arayıb-axtarıb ərsəyə gətirdiyi əsərləri zəngin tarixi keçmişimizə olan diqqət və hörmətinin, gələcək naminə göstərdiyi xidmətin ən yaxşı nümunəsidir.

Şəmistanın çoxillik səmərəli tədqiqatçılıq fəaliyyəti onun oxucular tərəfindən maraqla qarşılanan və sevilən çoxsaylı kitablarında, o cümlədən "Qəribə talelər", "Əfsanəvi Mixaylo", "Azərbaycan generalları", "Qoridən gələn qatar", "Qacarlar", "Cümhuriyyət generalları", "General-qubernator Daş Salahlı Məmməd Koxa", "Qarxunlu Əşrəf bəy", "Arxivlərin sirri açılır", "Topoqraf general İbrahim ağa Vəkilov", "General Yadigar qardaşları", "Krım dəftəri", "General Əli ağa Şıxlinski ömrü", "Güllələnmiş Azərbaycan generalları", " Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov", " 1920-ci ildə Qarabağ döyüşləri", "General Əli ağa Şıxlinski və silahdaşları" və sair kitablarında çox parlaq şəkildə əks olunub. Bütövlükdə bu kitabların sayı 30-dan artıqdır.

**Heykəllər, abidələr təkcə daşdan, dəmirdən, qranitdən və s. olmur. Yazılan kitabların özü də bir abidədir. Şəmistan Nəzirli belə bir abidə qoyub getmiş ziyalılarımızdandır. Ruhu şad olsun.**

**Tofiq Abdullayev,**
**Yazıçı-publisist. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü**



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

# AYPARA AYXANIN "MUTASİYA"SI

*Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni,*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni.*

(M.Füzuli)

**Azərbaycan poeziyasından qırmvzı xətt kimi keçən bu beyt insanın ən ali hissi olan Eşqin məna və mahiyyətini simvollaşdırır.Böyük Aristoted də demişdi ki: "Dünyanın heç bir neməti insanı sevgi qədər doydura bilməz". İnsan çörəksiz, susuz, havasız yaşamadığı kimi, sevgisiz də yaşaya bilməz. Siz elə bir Azərbaycan şairi tapa bilməzsiniz ki, sevgi xətti onun yaradıcılığından keçməsin. Bizim əksər şairlərimizin ilk şeirləri gənclik duyğularının zili, bəmi olan sevgilər deyilmi? Və illər keçdikcə o sevgi hissləri daim xatırlanıb.**

XX əsr Azərbaycan poeziyasında hansı şairi sırf məhəbbət şairi kimi fərqləndirmək olar? Yəni o mənada ki, onun yaradıcılığında bütün mövzuların şahı sevgi olsun. "Sevgi bir kiçicik qəlbə sığsa da, Bəlkə sevgi özü bir kainatdır" məqamından, (Nəbi Xəzri). Bu sevgi kainatını biz Füzuli yadigarı Əliağa Vahidin qəzəllərində görürük ("Vahidəm, xalqımın qəzəl şairi, Məhəbbət şairi, gözəl şairi") O kainatın ayrı-ayrı "hissələrini" istənilən şairimizin şeirlərində tapa bilərik. Amma bizim nəslin yaddaşına Nüsrət Kəsəmənli əsl sevgi şairi kimi daxil oldu. Niyə? O səbəbdən ki, onun şeirlərində yaşanılan hisslər, ürəkdən qopan duyğular inandırıcıydı. Söhbət ondan getmir ki, Nüsrət Kəsəmənli daha çox ayrılıqdan, "Getmək istəyirsən bəhanəsiz get" məqamından söz açırdı, söhbət ondan gedir ki, Nüsrət Kəsəmənlinin lirik qəhrəmanı (şair "Mən"i) öz hisslərində səmimi idi, o, bütün varlığıyla sevgi aləmində yaşayırdı, saxta "sevgi oyununa" meyl eləmirdi .

İlk şeir kitabı "Mutasiya"nı çap etdirən Aypara Ayxanın sevgi şeirləri ilə söhbəti davam etdirək.

Aypara Ayxanın "Mutasiya" şeirlər kitabının başlıca qayəsi də acı bir sevgi "nağılı" fonunda bu mutasiyanın-dəyişilmənin səbəblərini açıqlamaqdır.

Sevgi nədir? sualını vermiş olsaq, Ayparanın şeirlərindən belə bir cavab alınar: Sevgi kədərdir, qüssədir, qarşılıqlı tərəfin vəfasızlığı, etibarsızlığı, gəlməyi bilinməyən gedişidir, sevginin müqəddəsliyinə, ülviliyinə inanan məsum bir qəlbin aldanışlarıdır,..İzah üçün yenə sözlər tapa bilərik. Amma gəlin, bu sevginin ibtidasından başlayıb sonuna varaq.

***SEVGİ ANDI belə başlayır:***
***Səni zirvələrin qarı***
***Sevdiyi kimi sevirəm.***
***Durnaların ilk baharı***
***Sevdiyi kimi sevirəm.***
***Körpə ana ağuşunu***
***Sevdiyi kimi sevirəm***
***Bülbülün gülü, çəməni,***
***Dağların sisi, dumanı,***
***Göyərçinlərin səmanı,***
***Sevdiyi kimi sevirəm..***

Bu istək, bu inam təbiidir, yalan deyil. Hərçənd ki, buna oxşar müraciətlərə şeirlərdə teztez rast gəlirik.

Sevən insanın həyəcanlı günləri. Onun keçirdiyi hisslər, duyğular -əgər bu sevgidirsə, onu ürəyində daşıyan qadın tənhalıqla, yuxusuz gecələrlə, darıxmaqla baş-başa qalmalıdır

***Qəlbim yaralı quş tək çırpınır sol qəfəsdə***
***Mən sənsiz darıxanda.***
***Sevincim qaçaq düşür, üzdən nəşə çəkilir,***
***Gözümdəki yuxular birdən ərşə çəkilir.***
***Ürəyim manqal üstə sanki şişə çəkilir.***

Sonra HƏSRƏT gəlir. "Bahar ətirli eşqin" üstünə qar yağır, dolu düşür.

***Nə qədər ürəkdən sevsək də, fəqət,***
***Kədər, iztirabdır yolu bu eşqin.***
***Səadət günəşi doğsun deyərkən***
***Üstünə yağır qar, dolu bu eşqin.***

Sevgidə qarşılıqlı münasibətlər fənayə uğrayırsa, Hicran - Ayrılıq qılıncları bu sevgini qarşısını sədd kimi kəsir. Xatırlayaq M.Füzulinin "Leyli və Məcnun" poemasını. Məcnun Leyliyə xitabən deyir: "Gər mən, mən isəm, nəsən sən, ey yar? Vər sən, sən isən, nəyəm məni-zar?" - Aypara Ayxanın lirik qəhrəmanı-sevən qadın da eyni hissləri keçirir.

*Yad oldun, yaddan da çox,*
*Yandırdın oddan da çox,*
*Sevdim həyatdan da çox,*
*Sevmədin bir kərə sən.*

Amma sevənləri Ümid yaşadır və bu Ümid təkənmirsə...

Həsrətin, Hicranın külələri yaman əsir, amma sevən insan bu hicran yağışına, bu həsrət şimşəyinə baxmır, gözü həmişə yollara dikilir. "Ürəyimi intizarda qoyanım, Bu dünyanı görən gözüm, hardasan?" Amma bu son Ümid də barsız-bəhərsiz olur. Ayrılıq sevən qadına Ölüm kimi görünür.Sevən qadın dərk edir ki, öz qəlbini bir qəlbsizə əmanət edib. MUTASİYA baş verir..Sevgi nifrətə çevrilir.



Bu da təbiidir - o, sevdiyi insanı "dünyanın mərkəzi və kainatı" hesab etmir daha.

***Bax, süqut etdi illərlə qəlbimdə***
***qurduğun imperiyan.***
***Sultanı olduğun taxtın da devrildi.***
***Sevgim mutasiyaya uğrayaraq nifrətə çevrildi.***

Beləliklə, ibtidası böyük hərflərlə yazıla biləcək "SEVİRƏM"lə başlayan bir məhəbbətin tarixi mutasiyaya uğrayır. Kimdir günahkar? Sevən qadınmı? Biz onun sevgidən nifrətə qədər uzanan yolunu izlədik.Əslində, bir qəlbin tarixidir bu. Onun iztirablarına təbii baxırıq. Böyük filosof Hegel deyirdi ki: "Məhəbbətin həqiqi mahiyyəti ondan ibarətdir ki,özünü düşünməkdən əl çəkəsən, özünü başqa "mən"də tapasan. A.Dümanın bir fikri vardı ki: "Hörmət hissindən məhrum olan məhəbbət çox davam etməz və yüksəlməz".Aypara Ayxanın sevən qadını özünü başqa bir "mən"də tapa bilmir. Və ona görə də hörmət hissindən, qarşılıqlı münasibətdən məhrumdur. O, sevir, amma sevilmir. Mutasiyaya uğratdığı bu adam kimdir? Bütün şeirlərdə onun sifəti məlum deyil.

Aypara Ayxanın "Mutasiya" şeirlər kitabının başlıca-aparıcı xəttindən söz açdıq. Amma həmin kitabda sırf vətənpərvərlik mövzusunda şeirləri də var. Həm də ucadan, lap ucadan qürur hissilə söyləniləcək şeirlər:

*İvanın, Karapetin önündə əyilmədi,*
*Tarixin sınağından üzü ağ çıxdı bu xalq.*
*Qıra bilmədi heç nə polad iradəsini*
*Hürriyyət zirvəsinə bayrağın taxdı bu xalq.*

*Yurd üçün, bayraq üçün canlarından keçənlər,*
*Ruhumuzun önündə sayqıyla baş əyirik.*
*Şəhid oldunuz deyə, bu gün bu torpağa biz*
*Fəxarətlə, qürurla, şövqlə Vətən deyirik!*

Aypara Ayxana uğurlar arzulayaq! Arzu edək ki, mövzu dairəsini genişləndirsin, dünyaya, həyata, sevgiyə kədərlə yox, nikbinliklə baxsın.



Təranə MƏMMƏD

# Vəhdət

**Deyirlər, gözəllik dünyanı xilas edəcək. Bəs gözəlliyi nə xilas edəcək? Axı,gözəlliyin özünün də həmişə xilaskara ehtiyacı var. Məncə gözəlliyin yeganə xilaskarı sevgidir. Sevilməyən gözəllik solur, məhv olur. Bəlkə elə dünyanı bu vəhdət xilas edəcək?! Gözəlliklə sevginin vəhdəti.**

**İncə, zərif bir Çiçək hündür, iri gövdəli Çinar ağacına dəlicəsinə aşiq olur. Çinar ağaçı da Çiçəyə vurulur. Lakin o, Çiçəyi sarmaşıqla qolboyun görüb onun həmən sarmaşığa aşiq olduğunu sanır. Məğrur, incə Çiçək sevdiyi ağaca üreyini aça bilmir. Onun əvəzinə sarmaşıq Çinarın ayağına dolaşaraq Çicəyin ona aşiq olduğunu, hətta onunla bir yerdə olduğunu dəfələrlə Çinara xatırladır.**

**Canını sarmaşıqdan qurtarmağa calışan Çiçək dərdini heç kimə deyə bilmir. O, var gücü ilə sarmaşığın əlindən yaxasını qurtarmağa çalışdıqca, sarmaşıq ona daha da sıx dolaşır.**

**Bir gün yoldan keçən bir kəndli gözəl Çiçəyi sarmaşıqdan ayırıb onun qol-budağını təmizlədi. Çiçəyin gözəlliyi kəndlini o qədər valeh edir ki, o, Çiçəyi dərib aparmaq istəyir, lakin fikrindən daşınıb "Sənə necə qıymaq olar axı? Onsuz da ömrün qısadır. Qal burda, yaşa!"- deyib yoluna davam edir.**

**O gün Çiçək sanki həyata yenidən gəldi. Əmin idi ki, bir gün Çinar əyilib onun ləçəklərini oxşayacaq, qulağına onu sevdiyini pıçıldayacaq. Ancaq belə olmadı. Qürurlu Çinar sarmaşıqla qolboyun gördüyü Çiçəyə bir daha yaxınlaşmadı...**

**Qəlbində sevgisini yaşadan Çiçək sanki dünyadan küsmüşdü. O, dəfələrlə Çinara yaxınlaşıb onu sevdiyini söyləmək istəsə də bunu etmədi...Əvəzində öz gözəlliyinə qəsd edərək günüzlər tamamilə yumulur, gecələr açılırdı. Onun gözəlliyini indi yalnız Ay və ulduzlar görürdü.**

**Sevgisinin heç vaxt qarşılıqlı olmayacağını bilə-bilə Çiçək Çinarı sevirdi...**

**Bir axşam bərk külək əsdi. Yağış , dolu, qasırğa ətrafı yerlə yeksan etdi.**

**Tənha Çiçəyin özü məhv olsa da külək onun toxumlarını düz Çinar ağacının yanına səpdi. Bir müddətdən sonra Çiçək boy atmağa, yenidən yaşamağa başladı. Gözlərini açıb ətrafa baxdı və arxasında illərcə həsrəti İlə yaşadığı Çinar ağacını gördü.**

**Çinar yanındaki başqa bir gözəl ağacın budaqlarını qucaqlayıb durmuşdu. Tənha Çiçək anladı ki, indi burda, iki sevgilinin arasında olmamalıdır...**

**O, sevgisini köksündə boğub gözlərini yumdu və qərara gəldi ki, bu gündən gündüzlər də açacaq və va hər kəsi özünə cəlb etməyə çalışacaq ki, onu burdan qoparsınlar, kimsə onu dərib aparsın....Qoy o bu ağrını, bu həsrəti bir daha yaşamasın.**

**Çiçək son dəfə üzünü Çinara tutub "Səni sevirəm! Sənsiz yaşamaq istəmirəm !" deyib ləçəklərini bağladı. Səhər tezdən üstünə düşən şeh Çiçəyin göz yaşlarına dönüb yerə damçıladı.**

**İllərcə məğrur dayanan qürurlu Cinar birdən əyildi və incəliyi ilə onu məftun edən Çiçəyi görüb budaqlarını ona uzatdı. Sarsılmış, göz yaşlarını gizlətməyə çalışan Çiçək bütün varlığıyla Çinara təslim oldu...**

**Bax beləcə sevgi gözəlliyi qoruyub saxlaya bildi. Çünki gözəllik də sevgisini qoruya bilmişdi. Nəticədə təbiətdə möhtəşəm bir görüntü yarandı. Çinar ömrü boyu tənha Çiçəyin əllərini buraxmadı...**



Qəşəm İSABƏYLİ

# QOŞA SIFIR

**(miniatür hekayə)**

**Özümü 40-50 yaşlarında hiss eləsəm də... təbiət ondan artığını verib mənə. Nəinki o "artıq"ı, hətta bu "azlıq"ları da, yəni 40-50-ni deyirəm, inanın, görməzdən gelirəm.**

**Yaşı-maşı fikrimə yük eləyən də deyiləm heç. Odur ki, kimə baxıram, ürəyim sinəmi yumruqlayır: "Vallah, əziz dost, o səndən azı 3-4 bayram böyükdü!"**

**Ayın 14-ü, yubileyim günü...**

**Günorta üstü çıxdım evdən.**

**Fikirləşirdim ki, yaydı, dondurma alsam yaxşıdı.**

**"Ləzzət"in yanından keçəndə nəfsim mənə güc gəldi. "Ölmək ölməkdi, xırıldamaq nə deməkdi". Girdim "Ləzzət"ə.**

**-Müəllim, nə yazaq tortun üstünə?**

**- 00.**

**-"O"la başlayır adınız?**

**-Xanım, rəqəmlə yazın - qoşa 00.**

**"Ləzzət"dən çıxıb, ad günü məclisimə girəndə alqış qopdu.**

**Ləzzəti qutudan çıxartdım.**

**Tələbə dostlarımın gözləri bərələ qaldı:**

**-Bu nədi?!**

**-Gördüyünüz.**

**-Demək istəyirsən ki, sıfır-sıfırdı yaşın?!**

**-Xeyr, sadəcə yaşımı sıfırlamışam.**



# BAYAT



№ 96 (956)



*Vaqif SƏMƏDOĞLU*

# İşıqlı qəm içində

## Günaha batmağım gəlib, ay Allah

Günaha batmağım gəlib, ay Allah,
Cəsarət dəmidir, saxlama məni,
Sənə inamdan da gözəl bir qız var,
Xəyanət dəmidir, saxlama məni.

Nə millət uğrunda, nə yurd uğrunda,
Nə türklük uğrunda, boz qurd uğrunda,
Sevdalı faciə, xoş dərd uğrunda
Fəlakət dəmidir, saxlama məni.

Özün bax, gör dünya nələrlə dolmuş.
Gör nələr olacaq, gör nələr olmuş,
Yalanla, şərabla, qəmlə yoğrulmuş
Həqiqət dəmidir, saxlama məni.

Qoy artsın dirimə, ölümə söyən.
Halıma ağlayıb dizinə döyən,
Baxtın şahə qalxan atı kişnəyən
Səadət dəmidir, saxlama məni.

Dəymə, qoy qəlbimə girsin bu ilan,
Onun zəhərinə indi can qurban,
Bütün qanunlara meydan oxuyan
Cinayət dəmidir, saxlama məni.

Qoy bu gün sevinim, utanım sabah
Yarımçıq çıxmasın sinəmdən bu ah,
Günaha batmağım gəlib, ay Allah,
Məhəbbət dəmidir, saxlama məni!

## Sevgilim, mən öləndə

Sevgilim, mən öləndə,
Bir küncdə xısın-xısın
Ağlayacaqsanmı sən?
Kimin xarabasında
Bir damla yaşa dönüb
Düşəcəyəm gözündən?

Ağla, qurbanım, ağla,
Ağla, ?eyranım, ağla,
Evdə qonaqlar olsa,
Çıxıb eşikdə ağla.
Gözlə, gecə düşəndə
Yorğan-döşəkdə ağla.
Qulaq asma aləmin
Sözünə bircə kərə.
De, Vaqif ölməliydi,
Gəl öldü na?aq yerə...

Sevgilim, mən öləndə,
Soraq sənə gələndə,
Düşmən gözü güləndə,
Ağla, olanım, ağla,
Ağla, qalanım, ağla,
Ağla, mən ölüm, ağla...

***

Allah,
Nə var, nə yox?
Məndən nə xəbər var?
Gecələri özüm sayaram,
Üzümə açılacaq
neçə səhər var?
Bəyənəcəksənmi məni,
Bəndəni hansı gözlə görəcəksən?
Allah,
Özüm gəlim,
Ya kimisə göndərəcəksən?

***

İlahi,
Yatağın nə sağında
Nə solunda,
Nə bir gözəlin qolunda
Yatmaq istəmirəm.
İlahi,
Nə söyüd kölgəsində,
Nə dünyanın ən azad ölkəsində
Yatmaq istəmirəm.
İlahi,
Dar quyu dibində,
Qaranlıq nəm içində,
İşıqlı qəm içində,
Ağrısız
Bir az yatmaq istəyirəm...

***

Məzarıma
nə başdaşı qoyun,
nə heykəl.
Bir cüt ayaqqabı qoyun,
ayağıyalın
geyib getsin...

***

Eşidirsənmi?
Amma necə eşidəsən...
İki il,
yeddi ayın ayrılığıyla
tutulub qulaqlarımız,
Bir yandan da bu yağış...
Bu yağışda canavarlar da
adam olub yorğan-döşəyə
girmək istəyirlər.
Görürsənmi?
Amma necə görəsən...
Qurtarmayıb hələ də
aramızdan keçən qatarın vaqonları.
Bir yandan da bu yağış...
Bu yağışda qorxudan
səs-səsə verib bar-bar bağırır
Qobustan qayalarının öküzləri də!
Eşidirsənmi?
amma necə eşidəsən...
İki il,
yeddi ayın ayrılığıyla
tutulub qulaqlarımız
bir yandan da bu yağış...

***

Əlimi uzatdım
Sevincə sarı,
Gördüm, yox,
Arada kədər dayanıb.
Atamı səslədim,
Köməyə gəlsin,
Gördüm, yox,
Arada qəbir dayanıb.
Üz tutub gedirdim
Allaha tərəf,
Gördüm, yox,
Arada ömür dayanıb...

***

Yol göstərmək yaxşı şeydir,
getməyə bir yol olsa.
Yoldan sağa dönmək olar,
dönməyə bir sol olsa.
Əldən gözəl nə olar ki,
əl saxlayan qol olsa.
Pəhriz saxlamağa nə var,
evdə yemək bol olsa...

***

Kağızın üstünə düşüb,
İki əlimin kölgəsi.
Yenə də lap zilə qalxıb
Təkliyin yalquzaq səsi...

Vaxtdan yaxa qurtarmışam,
Bilmirəm saat neçədir.
Ay yarımçıq, ulduzlar yox,
Yaman ölməli gecədir...

Nə varım var, nə barxanam
Ömür yükü bağlamağa.
Allah, məni yarı öldür,
Yarı saxla ağlamağa...

***

Məzara bənzəyir yaxşı insan...
Məzar kimi
yaya, qışa dözümlü,
məzar kimi dinməz.
Gözə az-az görünür yaxşı adam
ildə bir-iki kərə baş çəkilən
məzar kimi.
Yaxşı insanın yanında
susmaq olur
o da danışdırmır heç kəsi,
sirr almır adamdan
məzar kimi.
Yaxşı insan da
bir yerə bağlanıb
məzar kimi.
Uzaqdan başdaşına
bənzəyir yaxşı insan
yaxından ağlaşmaya...

***

Saxlayın Yer Kürəsini,
Mən düşmək istəyirəm.
... Ay işığının
sapsarı ipi
düşmüş sularına dənizin
O ipi
boynuma dolayıb
asmaq istəyirəm özümü aydan,
ayağım altından
bir kənara itələyərək
Yer kürəsini..

***

İlahi,
hansı dildə yalvarım sənə?
Bir dua yetər
yoxsa sənə də
ağız açmaq gərəkdir dönə-dönə?
Sənə yox, dünyaya yox,
özümə gülürəm.
çünki yaratdığın neçə min dildən
cəmi ikisini bilirəm.
Bunların birindən
yer də, göy də xəbərsiz...
Odur o birində
yalvarıram sənə indi:
Qospodi, pomoqi, Qospodi...

***

Hamıdan yorğun
kimdir bu dünyada?
Sənmi?
Mənmi?
Başqa bir kəsi
sala bilmirəm yada...
Bəlkə o yalçın qaya?
Yox,
bu dünyanın ən yorğunu
elə bu dünyadır, bu dünya...

***

Dönməyə yer yox.
Belə düz yol
olmamalıdır yer üzündə.
Dönmək arzusundan
dönməməlidir insan.
Hərdən hətta burulmalısan
doğru yoldan,
bu yolda lap gülləylə vurulmalısan.
Amma mütləq dönməlisən!
Ya sağa - eşqə aparan bir dalan,
Ya sola - bir şirin yalan...

***

Nə yaxşı ki, oyaq idim,
Sən yuxuma girəndə,
Nə yaxşı ki, ayıq idim,
Səni o gün görəndə.

Bir divara söykənmişdim,
Sən qarşıma çıxanda,
Nə yaxşı ki, kor deyildim,
O gün sənə baxanda.

Bilmədim, səni buraya
Meh ya duman gətirdi,
Onu bildim ki, o yerdə
Baxtım yaman gətirdi.

Kim deyir ki, yerdən göyə
Dualar boşa gedir?
Göylə bulud, yerlə o qız,
Dualar qoşa gedir.

Sevinməyə anlar varmış,
Allah, şəhər içində,
Fəqət canım duz bağlayıb,
Qanım şəkər içində..

***

Barmaqlar arasından
axıb, gedir ömür.
Nə barmaqlar səninmiş,
nə ömür sənin...

Ovcumda narın qum,
barmaqlarımın arasından
süzülür yerə.
Əlvida,
birrəngli
ağ və qara günlərim...

***

Ömrüm nisyə getdi,
ölümüm də nisyə olsun.
Elə bir bazarın varmı, İlahi?

Məni yuxuda öldür,
ağrısız, əzabsız.
Elə bir azarın varmı, İlahi?

Mənə bu dünyaya baxmaqçün
bir kiçik pəncərə ver.
Elə bir məzarın varmı, İlahi ?..

***

Hərdən mənə elə gəlir ki,
mən yox,
şeirlər məni yazır.
Oxunuram, oxunmuram,
kimi bəyənir məni,
başqasının zəhləsi gedir
hər sözümdən, fikrimdən.
Bilmirəm,
bilmək də istəmirəm
kim cırıb atacaq,
kim əzbərləyəcək məni...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 35 (2507) 18 sentyabr 2026-cı il

# DÜNYANIN ƏN GÖZƏL YURDU: KƏLBƏCƏR!



**Sizi bilmirəm, mən Sovet dönəmində, xüsusən tələbəlik illərində Kəlbəcərə tez-tez gedirdim. Oranın təbiəti, havası, suyu, torpağı məni heyran etmişdi. Çünki Azərbaycanın heç bir rayonunda görmədiyim möcüzəli təbiət, əsrarəngiz təbiət bu yerlərdə vardı. Elə indi də var ha, sadəcə olaraq, mən keçmişi ona görə xatırlayıram ki, Kəlbəcər dünyanın ən gözəl yeri olub və bu gün də dünyanın ən gözəl yeridi. Bir də görürsən ki, göy üzünü bulud aldı, yayın ortasında şimşək çaxdı, göy guruldadı. Bir leysan yağış yağdı ki, gəl görəsən. On beş-iyirmi dəqiqədən sonra yenidən göy üzündən günəş boylandı və bizi öz ağuşuna aldı. Mən belə anların Kəlbəcərdə çox şahidi olmuşam.**



Bir dəfə dostum, qardaşım, iş adamı İlham Əliyev mənə Kəlbəcərdən bir neçə video göndərmişdi. Həmin videolarda Kəlbəcərin yaz fəsli lentə alınmışdı. İlham müəllim güllərin, çiçəklərin içində möcüzəli bir aləmə düşmüşdü. O güllərdən, çiçəklərdən bir qucaq toplamışdı və sevinə-sevinə deyirdi ki, vallah, dünyanın heç bir yerində mən belə gözəllik görməmişəm. Bu yamaclarda, bu ormanlarda, bu düzənliklərdə adını bilmədiyim gül-çiçək və digər gözəl otlar var. İlham qardaşımız o otların ətrini doyunca nəfəsinə çəkir və deyirdi ki, vallah, bu güllərdən, çiçəklərdən cənnət ətri gəlir. Yolunuz düşsə, gəlin Kəlbəcərdə cənnəti görün!

Bəli, Kəlbəcər bu gün də cənnətin bir yeridir. O cənnətin ki ora kim ayaq basırsa, tilsimli dağların yamaclardan boylanan güllərin, çiçəklərin sehrinə düşür. Və elə bilir ki, bura dünyanın ən gözəl, ən qəşəng, ən unikal bir yeridir.

Bəli, bu yerləri uzun illər ermənilər bizim əlimizdən almışdılar. Ancaq Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ savaşında möhtəşəm qələbə qazandı və möhtəşəm Qarabağı bizə qaytardı. Möhtəşəm Qarabağın möhtəşəm Kəlbəcərini biz yenidən gördük. Buz bulaqlarını, yaşıl ormanlarını, zirvəsində qartalları qıy vuran dağları gördük. O dağları ki otuz ildən çox gözünü yollara dikib bizi gözləyirdi. Və Allahın, prezidentin, ordumuzun köməkliyi ilə biz bu həsrətə son qoyduq və Kəlbəcərimizlə görüşdük.

Bu günlərdə yolumuz yenidən Kəlbəcərə düşmüşdü. Dağları, ormanları, yamacları keçib düz Kəlbəcər şəhərinə gəldik. Ona görə Kəlbəcər şəhəri deyirik ki, burda qısa müddət ərzində ölkə prezidentinin böyük qayğısı və diqqəti nəticəsində unikal, möhtəşəm, abadlıq, quruculuq işləri görülüb. Hava həmin havadır, torpaq həmin torpaqdır, su həmin sudur, amma bircə Kəlbəcər həmin şəhər deyil. Amma ən möcüzəli hadisə ondan ibarətdir ki, qısa zaman kəsiyində burda çoxlu sayda yaşayış binaları, sosial obyektlər, uşaq bağçası və digər zəruri tikililər inşa edilərək ora köç etmiş insanların istifadəsinə verilib. Binalar müasir memarlıq üslubunda və milli ənənələrə uyğun olaraq inşa edilib. Eyni zamanda Kəlbəcərin soyuq hava şəraiti nəzərə alınaraq hər evdə kombi sistemi quraşdırılıb.

Biz tanımadığımız bir evin qapısını döyürük və tanımadığımız bir evin qapısını üzümüzə açırlar. Bakıda heç vaxt tanımadığın qapını sənin üzünə açmazlar. Ancaq bunu milli adət-ənənələrimizi yaşadan rayon yerlərində eləyə bilərlər. Qapını açan 75 yaşlı Cahid Əliyevdir. Bizi gülər üzlə qarşılayıb evə dəvət edir. Üçotaqlı mənzildə səliqə-səhman adamın diqqətini xüsusilə cəlb edir. Bununla yanaşı, mənzillər çox yaraşıqlı, səliqəli və yüksək təmirdən sonra istifadəyə verilib. Cahid kişi evdəkiləri səsləyir:

- Ay bala, qonağımız gəlib, tez çay dəmləyin. Çayın yanında Kəlbəcərin balını da qoymağı unutmayın.

On-on beş dəqiqə keçmir, qəşəng bir çay süfrəsi açırlar. Çay da elə-belə çay deyil ha, kəklikotudan dəmlənmiş çaydır. Yəni min bir dərdin dərmanıdır. Masanın üstündə limon olsa da stəkanımıza doğranmış limondan atmırıq. Çünki kəklikotu çayının ətrini və gözəlliyini limon itirir. Onu balla içəndə daha ləzzətli olur. Yaxın dostum, əslən laçından olan Arif Kəlbəcər balını çay qaşığında stəkana tökub qarışdırır. Bir qurtum içir, görürəm ki, ona ləzzət edir. Mən balı sevməsəm də tamah mənə güc gəlir, mən də o baldan bir çay qaşığı dadıram.

Cahid kişi yenidən dillənir:

- Məllim, bu bal Bakıdakı baldan deyil ey, hətta şəkər xəstəsinə bu baldan yemək tövsiyyə olunur. Çünki Kəlbəcər balı min bir dərdin dərmanıdır.

Mən də o baldan bir çay qaşığı dadıram. Görürəm çox dadlıdı. Bəhmənlidə də mənim qohumum Habil arı saxlayır, o da hər il mənə beş litr bal verir. Amma bu bal Habilin xətrinə dəyməsin, bizim kəndin balından da ləzzətlidi. Cahid kişi görür ki, balı çox ləzzətlə yeyirəm, yenidən üzümə baxıb gülür:

- Ürəyin nə qədər istəyir baldan yeyərsiniz, hələ gedəndə hərənizə iki kilo bal verəcəm. Qoy görsünlər ki, bizim bal necə dadlıdır.

Cahid kişinin övladları, nəvələri ilə də tanış oldum. Kəlbəcərə qayıtmaqdan və orda yaşamaqdan çox zövq alırlar. Deyirlər ki, biz indi xoşbəxtik. Təkcə xoşbəxt olan onlar deyil, bu gün Kəlbəcərdə yeni tikilmiş binalarda məskunlaşmış yüzlərlə insan, ailədir.

Bu gün Kəlbəcərdə demək olar ki, abadlıq və quruculuq işləri daha sürətlə davam edir. Yeni mənzillər tikilir, yollar çəkilir, tunellər istifadəyə verilir.

Bununla yanaşı, Kəlbəcərdə bu günlərdə möhtəşəm bir tədbir - bal festivalı keçirildi. Həmin festivalda xarici ölkələrdən gəlmiş səfirlər, nümayəndələr və qonaqlar da iştirak edirdi. Bir səfir Kəlbəcər balının dadına baxdı və çox xoşuna gəldi və səhv etmirəmsə, o baldan da aldı.

**Festivalda nümayiş etdirilən balın dadına biz də baxdıq, çox ləzzətli idi. Bax, bu gün Kəlbəcər belə bir möhtəşəm, belə bir gözəl yurddur. Ora gedən bir də getmək istəyir və hamıya Allah-Təala o cənnət məkana getməyi qismət eləsin!**

**Emil FAİQOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ

MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin Egey sahilləri yeni marşrutlar təqdim edir

**Səyahət dünyası daim yeni trendlər və fərqli kəşf imkanları ilə zənginləşsə də, bəzi səyahət vərdişləri öz populyarlığını qoruyur. Avtomobillə səyahət də bunlardan biridir. Bu səyahət forması marşrutu öz tempinizə uyğun qurmaq, yol yoldaşlarınızla fərqli təcrübələri bölüşmək və yolboyu unudulmaz xatirələr toplamaq imkanı yaradır. Booking.com-un 2026-cı il üzrə Səyahət Proqnozlarında da qeyd olunduğu kimi, avtomobil səyahətləri getdikcə daha çox spontanlıq, kəşf və birgə yaşanan təcrübələr üzərində qurulur.**

Müxtəlif təbiəti, mədəniyyəti və səyahət imkanları ilə Türkiyədə hər yol yeni bir mənzərə və fərqli təcrübə vəd edir. Mənzərəli kənd yollarından və qədim abidələrdən tutmuş sahil şəhərlərinə və yerli mətbəxin özünəməxsus dadlarına qədər hər marşrut ölkənin fərqli simasını üzə çıxarır. Türkiyənin Egey bölgəsi isə avtomobil səyahətləri üçün xüsusilə əlverişlidir. Burada krujeva kimi sahil xətti və firuzəyi sular, füsunkar sahil şəhərləri, qədim irs, zəngin mətbəx və rahat həyat tərzi ilə vəhdət təşkil edir. Yolboyu qarşılaşdığınız mənzərəli dayanacaqlar və gözlənilməz kəşflər səyahətin özünü də unudulmaz təcrübəyə çevirir. Gəlin Türkiyənin Egey sahillərində avtomobillə səyahətin diqqətçəkən dayanacaqlarına nəzər salaq.

### *Gelibolu, Troya və Assos*

Egey səyahətinizə tarixin və sahil gözəlliyinin bir araya gəldiyi Çanaqqaladan başlaya bilərsiniz. İlk olaraq Gelibolunu kəşf edin, Gelibolu yarımadasındakı tarixi məkanları və memorialları ziyarət etdikdən sonra UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş qədim Troya şəhərinə doğru yol alın. Burada 5000 ildən artıq tarix on arxeoloji təbəqə boyunca öz izlərini qoruyub saxlayır. Mükafatlara layiq görülmüş Troya Muzeyinə baş çəkmək qədim şəhər və burada aşkar edilmiş mühüm tapıntılar haqqında daha ətraflı məlumat əldə etməyə imkan verir.

Troyadan cənuba doğru hərəkət edərək Assosa çatın. Burada qədim irs Egey sahillərinin firuzəyi suları və gözoxşayan mənzərələri ilə əvəzlənir. Behramkale kəndində yerləşən Assos olduqca sərin və təravətli suları ilə seçilir. Bu xüsusiyyət onu Türkiyənin bir çox digər sahil məkanlarından fərqləndirir. Burada dəniz kənarında düşərgə qura və ya füsunkar butik otellərdən birində qala, daha sonra isə Kadırğa körfəzi kimi kristal təmiz sulara malik koylarda sərinləyə bilərsiniz. Panoramik mənzərələr təqdim edən Afina məbədini ziyarət etmək, ardınca liman ərazisindəki restoranlardan birində təzə balıq dadmaq da mümkündür.

Cənuba doğru yolunuza davam edərkən təmiz havası ilə tanınan əfsanəvi Kaz (İda) dağlarının ətəklərindən keçəcəksiniz. Dağların yamacları boyunca yerləşən Adatepe və Yeşilyurt kimi mənzərəli kəndlərdə qısa fasilələr verdikdən sonra yolunuz Ayvalıka uzanır.

### *Ayvalık*

Ayvalıqa çatdıqdan sonra səyahətinizə məşhur Ayvalık tostunu dadmaqla başlayın. Ardınca Sarımsaklıdan Altınovaya qədər uzanan gözəl çimərlikləri kəşf edə bilərsiniz. Sahil boyunca gəzinti ilə kifayətlənməyərək şəhərin füsunkar küçələri ilə dolaşın və Köhnə Bazar, Ayazma kilsəsi və Saatlı məscidi kimi tarixi məkanlarla tanış olun. Bölgənin ən təsirli mənzərələrindən birini görmək üçün Egeyə panoramik baxış açılan təpə üzərində yerləşən Şeytan Sofrasına yollana bilərsiniz. Əsas quru ərazisi ilə körpü vasitəsilə birləşən Cunda adasına da baş çəkmək mümkündür. Kiçik ada dəniz məhsulları restoranları ilə məşhurdur. Burada kalmar, krevet, ahtapot və papalina (yerli xırda balıq növü) ilə yanaşı müxtəlif ənənəvi məzələrdən ibarət əsl Egey süfrəsinin dadını çıxara bilərsiniz.

### *Çeşmə: İzmirin məşhur yarımadası*

Cənuba doğru hərəkət edərək İzmirə gedin. Yolda qədim irsi və füsunkar şəhər mərkəzi ilə seçilən Bergamaya baş çəkdikdən sonra Çeşmə yarımadasına doğru yolunuzu davam etdirin. Burada sizi kristal təmiz sular, şəfalı termal bulaqlar, Çeşmə qalası kimi tarixi məkanlar, canlı gecə həyatı və gözəl çimərliklər gözləyir.



Alaçatı isə Türkiyənin kitesörfinq üçün ən məşhur məkanlarından biri kimi beynəlxalq şöhrət qazanıb. Qastronomiya həvəskarları üçün Urla da marşrutun diqqətçəkən dayanacaqlarındandır.

Tanınmış üzüm bağları, şərab marşrutları və MICHELIN tərəfindən tanınan restoranları ilə seçilən şəhər Egeyin zəngin dadlarını ön plana çıxaran, təsərrüfatdan birbaşa süfrəyə təqdim olunan xüsusi kulinariya təcrübələri vəd edir.

### *Kuşadası: Efesin yaxınlığında yay istirahəti*

Urla üzüm bağlarını və sahil ab-havasını geridə qoyaraq yolunuzu cənuba, Səlcuq və Kuşadası istiqamətində davam etdirin.

Səlcuqda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş qədim Efes şəhərini və BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən Dünyanın Ən Yaxşı Turizm Kəndlərindən biri seçilən füsunkar Şirincə kəndini kəşf etmək üçün dayanmağa dəyər. Buradan Türkiyənin ən mühüm kruiz və turizm mərkəzlərindən biri olan Kuşadasına doğru yolunuzu davam etdirin. Burada çoxsaylı çimərlik və koylar sizi gözləyir. Qadınlar dənizi, Sevgi çimərliyi ilə yanaşı Dilek yarımadası-Böyük Menderes deltası Milli Parkının ərazisində yerləşən İçmələr, Aydınlıq, Kavaklıburun və Karasu körfəzləri də bölgənin məşhur istirahət məkanlarındandır. Daha fərqli kəşflər etmək istəyənlər üçün qayıq kirayələmək, insan ayağının az dəydiyi koyları və sahilin gizli guşələrini görmək üçün ideal seçimdir. Günün sonunda gün batımını izləmək üçün Güvercin adasına yollana bilərsiniz. Kuşadasının zəngin kulinariya mənzərəsi də diqqət çəkir. Burada dənizkənarı restoranlarda təzə dəniz məhsullarından tutmuş, bölgəyə xas yeməklər təqdim edən ənənəvi kənd restoranlarına qədər müxtəlif seçimlər var.

### *Didim: Aydının daha bir incisi*

Kuşadasını geridə qoyaraq sahil boyunca cənuba, Didimə doğru hərəkət edin. Kuşadası ilə Bodrum arasında yerləşən Didim Altınkum, Sarıkum, Hüzur və Akbük kimi gözəl çimərlikləri, eləcə də gündəlik qayıq turları ilə kəşf edə biləcəyiniz Cənnət, Akvarium və Saplı ada kimi gizli koyları ilə seçilir. Didim yalnız çimərlikləri ilə deyil, bölgənin qədim tarixinə açılan qapı olması ilə də diqqət çəkir. Qədim Didim və ya Didyma vaxtilə Milet şəhərinin müqəddəs ziyarətgahı olub. Bu gün burada ion üslubundakı sütunları və daş üzərində oyulmuş məşhur Meduza təsviri ilə seçilən Apollon məbədini ziyarət etmək mümkündür.

### *Bodrum: Avtomobil səyahətinin ən gözəl dayanacağı*

Didimdən sonra Egey sahilləri boyunca səyahətinizin son dayanacağı Bodrum olacaq. Türkiyədə dəbdəbəli istirahətin sevimli ünvanlarından biri olan Bodrumda beşulduzlu otellərdən füsunkar düşərgə məkanlarına qədər müxtəlif yerləşmə imkanları təqdim olunur. Mavi Bayraqlı çimərlikləri, çimərlik klubları, dalğıclıq məkanları və Mavi səyahət zamanı kəşf edə biləcəyiniz möhtəşəm koyları ilə Bodrum unudulmaz təəssüratlar vəd edir. Ağ rəngli evləri və ətirli naringi bağları ilə tanınan Bodrum Bodrum qalası və Halikarnas mavzoleyinin qalıqları kimi tarixi xəzinələri ilə də seçilir. MICHELIN tərəfindən tanınan bu şəhərdə günün ən təzə ovundan hazırlanmış dəniz məhsulları və yerli şərablarla müşayiət olunan möhtəşəm şam yeməyindən də zövq ala bilərsiniz.

**Səyahətçilər üçün qeyd: Əgər yolun burada bitməsini istəmirsinizsə, Bodrumdan cənuba doğru hərəkətinizi davam etdirərək Egey dənizinin Aralıq dənizi ilə qovuşduğu ərazilərdə yerləşən daha çox unudulmaz sahil məkanlarını kəşf edə bilərsiniz. Marşrutunuzu Datça, Marmaris və Fəthiyə istiqamətində davam etdirdikdən sonra Türkiyə Rivierasının incisi Antalya şəhərinə çata bilərsiniz. Burada Kaşdan Alanyaya qədər sizi heyranedici sahil mənzərələri və fərqli dayanacaqlar gözləyir.**

## *BORÇALI AŞIQLARIN MÖHTƏŞƏM KONSERTİ*



**2026-cı il sentyabrın 14-də R. Behbudov adına Dövlət Mahnı Teatrında Borçalı aşıqlarının möhtəşəm konserti baş tutdu. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2026-cı il üçün kiçik qrant müsabiqəsinin qalibi kimi, ”Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyi tərəfəindən həyata keçirilən ”Borçalı aşıq mühitini tanıyaq və tanıdaq” adlı layihə çərçivəsində baş tutan tədbirdə Borçalı aşıqlarının bir-birindən gözəl ifaları səsələndirildi. İB-dən tezadlar.az-a bildirilib ki, Respublikamızın görkəmli elm və sənət adamlarının, millət vəkillərinin, ictimai-siyasi xadimlərin də qatıldığı tədbiri giriş sözü ilə Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu açaraq Borçalı aşıq mühitinin keçdiyi tarixi yola qısa ekskurs etdi, Borçalı aşıq mühtinin Azərbaycan aşıq sənətinə töhfələrindən danışdı, bu layihənin həyata keçirilməsində əsas məqsədin aşıq sənətinin inkişafında tarixən mühüm rol oynamış Borçalı aşıq mühiti haqqında ətraflı məlumat vermək, bu mühiti daha geniş müstəvidə təqdim etmək, xüsusən də, bu mühitin aşıqlarına, onların ifalarındakı özünəməxsusluqlara diqqəti cəlb etmək olduğunu vurğuladı. Qeyd olundu ki, Bakıda Borçalı aşıqlarının ayrıca konserti sonuncu dəfə ötən əsrin 80-ci illərinin əvvəllərində təşkil olunub.**

M.Nəbioğlu həmçinin mədəniyyətimizin çox mühüm qolu olan aşıq sənətinə ölkə rəhbərliyinin qayğı və diqqətinin son illərdə daha da artdığını vurğuladı.

Millət vəkili Aydın Hüseynov ”Ozan Dünyası” AYT İB-nin son illərdə həyata keçiriyi layihələrin əhəmiyyətini qeyd edərək, ”Borçalı aşıq mühitini tanıyaq və tanıdaq” adlı bir layihənin həyata keçirilməsinin günümüzdə çox aktula olduğunu diqqətə çatdırdı, Borçalı aşıq mühiti və bütövlükdə Borçalıda yaşayan soydaşlarımızla bağlı belə layihələrin davamlı xarakter almasının vacib olduğunu dedi.

Milli Məclisin əməkdaşı, Beynəlxalq ”Alaş” ədəbi mükafatı laureatı, şair-publisist Əkbər Qoşalı ”Ozan Dünyası” AYT İB-nin fəaliyyətini yaxından izlədiyini və təqdir etdiyini vurğulayaraq, təşkilatın rəhbəri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun eyni zamanda aşıq sənəti ilə bağlı bir çox dəyərli kitabların müəllifi olduğunu diqqətə çatdırdı.

ADMIU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru, ustad aşıq Altay Məmmədli Borçalı aşıq mühitinin havacatda və ifa tərzindəki özəlliklərindən, bu mühitin zaman-zaman sənətə öz sözünü demiş ustad aşıqlarından söhbət açdı.

Gənc tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bu günlərdə Milli Konservatoriyada yeni yaradılan ”Aşıq sənəti” kafedrasının müdiri vəzifəsi etibar edilmiş Hafiz Kərimov Borçalı aşıq mühitinin özünəməxsusluğuna elmi baxış sərgilədi. Borçalı aşıq mühitinin təmsilçilərindən Murad Kövrək (”Baş divani”), Cahangir Quliyev (”Zarıncı”), Nargilə Mehdiyeva (”Mansırı”), Ramin Qarayev (”Osmanlı divanisi”), Qabil Abdıyev (”İncəgülü”), Əşrəf Təmirov (”Göyçəgülü”)” Fikrət Cəfərov (”Dastanı”), Ayişə Səyyadqızı (”Aran gözəlləməsi”), Fatimə Məmmədova (”Naxçıvanı”) və Murad Həsənovun (”Ruhani”) ifalarında səslənən aşıq havaları tamaşaçıların zövqünü oxşadı, Borçalı aşıq mühitinin bu günü ilə bağlı mənzərəni canlandırdı.

Tədbirin sonunda görkəmli dövlət xadimi, tarixçi alim Həsən Həsənov səhnəyə qalxaraq layihənin aktuallığını qeyd etdi, Borçalı aşıqlarının bir-birindən maraqlı ifalarının səsləndirilməsi ilə yanaşı, həm də vacib olan maarifləndiricilik xarakterini xüsusi vurğuladı. ”Ozan Dünyası” AYT İB-nin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun aşıq sənətinin təbliği istiqamətindəki fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, tədbirin yüksək səviyyədə baş tutmasına görə təşkilatçılara minnətdarlığını bildirdi.

Sonda tədbirdə çıxış edən aşıqlar ”Ozan Dünyası” AYT İB-nin ”Fəxri diplomu”u ilə təltif olundular. Fəxri diplomları aşıqlara Həsən Həsənov, Aydın Hüseynov və Elnur Məmmədli təqdim etdilər. Daha sonra xatirə şəkilləri çəkildi.

**Emil FAİQOĞLU**

**Azərbaycan Respublikası Milli Aviasiya Akademiyasının Nəqliyyat Texnologiyaları fakültəsinin Aviasiya təhlükəsizliyi mühəndisliyi ixtisasının 2-ci kurs tələbəsi Abdulzadə Əli Mərdan oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları Akif İmanlı, Rasim Nəbioğlu və İbrahim Yusifoğlu Türk xalqları ədəbiyyatı şəbəsinin müdiri professor **Məmməd Əliyevə** qardaşı

**Ağası Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 295**
Çapa imzalanmışdır: 17.09.2026